Xalqın qəzeti!

# Xalq qəzeti

№ 260 (30954) 10 dekabr 2025-ci il, çərşənbə

Gündəlik ictimai-siyasi qəzet

1919-cu ildən çıxır

Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi


# Slovakiyanın Qarabağda ucaltdığı “Ağıllı kənd” əbədi dostluq körpüsüdür

## *Bratislavada Prezident İlham Əliyevin şərəfinə rəsmi ziyafət verilib*



**Dekabrın 8-də Bratislavada Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin şərəfinə Slovakiya Respublikasının Prezidenti Peter Pelleqrininin adından rəsmi ziyafət verilib. Dövlət başçıları ziyafətdə çıxış ediblər.**

### Prezident Peter Pelleqrininin çıxışı

– Cənab Prezident, əziz İlham.

Hökumət nümayəndələri, xanımlar və cənablar, əziz dostlar.

Cənab Prezident, bu gün Sizi mötəbər nümayəndə heyətinizlə birlikdə Bratislava qəsrində salamlamaq mənim üçün böyük şərəfdir.

Mənim Sizin ölkənizə bir neçə dəfə səfər etmək imkanım olub. Həmişə doğma ölkəmizə ölkəniz haqqında güclü təəssüratlarla qayıtmışam. Ölkəniz minilliklər boyu özündə müdriklik, cəsarət və gözəlliyi əks etdirib. O, alov rəmzini təcəssüm etdirir. Bu, təkcə Abşeronun əbədi yanan alovu deyil. Bu, mehribanlıq, qətiyyət, mətanət və fəxarət alovudur. Sizin zəngin tarixiniz musiqidə yazılıb, lakin onu həm də Qobustan qayalarında görmək olar. Ötən il bu möhtəşəm yeri ziyarət etmək mənə nəsib oldu. Siz, cənab Prezident, ölkənizin gələcəyini ambisiya, innovasiya və inamla qurursunuz. Bratislavaya geri dönərkən mən də sizə yaxın olduğumuzu hiss etdim.

Coğrafi məsafənin bizi ayırdığına baxmayaraq, ilk baxışdan iki ölkə bir-birinə göründüyündən daha yaxındır. Əsrlər boyu Azərbaycan sivilizasiyaların qovuşuğunda yerləşmiş və bir-birindən uzaqda olan ölkələri tarixi ticarət yolları ilə birləşdirmişdir. Xalqınız digər millətlərə hörmət bəsləmək və dialoq qurmaq xüsusiyyəti ilə seçilir.

Slovakiya hazırda BMT və NATO-da dərin köklər salaraq tarixən güclər arasında toqquşmaların, rəqabətin şahidi olmuşdur və indi Avropanı Şərqlə birləşdirən regionda bir hab rolunu oynayır. Bütün hallarda biz dialoqun, diplomatiyanın, sülhün və beynəlxalq hüquqa hörmətin tərəfdarıyıq. Biz səmimi, açıqqəlbli, qonaqpərvər və ənənələri sevən bir xalqıq. Biz dostluğa, mehribanlığa və digər humanist keyfiyyətlərə hörmət göstərməyə sadiqik.

*(ardı 2-ci səhifədə)*

## Azərbaycan–Slovakiya əməkdaşlığı strateji mərhələdə



Səhifə ⇨ 12

## Azərbaycan–NATO: Hərbi təhlükəsizlikdən strateji tərəfdaşlığa



Səhifə ⇨ 9

## “3+3”ün növbəti görüşü: Bakı və Ankaranın əminliyi, Tehran həmrəydir

### *Qalır İrəvan ...və Moskva*

**“3+3” regional məşvərət formatı. 44 günlük müharibədən sonra Azərbaycanın və Türkiyənin təşəbbüsü ilə yaradılan bu format İranın xarici işlər naziri Seyid Abbas Əraqçinin Bakıya səfəri zamanı da müzakirə mövzusuna çevrildi.**




A.Əraqçinin azərbaycanlı həmkarı Ceyhun Bayramovla keçirdiyi təkbətək görüşdə beynəlxalq və regional əməkdaşlıq məsələləri ətrafında fikir mübadiləsi aparılarkən, Azərbaycan və İran arasında BMT, UNESCO, Qoşulmama Hərəkatı, İslam Əməkdaşlıq Təşkilatı, Asiyada Qarşılıqlı Fəaliyyət və Etimad Tədbirləri üzrə Müşavirə (AQEM) və digər təşkilatlar, o cümlədən “3+3” çərçivəsindəki qarşılıqlı etimad və dəstəyə əsaslanan əməkdaşlıq yüksək qiymətləndirildi.

*(ardı 10-cu səhifədə)*

## Sülh missiyasının ilk görüntüləri



**ABŞ Prezidenti Donald Trampın Prezident İlham Əliyevə ünvanladığı son məktub Cənubi Qafqazın siyasi gündəmini yenidən dəyişdi. Məktubun məzmunu həm Vaşinqtonun regiona baxışında dəyişikliklərin dərinliyini göstərir, həm də Azərbaycanın sülh təşəbbüslərinin artıq qlobal müstəviyə daşındığını sübuta yetirir.**

Trampın “Amerika Birləşmiş Ştatlarının Prezidenti olaraq, dünyada münaqişələrə son qoymağa, bütün insanlar üçün sülh və rifahın təmin edilməsinə sadiq qalıram. Sizin davamlı tərəfdaşlığınızla qeyri-mümkün nə varsa, ona nail olacağıq” fikri Bakının illərdir göstərdiyi siyasi iradə ilə üst-üstə düşür. Bu paralellər həm də yeni bir sualı gündəmə gətirir: Belə sinxronluq təsadüfdür, yoxsa regionda yeni geosiyasi arxitektura qurulur?

*(ardı 4-cü səhifədə)*

## Milli Məclisin plenar iclası



Səhifə ⇨ 4

## Heydər Əliyev: Məni sən dəvət edirsən, yoxsa Anar?



Səhifə ⇨ 5

## Erməni kilsəsi mövqeyini itirdikcə davakarlaşır



Səhifə ⇨ 10

## Azərbaycan dövləti insan hüquqlarının ali təminatçısıdır




Səhifə ⇨ 11

## Tailand–Kamboca: yenə silahlar “danışır”




Səhifə ⇨ 15

# Bratislavada Prezident İlham Əliyevin şərəfinə rəsmi ziyafət



(əvvəli 1-ci səhifədə)

Ola bilsin məhz buna görə və həm də şəxsi təmaslarımız vasitəsilə illər boyunca qurduğumuz Slovakiya-Azərbaycan tərəfdaşlığı təbii bir tərəfdaşlıq kimi görünür və istənilən ab-havada daimi xarakter daşıyır. Biz həmişə sizin ərazi bütövlüyünüzə və münaqişənin davamlı, sülh yolu ilə həllinə dəstək göstərmişik. Avqustda imzalanmış razılaşma "sülhə nail olmaq mümkündür" kimi güclü mesaj verən böyük bir nailiyyətdir. Bu da dünyanın digər yerlərində bizlər üçün bir ilham mənbəyi olmalıdır. Enerji təchizatımız təhlükə altında olduqda biz Sizə müraciət edə bilərik.

Ötən il Strateji Tərəfdaşlıq haqqında Bəyannaməni imzaladıqda biz münasibətlərimizə yeni enerji ilə təkan verdik. Sizin Bratislavaya ilk rəsmi səfəriniz bu münasibətlərin gücünü əks etdirir. Bu gün apardığımız müzakirələrin nəticələri onu göstərir ki, biz münasibətlərə diqqət yetirsək və onları daha da inkişaf etdirsək bunun bəhrəsini görərik. Biz bunu xüsusilə enerji, iqtisadiyyat və müdafiə sektorlarında görürük. Mübaliğəsiz deyə bilərəm ki, biz münasibətlərimizin yeni fəslinə qədəm qoyuruq. Biz bu sektorlarda əməkdaşlığın daha da genişləndirilməsi üçün geniş imkanlar görürük və onlardan kənarda üzümüzə yeni fürsətlər açılır.

Ümidvaram ki, yeni imkanlar və əlaqələr, yeni iqtisadi imkanlar kəşf edə və turizm, mədəniyyət, yaxud idman sahəsində əməkdaşlıq vasitəsilə xalqlarımız arasında əlaqələr yarada bilərik.

Cənab Prezident, xanımlar və cənablar, biz etimad üzərində güclü, qarşılıqlı tərəfdaşlıq qurmuşuq.

Sağ olun.

### Prezident İlham Əliyevin çıxışı

– Hörmətli cənab Prezident, əziz qonaqlar.

İlk növbədə, cənab Prezident, Slovakiyaya rəsmi səfərə dəvət etdiyinizə görə Sizə bir daha təşəkkürümü bildirirəm. Qonaqpərvərliyinizə və dostluğunuza görə minnətdaram. Biz uzun müddətdir ki, bir-birimizi tanıyırıq, dəfələrlə görüşmüşük. Lakin bu, xüsusi statusa malik rəsmi səfərdir. Səfər böyük hörmətə və rəğbətə layiq, həqiqi dost olan ölkəyə həyata keçirilir. Ölkələrimiz kifayət qədər bir-birindən uzaqda yerləşsə də, Siz xalqlarımız arasında oxşarlığı qeyd etdiniz. Bu fikirlərinizə tam şərik çıxıram.

Aramızda çox oxşarlıqlar mövcuddur. Əsrlər boyu böyük imperiyaların tərkibində olmuşuq. Biz sosialist blokun dövlətləri hesab edilən ölkələrdə yaşamışıq. Müstəqil deyildik. Müstəqilliyimizin çox məhdud hüdudları olub. Demək olar ki, eyni vaxtda - 1990-cı illərin əvvəllərində əsl müstəqil ölkələr olduq. O vaxt müstəqilliyi və bütün təsisatları, həmçinin gələcəyimizi sıfırdan qurmalı idik. İndi isə 30 ildən bir qədər artıq müddətdə Slovakiyanın əldə etdiyi tərəqqiyə nəzər salsaq görərik ki, həmin irəliləyiş xalqınızın güclü iradəsi, tarixiniz, mədəniyyətiniz və milli mənsubiyyətiniz sayəsində əldə olunub. Bu gün böyük təəssürat bağışlayan qədim Qəsrdə birgə olduğumuz zaman mən bir daha enerjili, müqavimətli və müstəqil siyasət yürütməkdə bacarıqlı olmağınızın mənbəyini gördüm.





Əsrlər boyu milli mənsubiyyətinizi qoruyub saxlaya bilmisiniz, baxmayaraq ki, bu, asan deyildi. Çox millətlər tarix boyu assimilyasiyaya uğrayıb. Bir çox millətlər dövləti qurmaq, dövlətçiliyi qoruyub saxlamaq bacarığını əldən buraxdılar. Lakin Siz bu vəzifənin öhdəsindən gəldiniz. Bu gün Slovakiya adambaşına düşən ümumi daxili məhsula, sənayenin inkişafına, insan kapitalına və yaşayış standartlarına görə aparıcı ölkələrdən biridir. Ölkəniz uğur qazanmaq, öz milli mənsubiyyətini, ləyaqətini qoruyub saxlamaq və dostluq qurmaq istəyən ölkələr üçün örnək ola bilər. Biz Azərbaycanda Slovakiyanı olduqca sülhsevər, dostluğu və imkanları yaradan, dostluğu dəyərləndirən ölkə kimi görürük. Bütün bunlar aramızdakı münasibəti əks etdirir.

Cənab Prezident, biz bu gün təsisat inkişafı səviyyəsinə yüksəlmiş əməkdaşlığın, faktiki olaraq, çərçivəsini Sizinlə birgə yaratdıq.

Siz ötən il imzalanmış Strateji Tərəfdaşlıq haqqında Bəyannaməni qeyd etdiniz. Həqiqətən biz münasibətləri mümkün qədər ən yüksək səviyyəyə qaldırdıq. Bu gün görüşlər və müzakirələr zamanı, eləcə də tarixi yerləri ziyarət edərkən biz nailiyyətləri bir daha gördük. Çox böyük potensialın şahidi olduq. Əldə olunmuş bu cür əməkdaşlıq daha güclü körpüləri salmaq imkanını yaradacaq, nəinki ikitərəfli gündəlik əsasında işləmək və işi davam etdirmək, o cümlədən qonşular üçün imkanları yaradacaq. Aramızda çox dayanıqlı bağlantılar qurulacaq. Energetika infrastrukturu artıq bizi bir-birimizə bağlayır.

Biz tərəfdaşlığımızın müxtəlif sahələrində fəal çalışırıq və əminəm ki, rəsmi səfərim işbirliyimizə əlavə təkan verəcək. Biz Slovakiyada dostları, mehribanlığı, hörməti görürük və Sizin xalqınıza, hökumətinizə, Slovakiya dövlətinə eyni hisslər bəsləyirik. Mən, cənab Prezident, tərəfdaşlığımıza verdiyiniz bütün töhfələrinizə görə təşəkkürümü bildirmək istəyirəm. Mən Sizi Prezident kimi rəsmi səfərə dəvət etmək istərdim. Siz həm Baş nazir, həm Parlament spikeri kimi bizə səfər etmisiniz, lakin Prezidentin rəsmi səfərinin, əlbəttə ki, xüsusi statusu var. Ümid edirəm, Sizi gələn il Azərbaycanda görəcəyəm.

Mən, həmçinin Qarabağın yenidən qurulmasına verdiyiniz dəstəyə görə Sizə və Slovakiyadakı dostlarımıza minnətdaram. Hazırda tikilən "Ağıllı kənd" Slovakiyanın azad olunmuş ərazilərdə əldə etdiyi uğurun rəmzinə çevriləcək. 851 ev və 10 yaşayış binasından, eləcə də məktəb, uşaq bağçası və tibbi mərkəzdən ibarət kənd nailiyyətlərinizin və əbədi dostluğumuzun təzahürü olacaq. İşğaldan azad edilmiş ərazilərin bərpası bu gün Azərbaycanın bir nömrəli hədəfidir. Slovakiya nəinki bu işlərdə, o cümlədən minalardan təmizləmədə bizə yardım edir.

Slovakiyadan aldığımız xüsusi avadanlıq insan həyatını xilas etməyə, sağlamlığı qorumağa imkan yaradır. Əfsuslar ki, 2020-ci ildə İkinci Qarabağ müharibəsi bitdikdən sonra 400-dən artıq insan minalara görə öz həyatını itirib, yaxud ciddi yaralanıb. Sizdən aldığımız avadanlıq həqiqətən insan həyatını qoruyur.

Qonaqpərvərliyinizə görə bir daha minnətdaram.

---

## Azərbaycan Prezidentinin Slovakiya Milli Şurası sədri ilə görüşləri







**Dekabrın 9-da Bratislavada Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Slovakiya Respublikasının Milli Şurasının sədri Rixard Raşi ilə təkbətək və geniş tərkibdə görüşləri olub. Slovakiya Milli Şurasının sədri dövlətimizin başçısını qarşıladı.**

Azərbaycan Prezidenti xatirə kitabını imzaladı.

Əvvəlcə Prezident İlham Əliyevin Slovakiya Respublikasının Milli Şurasının sədri Rixard Raşi ilə təkbətək görüşü oldu.

Sonra nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə görüş oldu.

Slovakiya Milli Şurasının sədri dövlətimizin başçısını Azərbaycan ilə Ermənistan arasında sülh gündəliyinin irəli aparılması və tarixi normallaşdırma sənədi ilə əlaqədar təbrik etdi.

İki ölkənin parlamentləri arasında mövcud əlaqələrdən məmnunluğunu bildirən Rixard Raşi Azərbaycana, Qarabağa səfərini xatırladı, işğaldan azad edilmiş Ağdamın Baş Qərvənd kəndinin yenidən qurulmasında Slovakiya şirkətlərinin iştirakını ölkələrimiz arasında dostluğun nümunəsi kimi qiymətləndirdi.

Dövlətimizin başçısı təbriklərə görə təşəkkürünü bildirdi.

Prezident İlham Əliyev Azərbaycanla Slovakiya arasında keçən il strateji tərəfdaşlıq sənədinin imzalandığını və əlaqələrimizin bu zəmində inkişafını vurğuladı.

Görüşdə Azərbaycanla Slovakiya arasında parlament diplomatiyasının əhəmiyyətinə toxunuldu, beynəlxalq parlamentlərarası təsisatlar çərçivəsində ölkələrimizin parlament təsisatları xətti ilə əməkdaşlıq məsələləri nəzərdən keçirildi.

Söhbət zamanı enerji, müdafiə sənayesi, humanitar, idman, birbaşa aviareyslər, turizm və digər sahələrdə əməkdaşlıq üçün böyük imkanların olduğu qeyd edildi.



## Azərbaycan Liderinin Slovakiyanın Baş naziri ilə görüşü





**Dekabrın 9-da Bratislavada Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Slovakiya Respublikasının Baş naziri Robert Fitso ilə təkbətək görüşü olub.**

Söhbət zamanı Azərbaycan-Slovakiya strateji tərəfdaşlıq əlaqələrinin inkişafından məmnunluq bildirildi. Ötən il Baş nazir Robert Fitsonun ölkəmizə, hazırda isə Azərbaycan Prezidentinin Slovakiyaya rəsmi səfərlərinin ikitərəfli münasibətlərimizin genişləndirilməsinə böyük töhfə verəcəyinə əminlik vurğulandı.

Siyasi əlaqələrimizin yüksək səviyyədə olduğu qeyd edilərək, digər istiqamətlər üzrə də əməkdaşlığın dərinləşdirilməsi üçün geniş imkanların mövcudluğu bildirildi.

Robert Fitso Azərbaycanla Ermənistan arasında sülh gündəliyinin irəli aparılması ilə bağlı əldə edilmiş nailiyyətlər münasibətilə Prezident İlham Əliyevə təbriklərini çatdırdı.

Təbriklərə görə minnətdarlığını bildirən dövlətimizin başçısı regional sülhün təmin olunması istiqamətində Azərbaycanın bundan sonra da səylərini davam etdirəcəyini vurğuladı.

Görüşdə işğaldan azad edilmiş torpaqlarımızda Slovakiya şirkətinin layihələrdə iştirakı məmnunluqla qeyd olundu, ölkələrimizin arasında əməkdaşlığın inkişaf perspektivləri ətrafında fikir mübadiləsi aparıldı.

*AZƏRTAC*

# Prezident İlham Əliyevin Slovakiyaya rəsmi səfəri başa çatıb



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Slovakiya Respublikasına rəsmi səfəri dekabrın 9-da başa çatıb.**

Bratislava şəhərinin Milan Ştefanik adına Beynəlxalq Aeroportunda Prezident İlham Əliyevin şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Dövlətimizin başçısını Slovakiya Respublikası Prezidenti Aparatının rəhbəri Peter Vodraşka və digər rəsmi şəxslər yola saldılar.

# Azərbaycan XİN-in Aİ–Ermənistan Strateji Gündəliyinə kəskin etirazı

**2025-ci il dekabrın 2-də Avropa İttifaqı və Ermənistan arasında Brüsseldə keçirilən Tərəfdaşlıq Şurasının VI iclasının nəticəsində imzalanmış "Avropa İttifaqı-Ermənistan Tərəfdaşlığı üçün Strateji Gündəlik" adlı sənəddə postmünaqişə dövründə reallıqları təhrif edən və bütövlükdə Azərbaycanla Ermənistan arasında sülh gündəliyinə zidd olan bir sıra məsələlərin prioritetləşdirilməsi ciddi narahatlıq doğurur. Bu fikirlər Azərbaycan XİN-in həmin sənədə dair şərhində yer alıb.**




Azərbaycan XİN-in şərhində, həmçinin bildirilib: "Növbəti 7 il müddətində Aİ ilə Ermənistan arasında strateji prioritetləri müəyyənləşdirən bu ikitərəfli sənəddə Azərbaycanı hədəf alan məsələlərə yer ayrılması qəbuledilməzdir və bu, eyni zamanda, Azərbaycan-Avropa İttifaqı münasibətlərinin perspektivlərinə mənfi təsir edir.

Sənədin giriş hissəsində və bir sıra digər bölmələrində Azərbaycan tərəfindən təqdim edilmiş reinteqrasiya planından imtina etdikdən sonra ölkəmizdən könüllü şəkildə Ermənistana miqrasiya etmiş erməni sakinlərə istinadən "Azərbaycanın hərbi əməliyyatlarından sonra köçkün düşmüş Qarabağ erməniləri" ifadəsinin işlədilməsi və bu məsələnin Aİ və Ermənistan arasında tərəfdaşlıq prioriteti kimi müəyyən edilməsi, eləcə də bu kateqoriya insanların "qaçqın" statusunda qeyd edilməsi Azərbaycana qarşı qərəzin açıq-aydın nümunəsidir. Həmçinin sənədin regionda normallaşma proseslərinə Aİ-nin mümkün töhfələri bölməsində Beynəlxalq Ədalət Məhkəməsinin bütün müvafiq qərarlarının tam, dərhal və effektiv həyata keçirilməsinin dəstəklənməsi, birmənalı olaraq, Ermənistan tərəfindən Azərbaycana qarşı irəli sürülmüş məlum iddiaları nəzərdə tutur.

Azərbaycanla Ermənistana birbaşa aid olan və sırf ikitərəfli xarakter daşıyan bir məsələnin üçüncü tərəflə gündəmə gətirilməsi tamamilə məntiqsiz olmaqla yanaşı, belə bir yanaşma Azərbaycanın da Ermənistan əleyhinə öz legitim məhkəmə iddialarının mövcudluğunu nəzərə almır.

Azərbaycan, ABŞ və Ermənistan liderlərinin iştirakı ilə Vaşinqtonda paraflanmış sülh sazişində bu iddiaların aradan qaldırılmasına dair müddəa nəzərə alındıqda, Aİ-Ermənistan sənədində həmin məsələyə toxunulması sülh prosesi ilə birbaşa ziddiyyət təşkil edir və Ermənistan tərəfinin bəyan etdiyi niyyətlə bağlı ciddi suallar yaradır.

İnsanlıq əleyhinə cinayətlər və hərbi cinayətlərdə ittiham olunan və məhkum edilmiş erməniəsilli şəxslərin "əsir" statusunda qeyd edilməsi və onların azadlığa buraxılmasının ayrıca prioritet kimi müəyyən edilməsi reallıqların ciddi şəkildə təhrif edilməsidir və qəbuledilməzdir.

Aİ-Ermənistan sənədində Ermənistanın regional konsensusdan məhrum olan "sülh kəsişməsi" təşəbbüsünü dəstəkləyən çoxsaylı müddəaların əks olunmasına baxmayaraq, 8 avqust Vaşinqton sammiti zamanı normallaşma prosesi çərçivəsində əldə edilmiş və mühüm əhəmiyyət kəsb edən "Beynəlxalq Sülh və Rifah naminə Tramp Marşrutu" (TRIPP) layihəsinə bir dəfə belə istinad edilməməsi ciddi narahatlıq doğurur. Bu hal Ermənistanın Vaşinqtonda Baş nazirləri tərəfindən imzalanmış TRIPP sazişi çərçivəsində öhdəlikləri icra etmək niyyətinin ciddiliyi və Aİ-nin bu layihəyə bəyan etdiyi dəstəyi barədə suallar yaradır.

Azərbaycanla Ermənistan arasında paraflanmış saziş layihəsinin 7-ci maddəsində tərəflərin qarşılıqlı sərhəddə hər hansı üçüncü tərəfin qüvvələrini yerləşdirməməklə bağlı öhdəlik nəzərə alındıqda, Azərbaycana qarşı təbliğat vasitəsi kimi istifadə olunan Aİ-nin Ermənistandakı Müşahidə Missiyasının (EUMA) fəaliyyətinə xitam vermək əvəzinə, EUMA-nın mövcudluğunun qorunmasının və missiyanın tam operativliyinin təmin olunmasının prioritetləşdirilməsi digər narahatlıq mənbəyidir.

Prioritetlər sırasında qeyd edilənlərlə yanaşı, hərbi və müdafiə məsələlərinin vurğulanması Ermənistanın hərbiləşməsinə xidmət edir.

Yuxarıda qeyd olunan məsələlər avqustun 8-dən etibarən postmünaqişə dövründə əldə edilmiş müsbət irəliləyişlər fonunda keçmiş münaqişənin elementlərini yenidən gündəmə gətirir və Ermənistanın niyyətləri barədə ciddi şübhələr yaradır. Ermənistan və Aİ-nin mövcud reallıqları əks etdirməyən bu zərərli müddəaların aradan qaldırılması istiqamətində konkret addımlar atacağını gözləyirik. Öz növbəmizdə vəziyyəti diqqətlə izləməyə davam edəcək və zəruri nəticələr çıxaracağıq".

***XQ***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 379** **8 dekabr 2025-ci il, Bakı şəhəri**

**"Əcnəbilər və vətəndaşlığı olmayan şəxslər tərəfindən Azərbaycan Respublikasının ərazisində alınmış istehsal, yaxud kommersiya məqsədləri üçün nəzərdə tutulmayan mallara görə ödənilmiş əlavə dəyər vergisinin qaytarılması üçün elektron qaimə-fakturanın Vahid Forması"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 7 iyul tarixli 242 nömrəli Qərarında dəyişiklik edilməsi barədə**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2024-cü il 16 dekabr tarixli 98-VIIQD nömrəli Qanununun icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

"Əcnəbilər və vətəndaşlığı olmayan şəxslər tərəfindən Azərbaycan Respublikasının ərazisində alınmış istehsal, yaxud kommersiya məqsədləri üçün nəzərdə tutulmayan mallara görə ödənilmiş əlavə dəyər vergisinin qaytarılması üçün elektron qaimə-fakturanın Vahid Forması"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 7 iyul tarixli 242 nömrəli Qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, № 7, maddə 972 (Cild I) aşağıdakı dəyişikliklər edilsin:

**1.** Adına və 1-ci hissəyə "mallara" sözündən sonra ", habelə tibb müəssisələri və özəl tibbi praktika ilə məşğul olan fiziki şəxslər tərəfindən əcnəbilər və vətəndaşlığı olmayan şəxslərə göstərilən tibbi xidmətlərə" sözləri əlavə edilsin.

**2.** Həmin Qərarla təsdiq edilmiş 1 nömrəli əlavə yeni redaksiyada verilsin *(əlavə olunur)*.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

***Qeyd: Qərarlara edilmiş əlavələrin tam mətni ilə www.nk.gov.az və www.xalqqazeti.az saytlarında tanış ola bilərsiniz.***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 375** **4 dekabr 2025-ci il, Bakı şəhəri**

**Azərbaycan Respublikası Nazirlər Kabinetinin "Bioloji fəallığa malik qida əlavələrinin ekspertizadan keçirilməsi Qaydası"nın təsdiq edilməsi haqqında" 2018-ci il 10 iyul tarixli 287 nömrəli və "Qida təhlükəsizliyi haqqında" Azərbaycan Respublikası Qanununun 25.1.1–25.1.6-cı maddələrində nəzərdə tutulmuş məhsulların qeydiyyatının aparılması, qeydiyyatının dayandırılması, bərpa edilməsi, ləğvi və yenidən rəsmiləşdirilməsi Qaydalarının və qeydiyyatın qüvvədəolma müddəti"nin və "Azərbaycan Respublikasının ərazisində yem üçün istifadəsi nəzərdə tutulan genetik modifikasiya olunmuş orqanizmlərin, habelə yalnız genetik modifikasiya olunmuş orqanizmlərdən ibarət olan və ya tərkibində genetik modifikasiya olunmuş orqanizmlər olan və ya tərkibində genetik modifikasiya olunmuş orqanizmlərdən əldə edilmiş məhsul olan yem məhsullarının siyahısı"nın təsdiq edilməsi barədə" 2024-cü il 13 mart tarixli 155 nömrəli qərarlarında dəyişiklik edilməsi haqqında**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Dərman vasitələri haqqında" və "Reklam haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2024-cü il 31 may tarixli 1169-VIQD nömrəli Qanununun tətbiqi və "Dərman vasitələri haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 6 fevral tarixli 528 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 27 iyun tarixli 114 nömrəli Fərmanının 1.1-ci bəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** "Bioloji fəallığa malik qida əlavələrinin ekspertizadan keçirilməsi Qaydası"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 10 iyul tarixli 287 nömrəli Qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 7 (II kitab), maddə 1623 (Cild I); 2024, № 3, maddə 331, № 9, maddə 1106) aşağıdakı dəyişikliklər edilsin:

1.1. adında və birinci hissədə "fəallığa malik qida əlavələrinin" sözləri "aktiv qida məhsullarının" sözləri ilə əvəz edilsin;

1.2. həmin Qərarla təsdiq edilmiş "Bioloji fəallığa malik qida əlavələrinin ekspertizadan keçirilməsi Qaydası" yeni redaksiyada verilsin *(əlavə olunur)*.

**2.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2024-cü il 13 mart tarixli 155 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2024, № 3, maddə 332) ilə təsdiq edilmiş 1 nömrəli əlavə - "Qida təhlükəsizliyi haqqında" Azərbaycan Respublikası Qanununun 25.1.1–25.1.6-cı maddələrində nəzərdə tutulmuş məhsulların qeydiyyatının aparılması, qeydiyyatının dayandırılması, bərpa edilməsi, ləğvi və yenidən rəsmiləşdirilməsi Qaydaları və qeydiyyatın qüvvədəolma müddəti"ndə aşağıdakı dəyişikliklər edilsin:

2.1. 3-cü hissə üzrə:

2.1.1. aşağıdakı məzmunda 3.2-1-ci və 3.2-2-ci bəndlər əlavə edilsin:

"3.2-1. Ərizədə və ona əlavə edilmiş sənədlərdə aradan qaldırılması mümkün olan və qeydiyyatın aparılmasından imtinaya səbəb olmayan çatışmazlıqlar aşkar edildikdə, ərizənin qeydiyyata alındığı tarixdən 3 (üç) iş günündən gec olmayaraq Agentlik onların aradan qaldırılması barədə məlumatı ərizəçiyə təqdim edir və ya sifarişli poçt göndərişi vasitəsilə göndərir. Ərizəçi həmin çatışmazlıqları məlumatı aldığı vaxtdan ən geci 10 (on) iş günü müddətində aradan qaldırmalıdır. Bu zaman qeydiyyatın müddət axımı dayandırılır və dayandırılmış müddət bu müddətə daxil edilmir. Çatışmazlıqların aradan qaldırılması barədə ərizəçinin müraciətindən sonra müddətin axımı bərpa olunur. Ərizəçi ərizədə və ona əlavə edilmiş sənədlərdə aşkar olunmuş çatışmazlıqları 10 (on) iş günü müddətində aradan qaldırmadıqda Agentlik ərizənin baxılmamış saxlanılması haqqında qərar qəbul edir və bu barədə məlumatı 2 (iki) iş günü müddətində ərizəçiyə təqdim edir.

3.2-2. Ərizəçi aşkar olunmuş çatışmazlıqları aradan qaldırdıqdan sonra məhsulun qeydiyyata alınması üçün təkrar Agentliyə müraciət edə bilər.";

2.1.2. 3.5-ci bəndə "imtina" sözündən sonra "bu Qaydaların 8.1-1-ci bəndi nəzərə alınmaqla" sözləri əlavə edilsin;

2.1.3. 3.14.4-cü yarımbəndin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda 3.14.5-ci yarımbənd əlavə edilsin:

"3.14.5. bioloji aktiv qida məhsullarına münasibətdə, həmçinin bu Qaydaların 8.1-1-ci bəndinə uyğun olaraq məhsula dair ekspertiza xidmətlərinin göstərilməsi barədə müqavilə bağlanmadıqda və ya məhsul alınmış ekspertiza rəyinin nəticəsinə əsasən dərman vasitələri ilə eyni tərkibli və eyni dozalı olduqda.";

2.2. 8-ci hissə üzrə:

2.2.1. 8.1-ci bənddə "olmaması barədə son 1 (bir) il ərzində verilən ekspertiza rəyi ilə təmin edilməlidir" sözləri "olub-olmaması barədə ekspertiza rəyinin alınması üçün Agentlik tərəfindən bu Qaydaların 8.6-cı bəndində nəzərdə tutulan sənədlər və məlumatlar Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə real vaxt rejimində Azərbaycan Respublikasının Səhiyyə Nazirliyinə (bundan sonra – Nazirlik) ötürülür" sözləri ilə əvəz edilsin;

2.2.2. aşağıdakı məzmunda 8.1-1-ci bənd əlavə edilsin:

"8.1-1. Nazirliyin tabeliyində olan "Analitik Ekspertiza Mərkəzi" (bundan sonra – Qurum) ilə istehsalçı və ya onun müvəkkil etdiyi şəxs arasında ekspertiza xidmətlərinin göstərilməsi barədə müqavilə bağlanılması, müvafiq ödənişin həyata keçirilməsi (bu barədə qəbz təqdim edilməklə), habelə nümunələrin təqdim edilməsi barədə Agentliyə məlumat verildikdən sonra məhsulun dərman vasitələri ilə eyni tərkibli və eyni dozalı olub-olmamasına dair ekspertiza 15 (on beş) iş günü müddətində həyata keçirilir və ekspertiza rəyi Nazirlik tərəfindən Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə Agentliyə ötürülür. Ekspertiza rəyinin verilməsi üçün nəzərdə tutulan müddət qeydiyyatın aparılması ilə bağlı müddətə daxil edilmir.";

2.2.3. 8.2-ci bənddə "Bioloji" sözü "Bu Qaydaların 8.1-1-ci bəndinə uyğun olaraq Qurumdan alınmış ekspertiza rəyinə əsasən məhsul dərman vasitələri ilə eyni tərkibli və eyni dozalı olmadıqda bioloji" sözləri ilə əvəz edilsin;

2.2.4. 8.4.3-cü yarımbənd aşağıdakı redaksiyada verilsin:

"8.4.3. məhsulun qablaşdırılmasının üzərində və onların istifadə təlimatlarında (içlik vərəqlərində) əmtəə nişanı adının yazıldığı hər yerdə əmtəə nişanı adının altında onunla eyni ölçüdə və şriftdə olan ağ fonda qara rəngli aydın, seçilən, qalın və böyük hərflərlə, silinməsi mümkün olmayan tərzdə çap olunmuş "DƏRMAN VASİTƏSİ DEYİLDİR!" sözləri yazılmalı, həmçinin "Uşaqların əli çatmayan yerdə saxlayın" məlumatı əks etdirilməli və onların bioloji aktiv qida məhsullarına aid olması göstərilməlidir;";

2.2.5. 8.5-ci bənd aşağıdakı redaksiyada verilsin:

"8.5. Qeydiyyatla bağlı təqdim edilən ərizədə aşağıdakı məlumatlar qeyd olunmalıdır:

8.5.1. "İnzibati icraat haqqında" Azərbaycan Respublikası Qanununun 30.2-ci maddəsi ilə müəyyən edilmiş məlumatlar;

8.5.2. məhsulun adı, əmtəə nişanı və partiya nömrəsi;

8.5.3. məhsulun istehsalçısının adı və istehsal edildiyi obyektin ünvanı;

8.5.4. məhsulun buraxılış, qablaşdırılma forması və sayı;

8.5.5. məhsulun qablaşdırmada olan dozası;

8.5.6. məhsulun saxlanma şəraiti və yararlılıq müddəti;

8.5.7. məhsulun mənşə ölkəsi;

8.5.8. ərizəçinin bank rekvizitləri.";

2.2.6. 8.6.1-ci, 8.6.2-ci, 8.6.5-ci və 8.6.6-cı yarımbəndlər ləğv edilsin;

2.2.7. 8.6.3-cü yarımbənddən "mənşə və uyğunluq sertifikatları, həmçinin" və ", səlahiyyətli dövlət qurumu tərəfindən verilmiş təhlükəsizliyini təsdiq edən sənəd" sözləri çıxarılsın;

2.2.8. 8.6.7-ci yarımbənd aşağıdakı redaksiyada verilsin:

"8.6.7. 2-14 yaşında uşaq, hamilə və ya laktasiya dövründəki qadınların istifadəsi üçün tövsiyə edildikdə, məhsula dair müvafiq tədqiqatların protokolları;";

2.2.9. 8.6.7-ci yarımbəndin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda 8.6.8–8.6.13-cü yarımbəndlər əlavə edilsin:

"8.6.8. təqdim edilmiş məhsulun istehsalı barədə müvafiq sənədlərin (keyfiyyət parametrləri spesifikasiya sənədində olan parametrlərlə eynilik təşkil edən məhsul seriyasına dair analiz sertifikatı, məhsulun tərkibi üzrə tədqiqat (sınaq) protokolu, tədqiqatın (sınağın) aparılması üçün validasiya edilmiş analiz üsulları, məhsulun keyfiyyətinə dair fiziki-kimyəvi və mikrobioloji keyfiyyət parametrlərinin əks olunduğu spesifikasiya sənədi, məhsulun yararlılıq müddətini təsdiq edən sınaqlara dair məlumat, resepturalar, istehsalçı tərəfindən təqdim edilmiş məhsulun istehsal prosesinin ardıcıllığını əks etdirən sənədlər (texnoloji proses), eləcə də istehsalçının bioloji aktiv qida məhsullarının istehsalına icazəsi barədə sənədlərin surətləri və məhsulun tərkibindəki təsiredici maddələrə dair müqayisə standartları;

8.6.9. istehsalçının məhsulun tərkibində genetik modifikasiya olunmuş məhsulların və nanomaterialların, hormonların, pestisidlərin, həmçinin narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının, güclü təsir edən və zəhərli maddələrin və Beynəlxalq Anti-Dopinq Agentliyinin qüvvədə olan siyahısı ilə müəyyən edilmiş dopinq maddələrinin olmaması haqqında təsdiqedici sənədi;

8.6.10. məhsulun istehlakçı üçün nəzərdə tutulmuş istifadə təlimatı və onun Azərbaycan dilinə tərcüməsi;

8.6.11. ekspertizaya təqdim olunmuş məhsulların etiketinin və qablaşdırılmasının ərizəçi və ya istehsalçı tərəfindən təsdiq edilmiş maketləri, həmin maketlər xarici dildə olduqda Qanunun 17.4-cü maddəsinin tələblərinə əsasən onların Azərbaycan dilində tərcüməsi;

8.6.12. məhsulun tərkibindəki təsiredici maddələrin beynəlxalq adı və kəmiyyət tərkibi, köməkçi maddələrin və digər inqrediyentlərin isə beynəlxalq adı göstərilməklə siyahısı, həmçinin kapsul və tablet örtüklərinin hazırlanmasında istifadə olunan maddələrin siyahısı;

8.6.13. istehsalçı tərəfindən məhsulun hazırlanmasında istifadə olunan bitkilərin binar nomenklaturaya əsasən elmi adları, onlardan alınan xammallar (istifadə olunan bitki hissələri), həmçinin məhsula daxil olma formalarının (toz, qatı, quru və maye ekstratları, dəmləmə, bişirmə, tinktura və s.) barədə məlumatlar.";

2.3. 10.7.7-ci yarımbəndə "tərkibi" sözündən sonra "köməkçi maddələrin və digər inqrediyentlərin isə beynəlxalq adı" sözləri əlavə edilsin;

2.4. aşağıdakı məzmunda 11-ci hissə əlavə edilsin:

**"11. Keçid müddəa**

Nazirliklə Agentliyin informasiya ehtiyatları və sistemləri arasında məlumat mübadiləsi real vaxt rejimində həyata keçirilənədək, sənədlər (məlumatlar) həmin informasiya ehtiyatlarına və sistemlərinə aidiyyəti qurumlar tərəfindən təkmil sertifikatlı gücləndirilmiş elektron imza ilə təsdiq edilməklə onların elektron kabinetləri vasitəsilə daxil edilir.".

**3.** Bu Qərar 2026-cı il iyunun 1-dən qüvvəyə minir.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Yaradıcı Sənayelər üzrə Bakı Kommünikesi



**"İƏT Mədəniyyət Festivalı – Bakı Yaradıcı Həftə 2025" çərçivəsində Yaradıcı Sənayelər üzrə Bakı Kommünikesi qəbul olunub.**



İslam Əməkdaşlıq Təşkilatının Baş katibinin müavini, səfir Tariq Ali Baxit tərəfindən səsləndirilən sənəddə Bakıda keçirilən və dekabrın 11-dək davam edəcək festivalın mədəniyyətlərarası dialoqun, tolerantlığın, sülhün və mədəni müxtəlifliyə hörmətin təşviqinə mühüm töhfə verdiyi qeyd edilib. Kommünike sənədi, həmçinin, Azərbaycanın yaradıcı sənayelərin inkişafında və mədəni əməkdaşlığın gücləndirilməsində artan rolunu qeyd edir.

Kommünike sənədində bildirilir ki, festivalda 40-dan çox ölkədən 300-dən artıq xarici qonaq iştirak edib. Dövlət qurumlarının, beynəlxalq təşkilatların, elmi və mədəni institutların nümayəndələrinin qatıldığı tədbirlərdə ümumilikdə 5 mindən çox iştirakçı yer alıb.

Sənəddə festivalın əsas tədbirləri kimi "MYFORUM" Mədəni və Yaradıcı Sənayelər Forumu, "MYEXPO – Creative Village" sərgisi, "Baku Cinema Breeze 2025" beynəlxalq kino proqramı, "Eastern Fashion Show" və "G HUB" Beynəlxalq Oyun Texnologiyaları Sammiti qeyd edilir.

Kommünike sənədi iştirakçılar tərəfindən yaradıcı sənayelərin iqtisadi şaxələndirmə dayanıqlı inkişaf üçün əhəmiyyətli vasitə kimi dəyərləndirildiyini bildirir. Həmin çərçivədə rəqəmsal innovasiya, sahibkarlıq, mədəni irsin qorunması və yeni texnologiyalardan məsuliyyətli istifadə istiqamətlərində İƏT-ə üzv ölkələr arasında əməkdaşlığın gücləndirilməsi çağırışı səsləndirilir.

Sənəddə festivalın təşkilinə görə Azərbaycan Hökumətinə dərin minnətdarlıq ifadə olunur. Kommünike sənədi Prezident İlham Əliyevin İƏT ilə əməkdaşlığın inkişafı, İslam həmrəyliyinin möhkəmləndirilməsi və mədəniyyətlərarası dialoqun təşviqindəki liderliyinə xüsusi diqqət yetirir.

Sənəddə "İƏT Mədəniyyət Festivalı – Bakı Yaradıcı Həftə 2025"in İƏT-ə üzv ölkələr arasında yaradıcı sənayelər üzrə əməkdaşlığın yeni səhifəsini açdığına inam ifadə olunur.

***XQ***

# Sülh missiyasının ilk görüntüləri

(əvvəli 1-ci səhifədə)

Ağ Evin ədaləti bərpa etmək qətiyyəti universal bir niyyət kimi səslənir. Lakin siyasətdə belə ümumi bəyanatlar konkret məzmun tələb edir. Trampın məktubundakı vurğu onu göstərir ki, Vaşinqton bu dəfə regional reallıqları daha praktik və nəticəyönlü kontekstdə görməyə çalışır. Axı "ədaləti bərpa etmək" ritorikası konkret prinsip və addımlara çevrilməlidir. Buna görə də təbii sual ortaya çıxır: Vaşinqtonun "ədaləti bərpa etmək" formulu Cənubi Qafqaz üçün nə deməkdir? Cavab odur ki, bu formul uzun müddətdir regionda bəslənən qeyri-real gözləntilərin, manipulyasiya olunmuş status-kvonun və tərəflər arasında tarazsız müdaxilələrin tədricən uzaqlaşdırılmasıdır. Daha sadə desək, ABŞ indi siyasi həllin əsasını BMT tərəfindən tanınmış ərazi bütövlüyü və beynəlxalq hüquq prinsipləri üzərinə qoymağa çalışır; bütün bu amillər, həmçinin, münaqişənin səbəblərini tarixi mifləşdirmədən və xarici güc intervensiyalarından ayırıb praktiki razılaşmalar üzərində işləməyi nəzərdə tutur.

Hazırkı vəziyyət Vaşinqtonun rolunda bir dönüş deməkdir. Yəni Ağ Ev vasitəçilikdən daha çox, reallığı formal olaraq qəbul edib prosesləri koordinasiya edən tərəf kimi çıxış etməyə üstünlük verir. Belə dəyişim trayektoriyası, ilk növbədə, regiondakı aktorların davranış modellərinə təsirini göstərir. Bakı üçün hazırkı vəziyyət öz mövqeyini beynəlxalq hüquq çərçivəsində möhkəmləndirmək və tələblərini legitimləşdirmək imkanını genişləndirir. İrəvan üçün isə əvvəlki populyar və emosional ritorikadan strateji və gerçəkçi siyasətə keçid tələb edir. Eyni zamanda, xarici güclərin – xüsusən Rusiya və İranın – yeni yanaşmaya reaksiyası da vacibdir: əgər ABŞ regiondakı diplomatik fəallığını artırırsa, Rusiya üçün həm meydan oxuma, həm də əməkdaşlıq variantları yaranır. Vaşinqton isə balanslaşdırılmış münasibət nümayiş etdirərək, böyük güclərin maraqlarını nəzərə almağa məcburdur. Praktiki nəticələrə gəldikdə, "ədaləti bərpa etmək" formulu sərhədlərin, mülkiyyət hüquqlarının və azad hərəkət səylərinin hüquqi qaydaya salınmasını, məcburi köçkünlərin və zərərçəkmişlərin hüquqlarının bərpasını və kommunikasiyaların açılmasını ehtiva edir. ABŞ-ın bu çərçivəni dəstəkləməsi Vaşinqtonun daha



geniş regional sabitlik və iqtisadi fayda maraqlarını nəzərə aldığını göstərir.

***

8 avqust Zəfəri Bakının beynəlxalq hüquqa əsaslanan siyasət yürütmək əzmini təsdiqlədi. 44 günlük müharibədən sonra regiondakı tarixi düsturlar dəyişdi: Bakı artıq reallıqları diktə edən, prosesləri aparan və gündəmi müəyyənləşdirən tərəfdir. Mövcud kontekstdə analitik sual öz-özünə yaranır: ABŞ Bakı ilə hansı "qeyri-mümkün" hədəflərin reallaşdırılmasını nəzərdə tutur?

Sualın cavabını məhz 8 avqustdan sonrakı geosiyasi düzəndə axtarmaq lazımdır. Uzun illər beynəlxalq vasitəçilərin "çətin", "mürəkkəb", "zaman tələb edən" adlandırdığı bir model – yəni regionda tam suverenliyin bərpası və dayanıqlı sülh formatının qurulması – artıq praktik həqiqətə çevrilib. "Qeyri-mümkün" hesab edilən məhz bu idi: Ermənistanın danışıqlardan yayınmaq imkanlarının məhdudlaşdırılması, separatizmin legitim platformalardan tam çıxarılması və Bakının sülh prosesinin əsas memarı statusunun beynəlxalq səviyyədə tanınması. Bütün bunlar 8 avqust Zəfərindən sonra mümkün oldu. Həmçinin Azərbaycan Zəfərdən 3 il sonra öz suverenliyini tam bərpa etməklə, regionun siyasi koordinatlarını dəyişdi. Ermənistan ilk dəfə olaraq danışıqlara ideoloji şərtlərlə yox, real vəziyyətin diktəsi ilə getməyə məcbur qaldı.

ABŞ administrasiyası üçün bu yeni reallıq mühümdür. Çünki bu administrasiya uzunmüddətli sülhün yalnız Bakının liderliyi ilə mümkünlüyünü anlayır. Burada diqqətçəkən digər məqam ondan ibarətdir ki, Vaşinqton indiyədək nadir hallarda bir regional gücün mövqeyini bu qədər açıq şəkildə qəbul edib. Bəli, Tramp administrasiyası qəbul edir ki, "qeyri-mümkün" görünən sülh modeli yalnız Azərbaycanın siyasi iradəsi, çevik diplomatiyası və təhlükəsizlik arxitekturasını öz gücü ilə yaratması sayəsində mümkünə çevrilib.

***

Cənubi Qafqaz ABŞ siyasətində uzun illər boyunca yanlış oxunan region olub. Müxtəlif administrasiyalar problemə həmişə ya sentimental yanaşıb, ya da regionun real güc balansını nəzərə almayan, daha çox daxili siyasi lobbilərin təsiri altında formalaşan strategiyalar tətbiq edib. Trampın məktubu isə göstərir ki, Ağ Ev bu dəfə illərin ardıcıl səhvlərini kənara qoymaq və regiona daha rasional, faktlara əsaslanan baxış gətirmək əzmindədir. Tramp konkret nələri dəyişdi? Onun dəyişdirdiyi məqamlar bir neçə bənddən ibarət olsa da, hər biri regionda illərlə davam edən və haqqında söz açdığımız yanlış oxumaların sonunu gətirir.

İlk növbədə, əvvəlki administrasiyalar Ermənistanı regionun "kiçik, zəif və müdafiəyə ehtiyacı olan aktoru" kimi təqdim edib, birtərəfli qaydada ölkənin lehinə olan siyasi yanaşmalara üstünlük veriblər. Tramp bu xətti dəyişdirdi və Vaşinqtonun Ermənistana münasibətində "tarazlı obyektivlik" prinsipini ön plana çəkdi.

İkinci dəyişiklik Bakı ilə birbaşa strateji təmas xəttinin genişləndirilməsidir. Əvvəllər ABŞ-ın region siyasəti dolayı kanallar üzərindən qurulurdu – daha çox Brüssel formatı, ATƏT mexanizmləri və ya qlobal müttəfiqlər vasitəsilə. Tramp isə prosesə şəxsən daxil olmaqla, ABŞ–Azərbaycan əlaqələrini strateji səviyyəyə qaldırdı.

Üçüncü mühüm dəyişiklik ABŞ-ın sülh danışıqlarında neytral vasitəçi formatına qayıtmasıdır. Əvvəlki administrasiyalar bəzən neytrallığı qoruyurmuş kimi görünür, əslində isə balansı pozan yanaşmalar sərgiləyirdilər. Tramp isə proseslərin legitim şəkildə aparılması üçün neytral platformanın vacibliyini anlayır və hər iki ölkəyə simmetrik məsafə saxladığını göstərir.

Nəhayət, dördüncü dəyişiklik regionu Rusiya–İran–Qərb qarşıdurmasının tərkib hissəsi olmaqdan çıxarmaq cəhdidir. Cənubi Qafqazı qlobal güc aktorlarının oyun meydanı yox, əməkdaşlıq və inteqrasiya məkanı kimi görmək yalnız real siyasi tərəfdaşlarla mümkündür. Tramp belə bir formatı yalnız Bakı ilə koordinasiya nəticəsində effektiv hesab edir. Bütün bunların fonunda ABŞ siyasəti bəlkə də ilk dəfə olaraq Cənubi Qafqazda emosional, tarixi stereotiplərə əsaslanan yanaşmadan çıxıb rasional, nəticəyönlü bir xəttə keçir. Trampın dəyişdirdiyi məhz budur: siyasət real gücün, real hüququn və real tərəfdaşlığın üzərində qurulur.

***

Azərbaycanın təqdim etdiyi sülh paketi uzun illər davam edən manipulyativ diplomatiyanın, qeyri-real siyasi ritorikanın və beynəlxalq vasitəçilərin qeyri-obyektiv mövqelərinin yaratdığı "qeyri-müəyyənlik zonasını" tamamilə dağıtdı. ABŞ və Avropa artıq anlayır ki, regionda sülhün təminatı yalnız Bakıdan keçə bilər. Məhz bu səbəbdən Azərbaycan tərəfindən irəli sürülən paket "regionun gələcək nizamının təməl sənədi" kimi dəyərləndirilir.

Bəli, bu gün Cənubi Qafqazda sülh gündəminin əsas müəllifi məhz Bakıdır. Prezident İlham Əliyevin ardıcıl, məqsədyönlü və reallığa əsaslanan siyasəti regionda təhlükəsizliyin bərpasına, həmçinin böyük aktorlar üçün davamlı əməkdaşlıq formatının yaranmasına imkan verib. Azərbaycan yeni geosiyasi düzənin konturlarını müəyyən edən dövlət kimi çıxış edir. Burada əsas analitik sual meydana çıxır: Azərbaycanın sülh carçısı rolunun davamlı olması üçün nə lazımdır?

Azərbaycanın sülh carçısı rolunun uzunmüddətli və davamlı olması bir neçə əsas şərtin təminindən asılıdır. İlk növbədə, Ermənistan revanşist ritorikadan və köhnə siyasi davranış modelindən tam şəkildə uzaqlaşmalı, yeni regional nizamın tələblərinə uyğun konstruktiv mövqe nümayiş etdirməlidir. Paralel olaraq, həm Qərb, həm də regional güclər Bakının formalaşdırdığı reallıqları qəbul edib bu çərçivədə əməkdaşlığa əsaslanan siyasət yürütməlidirlər. Region daxilində kommunikasiya



xətlərinin açılması, iqtisadi inteqrasiyanın dərinləşməsi və qarşılıqlı ticarət axınlarının genişlənməsi isə tərəflər arasında dayanıqlı asılılıq yaradan mühüm mexanizmdir. Bütün bunlarla yanaşı, Azərbaycanın öz diplomatik fəaliyyətini ardıcıl, praqmatik və balanslı kurs üzərində davam etdirməsi sülh modelinin möhkəmlənməsini təmin edir. Bu amillər bir araya gəldikcə, Azərbaycan həm regionda, həm də beynəlxalq səviyyədə "sülh və sabitlik məkanı" kimi öz mövqeyini daha da gücləndirir və Cənubi Qafqazda yeni təhlükəsizlik arxitekturasının əsas dayağına çevrilir.

Son olaraq qeyd edək ki, sülhə aparan proses artıq geridönməz məntiqə əsaslanır: tərəflər arasında etimad mexanizmləri formalaşır, geosiyasi düzən yenilənir və beynəlxalq aktorların rolu daha dəqiq cızılır. Cənubi Qafqazın gələcəyi ilk dəfə olaraq konflikt deyil, sabitlik və qarşılıqlı fayda fəlsəfəsi üzərində qurulur.

*__Şəbnəm ZEYNALOVA,__*
*__XQ-nin siyasi analitiki, siyasi elmlər üzrə fəlsəfə doktoru__*

# Milli Məclisin plenar iclası

## *Dövlət büdcəsi zərfinə daxil olan qanun layihələri həyata vəsiqə aldı*

**Dekabrın 9-da Milli Məclisin payız sessiyasının növbəti plenar iclası spiker Sahibə Qafarovanın sədrliyi ilə baş tutdu. Gündəliyə daxil edilən 16 məsələ üzrə geniş müzakirələr aparıldı.**

İlk olaraq "Azərbaycan Respublikasının 2026-cı il dövlət büdcəsi haqqında" qanun layihəsi Milli Məclisdə üçüncü oxunuşda müzakirəyə çıxarıldı. İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Azər Əmiraslanov bildirdi ki, gələn ilin büdcə zərfində bir sıra dəyişikliklər təklif olunur. Müdafiə və milli təhlükəsizlik, məhkəmə hakimiyyəti və hüquq-mühafizə orqanlarının xərclərinin 47,8 milyon manat artırılması nəzərdə tutulur. Heyvanlar arasında yoluxucu xəstəliklərə qarşı epizootiya əleyhinə peyvəndləmə üçün əlavə 3 milyon manat ayrılması planlaşdırılır. Dövlət orqanlarının fəaliyyətinin və maddi-texniki təminatının yaxşılaşdırılması üçün isə 1,2 milyon manatlıq əlavə vəsaitə ehtiyac olduğu vurğulanıb. Ümumilikdə 52 milyon manatlıq bu artımlar dövlət büdcəsinin ehtiyatları hesabına qarşılanacaq.

Komitə sədri əlavə etdi ki, bir sıra təşkilatların müraciətləri əsasında xərclərin optimallaşdırılması məqsədilə iqtisadi təsnifat üzrə 13,2 milyon manatlıq maddələrarası yerdəyişmələrə ehtiyac yaranıb. Onun sözlərinə görə, deputatların qaldırdığı bəzi məsələlər prioritetlik prinsipinə uyğun şəkildə dövlət investisiya xərcləri hesabına həll ediləcək. Gələn il dövlət investisiya proqramına 2,7 milyard manat ayrılması planlaşdırılır. Təklif olunan bu dəyişikliklər yenilənmiş 2026-cı il dövlət büdcəsi layihəsinin birinci, yeddinci və doqquzuncu maddələrində öz əksini tapır.

Aparılan müzakirələrin yekununda Milli Məclis "Azərbaycan Respublikasının 2026-cı il dövlət büdcəsi haqqında" qanun layihəsini üçüncü oxunuşda qəbul etdi. Sənədə əsasən, gələn il dövlət büdcəsinin gəlirlərinin 38 milyard 609 milyon manat, xərclərinin isə 41 milyard 703,6 milyon manat olacağı proqnozlaşdırılır. Bu göstəricilərə görə, büdcə kəsirinin 3 milyard 94,6 milyon manat təşkil edəcəyi gözlənilir. Növbəti ildə icmal büdcənin gəlirlərinin 44 milyard 969,4 milyon manat, xərclərinin isə 48 milyard 839,3 milyon manat səviyyəsində olacağı nəzərdə tutulur ki, bu da 3 milyard 869,3 milyon manat həcmində kəsir formalaşdırır. Qeyd edilib ki, büdcə planlamasında neftin bir barelinin qiyməti 65 ABŞ dolları götürülüb.

Paralel olaraq, Milli Məclis "Dövlət Sosial Müdafiə Fondunun 2026-cı il büdcəsi haqqında" qanun layihəsini müzakirəyə çıxardı. Müzakirələrdən sonra sənəd səsverməyə çıxarılaraq üçüncü oxunuşda qəbul edildi. Qanun layihəsinə əsasən, 2026-cı ildə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Sosial Müdafiə Fondunun (DSMF) büdcə xərclərinin 8





milyard 483,1 milyon manat olacağı proqnozlaşdırılır. Sənədə görə, bu məbləğin 8 milyard 323,1 milyon manatı fondun gəlirləri, 160 milyon manatı isə ilin sonunda yaranacaq istifadə olunmamış vəsait qalığı hesabına maliyyələşdiriləcək.

Milli Məclis həmçinin 2026-cı ilin dövlət büdcəsi zərfinə daxil olan "İşsizlikdən sığorta fondunun 2026-cı il büdcəsi haqqında" qanun layihəsini üçüncü oxunuşda qəbul etdi. Qanun layihəsinə əsasən, gələn il Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında İşsizlikdən Sığorta Fondunun (İSF) büdcə xərclərinin 266,4 milyon manat olması proqnozlaşdırıldı. Sənədə görə, bu xərclərin 238,3 milyon manatı Fondun gəlirləri, 28,1 milyon manatı isə ilin sonunda yaranacaq istifadə olunmamış vəsait qalığı hesabına maliyyələşdiriləcək. Müzakirələrdən sonra layihə səsverməyə çıxarılaraq üçüncü oxunuşda qəbul olundu.

MM 2026-cı ilin dövlət büdcəsi zərfinə daxil olan "Azərbaycan Respublikasında 2026-cı il üçün yaşayış minimumu haqqında" və "Azərbaycan Respublikasında 2026-cı il üçün ehtiyac meyarının həddi haqqında" qanun layihələrini üçüncü oxunuşda qəbul etdi. Sənədlərə əsasən, növbəti il ölkədə yaşayış minimumu və ehtiyac meyarının 300 manat səviyyəsində müəyyən edilməsi nəzərdə tutulur. Yaşayış minimumu əmək qabiliyyətli əhali üçün 317 manat, pensiyaçılar üçün 245 manat, uşaqlar üçün isə 260 manat müəyyən edilib. Müzakirələrdən sonra hər iki qanun layihəsi səsverməyə çıxarılaraq üçüncü oxunuşda qəbul olundu.

Parlament vergi siyasəti, vergi inzibatçılığı və vergi dərəcələrinin müəyyən edilməsi ilə bağlı Vergi Məcəlləsinə və ümumilikdə 16 qanuna təklif olunan dəyişiklikləri üçüncü oxunuşda qəbul etdi.

Gündəliyə daxil edilmiş Milli Məclisin və onun aparatının, həmçinin Hesablama Palatasının 2026-cı il üçün xərclər smetası haqqında Azərbaycan Respublikası Milli Məclisinin qərarının layihələri də qəbul olundu. Belə ki, Milli Məclis və onun aparatının 2026-cı il üçün xərclər smetası 52 074 310 manat, Hesablama Palatasının 2026-cı il üçün xərclər smetası isə 11 455 897 manat məbləğində təsdiq edildi.

Plenar iclasda çıxış edən Baş nazir Əli Əsədov bildirib ki, 2026-cı ilin büdcəsində investisiyayönümlü dövlət proqramlarının maliyyələşdirilməsi üçün kifayət qədər vəsait ayrılıb. O qeyd edib ki, nəqliyyat-logistika infrastrukturu, bərpaolunan enerji və xarici sərmayə mexanizmləri gələn il də dövlət investisiya siyasətinin əsas istiqamətlərini müəyyənləşdirir. Baş nazir vurğulayıb ki, Azərbaycan artıq Avrasiyanın aparıcı nəqliyyat-logistika mərkəzlərindən birinə çevrilib və beynəlxalq dəhlizlərin genişləndirilməsi davam edir. Zəngəzur dəhlizinin (TRIPP) yaxın perspektivdə Orta Dəhliz və Şimal–Cənub xətti üçün yeni strateji marşrut rolunu oynayacağı gözlənilir.

Əli Əsədov əlavə edib ki, bərpaolunan enerji layihələri böyük həcmdə xarici sərmayə cəlb edir və sənayenin növbəti inkişaf mərhələsini formalaşdırır. Mərkəzi Asiya ölkələri ilə yaradılmış birgə sərmayə fondları, eləcə də Dövlət Neft Fondu və SOCAR vasitəsilə həyata keçirilən xarici investisiyalar ölkəyə həm dividend qazandıracaq, həm də yeni dəyər zənciri yaradacaq.

Baş nazir çıxışında yeni inkişaf modelinin bu strateji xətt üzrə qurulduğunu, Prezident İlham Əliyevin son 20 ildə həyata keçirdiyi siyasət nəticəsində Azərbaycanın siyasi-iqtisadi gücünün əhəmiyyətli dərəcədə artdığını vurğulayıb. O bildirib ki, millət vəkillərinin büdcə müzakirələrində səsləndirdiyi təklif və narahatlıqlar nəzərdən keçiriləcək və büdcə imkanları çərçivəsində həll istiqamətində addımlar atılacaq.

Daha sonra gündəlikdə olan növbəti məsələlərin müzakirəsi aparıldı. Aida Əli qızı Hüseynovanın Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin hakimi təyin edilməsi barədə təqdimat müzakirəyə çıxarılaraq bir oxunuşda qəbul edildi.

İclasda "Azərbaycan Respublikasının Milli Məclisinin Azərbaycan Respublikasının Nazirlər Kabinetinə etimad məsələsinin həll edilməsi hüququnun əlavə təminatları haqqında" Konstitusiya Qanununda dəyişiklik layihəsi müzakirəyə çıxarıldı. Layihə barədə Milli Məclisin hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli məlumat verdi. Komitə sədri bildirdi ki, Nazirlər Kabineti hər il Milli Məclisin yaz sessiyasının beşinci iclasında illik fəaliyyət haqqında hesabat verir. Dəyişikliyə əsasən, Nazirlər Kabinetinin hesabatı hər il martın 31-dək təqdim ediləcək. "Azərbaycan Respublikası Milli Məclisi Daxili Nizamnaməsinin təsdiq edilməsi haqqında" Qanunda da analoji dəyişiklik təklif edildi. Qanun layihələri səsverməyə çıxarılaraq qəbul edildi.

Parlamentdə "Azərbaycan Respublikasının daxili qoşunları haqqında" qanun layihəsi müzakirə olundu və təqdimat edən komitə sədri Arzu Nağıyev dəyişikliklərin Daxili Qoşunların səlahiyyətlərini genişləndirdiyini bildirdi. Yeni layihəyə əsasən, Daxili Qoşunlar mühafizə olunan dövlət obyektlərinin qorunmasında iştirak edir, həmin obyektlərə basqının qarşısını alır, əraziyə qanunsuz daxil olmuş şəxsləri axtarıb tutur, eləcə də aidiyyəti qurumların maddi-texniki və hərbi anbarlarını mühafizə edir. Həmçinin həmin qurumun tapşırığı və ya xidməti fəaliyyət zamanı aşkarlanmış partlayıcı maddə və qurğuları zərərsizləşdirir və məhv edir.

Plenar iclasda "Enerji resurslarından səmərəli istifadə və enerji effektivliyi haqqında" Qanuna dəyişiklik layihəsi də müzakirə olundu. Layihəyə görə, "Tarix və mədəniyyət abidələrinin qorunması haqqında" Qanuna uyğun olaraq siyahıya daxil edilmiş abidələr və bəzi xüsusi kateqoriyalı tikililər istisna olmaqla, yeni tikilən, yenidən qurulan və əsaslı təmir olunan bütün yaşayış və qeyri-yaşayış binalarının enerji effektivliyi üzrə pasportlaşdırılması məcburi olacaq. Pasport yalnız qanun qüvvəyə mindikdən sonra həyata keçirilən tikililərə şamil ediləcək, hazırda istismarda olan binalara aid olmayacaq. Qanun layihəsində pasportlaşdırma qaydalarının müəyyən ediləcəyi, bu qaydaların isə Nazirlər Kabineti tərəfindən təsdiq olunacağı qeyd edilir. Layihə üçüncü oxunuşda səsvermə ilə qəbul olunub.

İclasda yol hərəkəti təhlükəsizliyinə dair normativ çərçivənin də yenilənməsi müzakirə olundu. "Yol hərəkəti haqqında" Qanuna dəyişiklikləri əhatə edən layihədə motosiklet və mopedlərin istismarına dair daha sərt tələblərin tətbiqi nəzərdə tutulur. Xüsusilə vurğulanıb ki, motosiklet və ya mopedin uzunluğu və ya eni üzrə qabaritlərini 0,5 metrdən artıq aşan və ya nəqliyyat vasitəsinin idarə edilməsinə mane olan yükün daşınması qadağan ediləcək. Bu dəyişiklik həm sürücünün təhlükəsizliyini, həm də ümumi yol hərəkəti qaydalarının pozulmasının qarşısını almağı hədəfləyir. Layihənin mühüm yeniliklərindən biri moped idarə etmək üçün sürücülük vəsiqəsinin tələb olunmasıdır.

Bununla da MM-in 9 dekabr tarixində keçirilən plenar iclası yekunlaşdı.

*__Tacir ARAZOĞLU__*
*__XQ__*

# Heydər Əliyev:

# Məni sən dəvət edirsən, yoxsa Anar?

## *Müsahibimiz Xalq yazıçısı Elmira Axundovadır*



**(əvvəli qəzetimizin 9 dekabr 2025-ci il sayında)**

**– Jurnalistlər siyasətdə iştirak etmir, amma yazdıqları siyasi hadisələrin axarına təsir edə bilir. Sovet dönəmindən jurnalist fəaliyyəti ilə məşğul olmusunuz, həm də İttifaq miqyaslı bir nəşrin xüsusi müxbiri olmusunuz. 1980-ci illərin sonunda Mixail Qorbaçov Heydər Əliyevi hakimiyyətdən getməyə məcbur edəndən sonra Azərbaycanda ictimai-siyasi vəziyyət gərginləşməyə, erməni separatizmi alovlanmağa başlayanda respublikanın tanınmış ziyalıları, müdrik insanlar, xalqın böyük əksəriyyətinin yadına ilk düşən niyə məhz Heydər Əliyev olurdu? O vaxt bunun səbəbini nədə görürdünüz?**



– Doğru deyirsiniz, 1990-cı illərin gerçək mənzərəsi belə idi. Bir qədər əvvələ getmək istərdim. 1979-80-ci illərdə mən Azərbaycan Yazıçılar İttifaqına (indiki Azərbaycan Yazıçılar Birliyi) gəldim. 2 il Azteleradio komitəsində işlədim, xoşum gəlmədi və ordan çıxdım. Həyat yoldaşım AYİ-nın katibi İshaq İbrahimovdan xahiş etdi ki, məni ora işə düzəltsin. O da məni sədr İmran Qasımovun yanına apardı. Onlar istəyirdilər ki, gəncləri işə götürüb İttifaqda yeni ab-hava yaratsınlar. Məni Kübra xanım adlı yaşlı bir qadının yerinə işə götürdülər. Burada çalışdığım dövrdə AYİ-nin xətti ilə bir çox maraqlı və mədəni tədbirlər keçirildi: "Vaqif poeziya günləri", "Xalqların dostluğu ədəbiyyatların dostluğu", klassiklərin yubiley mərasimləri, konfranslar və s.

Heydər Əliyev Azərbaycan KP MK-nın birinci katibi olanda Mərkəzi Komitə həmin illərdə onlarla ədibimizə adlar, orden və medallar, təqaüdlər, mənzillər verirdi. Bunların təqdimatının yazılması mənə həvalə edilmişdi. Mən də bu təqdimatları rus dilində yazırdım. Sonra Mirzə İbrahimov AYİ-nin sədri olanda tapşırdı ki, təqdimatları Azərbaycan dilində yazım. Mənim (gülə-gülə deyir-İ.R.) qara günlərim bundan sonra başladı. İmran Qasımov rusdilli idi, MK-da oturanlara da bu sərf edirdi, çünki onlar da rusdilli idilər. Amma Mirzə İbrahimov öz dilimizin vurğunu idi. İkinci bir tərəfdən də Heydər Əliyev Azərbaycan KP MK-nın katibi seçiləndən sonra ana dilində danışmaq sürətlə populyarlaşmağa başlamışdı. O özü də yığıncaqlarda, görüşlərdə, respublika əhəmiyyətli mərasimlərdə ana dilində danışmağa üstünlük verirdi.

Mirzə İbrahimov çox qayğıkeş insan idi və mənə münasibəti də ata–bala münasibəti idi. Elə birinci gündən dedi: "Qızım, bu məktubları, təqdimatları Azərbaycan dilində yaz". Əslində, o haqlı idi. Necə ola bilərdi ki, Azərbaycan Yazıçılar İttifaqında rus dilində məktub, təqdimat yazılsın. Bəlkə də Mirzə İbrahimov o vaxt AYİ-na gəlməsəydi, mən Azərbaycan dilini öyrənməzdim.

Biz təqdimatları yazırdıq, Mirzə müəllim baxırdı, düzəlişlərini edirdi, sonra Mədəniyyət Nazirliyinə göndərirdik. Nazirlikdə Xeyrulla Əliyev vardı, Azərbaycan dilini yaxşı bilirdi. Amma bu məktub və təqdimatlar Mədəniyyət Nazirliyinin şöbə müdirinin müavini Nəriman Məmmədova gəlirdi, o isə Azərbaycan dilini bilmirdi. Bir gün də Xeyrulla müəllim mənə zəng vurdu ki, Elmira xanım, bunları necə rus dilində yazırdın, elə də yazıb göndər. Dedim, edə bilmərəm, Mirzə müəllim qoymur, ancaq Azərbaycan dilində. O da qayıtdı ki, sən Azərbaycan dilində göndər. Amma rus dilində surətini də əlavə et.

Mən o zaman görürdüm ki, Heydər Əliyev yazıçılar üçün nə qədər iş görür. Birinə orden, birinə fəxri ad, birinə ev və sair. Elə Heydər Əliyev yazıçılar üçün yaradıcılıq evi açdı. Biz hər il orada istirahət etməyə başladıq. Nə mən, nə də o yaradıcı insanlar bunları unuda bilməzdik. Ona görə də Bayram Bayramovdan başqa heç kim ondan üz çevirmədi, əksinə, gizli-aşkar ona rəğbət və məhəbbətlərini bildirirdilər. Doğrudur, bir çoxları açıq-saçıq onu müdafiə edə bilmirdi, amma gizlin-gizlin ona üstünlük verirdilər.

Mənim bugünlərdə yeni kitabım çıxıb. Orda Rüstəm İbrahimbəyovun ulu öndərlə bağlı fikirləri yer alıb. Çünki Moskvada vəzifədən gedəndən sonra hamı Heydər Əliyevdən üz çevirəndə, onu axtarmayanda, Rüstəm İbrahimbəyov və Tahir Salahov onu axtarıblar, onun yanına gediblər, ürək-dirək veriblər. Tahir Salahov və Rüstəm İbrahimbəyov hərəsi iki dəfə gedib Barvixada ona baş çəkmişdilər. Azərbaycana gələndə, Mədinə Gülgünün dəfnində iştirak edəndə, nə qədər adam onun başına toplaşdı...

**– Yeri gəlmişkən, Heydər Əliyevin Azərbaycan Yazıçılar Birliyinin 1991-ci ildə keçirilən IX qurultayında iştirakı o zaman yaxşı mənada çox böyük əks-səda doğurmuşdu. Bildiyim qədər onun qurultaya dəvət edilməsinin "günahkarlarından" biri siz olmusunuz. Bu təşəbbüs necə meydana çıxdı və yuxarılar bunu necə qarşıladılar?**

– Doğru deyirsiniz, həqiqətən də bu təşəbbüs mənim tərəfdən irəli sürülüb. Mən bu hərəkətimlə fəxr edirəm. Neçə illər keçəcək, yenə bu hərəkətimlə qürur duyacağam.

Həmin vaxtlarda mən "Literaturnaya qazeta"nın xüsusi müxbiri kimi Azərbaycanda da, Moskvada da çox populyar olmuşdum. Ədəbiyyat, mədəniyyət, mənəviyyat və siyasi hadisələrlə bağlı çox aktual və maraqlı məqalələrim çap olunurdu və bunu həm yuxarılar, həm də ziyalılar çox bəyənirdilər. Hətta Ayaz Mütəllibovun hakimiyyəti illərində daxili işlər naziri Məhəmməd Əsədovla "Literaturnaya qazeta"da çox böyük bir məqaləm dərc edilmişdi. Rəhmətlik Məhəmməd Əsədov sonra mənə dedi: "Ayaz Mütəllibov mənə zəng vurub soruşur ki, axı Elmira Axundova bunu necə çap elətdirib?" Mən çəkinmirdim, qorxmurdum, çünki arxamda "Literaturnaya qazeta" vardı, o zamankı dövlət başçısı da mənim fəaliyyətimi bəyənirdi.

Buna baxmayaraq, əvvəldə qeyd etdiyim kimi, Heydər Əliyevlə müntəzəm əlaqə saxlayırdım. Ona zəng edirdim, o mənə telefon açırdı. Hətta bir neçə dəfə qardaşı Cəlal müəllimin evində də onunla görüşmüşdüm. Milli Məclisin sessiyalarında da onu tək buraxmırdım və fasilələrdə görüşüb söhbətləşirdim.

Səhv etmirəmsə, 1991-ci il martın əvvəllərində AYB-in qurultayı olmalı idi. Milli Məclisdə ona qarşı tərbiyəsizlik ediləndə, tribunada çıxışı zamanı sözünü kəsmək üçün ayaq döyəndə, ona söz verməк istəməyəndə, əlbəttə, o bundan çox üzülmüşdü və qərara gəlmişdi ki, daha parlamentin sessiyalarına gəlməsin. Mən ona yaxınlaşdım və gördüm ki, çox məyus olub, gərginlik içindədir. Dedi: "Elmira, axı nə üçün mənə qarşı belə ədalətsizliklər edirlər? Mən ömrüm boyu Azərbaycana, xalqıma xidmət etmişəm". Hətta bir neçə dəfə mənə telefon açıb ürək ağrısıynan ona qarşı olan bu həqarətlərdən şikayətlənir, acısını bölüşürdü. Əlbəttə, mən elə bir vəzifə sahibi deyildim və ona heç bir köməyim dəyə bilməzdi. Amma könlünü almağa çalışırdım, istəmirdim belə bir şəxsiyyət ruhdan düşsün. Deyirdim, Heydər Əliyeviç, siz böyük şəxsiyyətsiniz, bunlara fikir verməyin, onları buna vadar edən adamlar var.

Öz-özümə düşünürdüm ki, hansı yolla olur-olsun, onun bu pərişanlığını aradan qaldırmaq, ruhdan düşməsinə imkan verməmək lazımdır. Bir gün də elə bu düşüncələr içində qurultaya dəvətnaməmi götürmək üçün Yazıçılar Birliyinə gəldim. O vaxtlar Anarla artıq çox yaxın dost idik. Ondan əvvəl də 4 il onunla bu qurumda işləmişdim. Elə Anar da məni "Literaturnaya qazeta"ya təklif edib zəmanət vermişdi. Gördüm ki, Anar müəllim Çingiz Abdullayevlə oturub dəvətnamələri bölüşdürürlər.

Dəvətnaməmi alıb oturdum və onlarla bir qədər söhbət etdim. Söhbətə heç bir aidiyyati olmadan, qəfildən dedim: "Anar müəllim, gəlin, Heydər Əliyevi qurultaya dəvət edək". O, bir anlıq fikrə getdi və sonra özünə inamla dedi: "Niyə də yox. Dəvət edək". Anar bunu etməyə də bilərdi və deyə bilərdi ki, respublika rəhbərliyinin ona münasibəti yaxşı deyil, bizə irad tutarlar, sonra bizim başımız ağrıyacaq və s. Amma o bu barədə bir kəlmə belə işlətmədi və Heydər Əliyevin qurultaya dəvət edilməsini cəsarətlə dəstəklədi. Bu artıq Anarın cəsarəti, hünəri idi.

Sonra qayıtdı ki, bəs necə dəvət edək, onu haradan tapaq? Anar doğrudan da bunu bilməyə bilərdi, amma mən bilirdim Heydər Əliyevlə necə əlaqə yaratmaq, görüşmək olar. Dedim: "Siz dəvət edirsinizsə, mən ona çatdıraram". Anar müəllim dedi: "Mənim adımnan dəvət edin".

Mən dərhal Cəlal müəllimin evinə getdim və Anar müəllimin dəvətini ona çatdırdım. Əvvəl bir qədər tərəddüdlə yanaşdı və dedi: "Elmira xanım, çox sağ olun, ancaq güman edirəm ki, mənim ora getməyim lüzumsuzdur. Çünki indi mən kiməm ki, oraya gəlim? Yazıçı deyiləm ki, oraya yazıçı kimi gəlim". Sonra sual dolu baxışlarla mənə baxıb soruşdu: "Məni sən dəvət edirsən, yoxsa Anar?" Dedim: "Heydər Əliyeviç, mən kiməm ki, sizi qurultaya dəvət edim. Əlbəttə, Anar dəvət edir." "Anar dəvət edir, – deyib bir anlıq dayandı və dedi.– Elmira, bilirsən ki, mən indi elə bir vəziyyətdəyəm, ona ziyan verə bilərəm." Sonra ürəyindəki istəyi açıb ortaya qoydu: "Mən çox istərdim yazıçıların qurultayında iştirak edim. Yazıçılarımızla görüşüm, görüm necədirlər, necə yaşayırlar, hansı dərdləri, problemləri var. Amma vəziyyət sənə bəllidir. Sən yenə get Anar müəllimlə danış, gör nə deyir. Mənim narahatlıqlarımı da ona çatdır. Çünki onun üçün narahatam. Bəlkə, nəzakət xətrinə məni dəvət edir."

Təkrar Anar müəllimin qəbuluna getdim. Dedim: "Anar müəllim, Heydər Əliyev tərəddüd edir. Sizə görə narahatdır və deyir ki, bəlkə nəzakət xətrinə məni dəvət edir. Birdən orada təxribat edərlər, onlara təzyiq göstrərlər". Anar dedi: "Elmira, sən Heydər müəllimə çatdır ki, mən onu sidq–ürəkdən dəvət edirəm. Biz hamımız istəyirik ki, Heydər Əliyev bizim qurultayımızda iştirak etsin."

Mən qayıtdım ki, Anar müəllim siz bir dəvətnamə yazın, mən özüm aparım verim, bu da olsun rəsmi dəvət". Anar bir dəvətnamə uzadıb dedi: "Təşəbbüsün müəllifi sənsən, al özün ad–familyasını yaz". Mən dəvətnaməni alıb, tələsik Heydər Əliyevin adını və familiyasını ora yazdım. Xəttim də elə yaxşı alınmamışdı (Gülür).

Dəvətnaməni götürüb Cəlal müəllimin evinə getdim. Heydər Əliyeviç orada idi. Dəvətnaməni ona uzatdım. "Bu nədir belə?" deyib aldı və açıb baxanda gözlərində sanki ulduz parladı. Sonra da Anarın bütün dediklərini Heydər Əliyevə çatdırdım.

Siz görəydiniz, qurultay başlamamışdan Heydər Əliyev Filarmoniyanın qapısından içəri girəndə yazıçılar onu necə böyük sevinclə, hərarətlə qarşıladılar. Mən sonra yazılarımda qeyd etdim ki, bundan sonra Heydər Əliyevin mənən dirçəlişi başladı. Qurultay başa çatandan sonra bu böyük insan axşama qədər bizimlə oturdu. Çıxışlara diqqətlə qulaq asdı, fasilələrdə foyelərə keçdi, yazıçılarla söhbətlər etdi, müzakirələr apardı. Səhv etmirəmsə, yazıçı Bayram Bayramovla da görüşüb hal-əhval tutdu. Yalnız orada olan bir-iki partiya məmuru onu görən kimi qaçıb getdilər.

**– Prezident Heydər Əliyevi xarici ölkələrə səfərlərdə müşayiət edən jurnalistlər sırasında sizi ilk dəfə 1994-cü ilin yanvarında görmüşdüm. Sonradan müntəzəm olaraq bu səfərlərin iştirakçısına çevrildiniz. Bu səfərlər zamanı Heydər Əliyevlə bağlı yaddaşınızda qalan maraqlı məqamları bölüşə bilərsinizmi?**

– Doğru qeyd edirsiniz. İlk səfərlərdən birində siz də iştirak edirdiniz. Mən bütün səfərlər haqqında qeydlər aparır, sonra reportajlar, məqalələr yazırdım. Əvvəlcə "Literaturnaya qazeta", sonra "Azadlıq" radiosuna materiallar verirdim. Müəyyən vaxt keçəndən sonra məqalələrim artıq kitaba çevrilirdi və "Həqiqət anı" adı ilə çap olundu. Bu kitaba 50 məqaləm daxil idi. Bəxtim onda gətirdi ki, bu kitabı 2003-cü ilin aprelində, Heydər Əliyev hələ Respublika Sarayında o məşhur çıxışını etməmiş və ürək böhranı keçirməmiş, ona çatdıra bildim. Siz görəydiniz, bu kitab ona necə xoş təsir bağışlamışdı. Kitabı alandan sonra mənə evə telefon açdı və elə xoş sözlər dedi ki, qanadım olsa, uçardım. Bundan sonra mənim istəyimi soruşmadan belə mənə mənzil bağışladı.

Siz də bu səfərlərdə iştirak etmisiniz və bilirsiniz. Onunla səfərlərin hər biri bizim üçün maraqlı idi. Acgözlüklə hər yerlə, hər şeylə maraqlanırdıq.

Heydər Əliyev xarici səfərlərdə özünü elə aparırdı sanki bu insan ömrü boyu prezident olub. Onun yerişi, xarizması, dövlət rəhbərləri ilə danışıqları istər-istəməz adamda heyranlıq doğururdu. Təbii ki, respublikaya da rəhbərlik etmişdi, SSRİ kimi nəhəng dövlətin rəhbərlərindən biri olmuşdu, amma müstəqil dövlət başçısı kimi yenicə hakimiyyətə qədəm qoymuş olsa da, bu, onu zərrə qədər sıxmırdı. Əksinə, o özünü daha sərbəst, daha müstəqil, daha qürurlu və qətiyyətli aparırdı.

Bu il Azərbaycan Prezident İlham Əliyevi Çində necə böyük təmtəraqla, böyük bir dövlətin başçısı səviyyəsində qarşıladılar, o zaman Heydər Əliyevi də Asiyanın nəhəng dövlətində eynən bu səviyyədə qarşıladılar. Amma o zamankı Azərbaycan, torpaqlarını düşməndən təmizləyən, böyük Zəfərə imza atan, regionda söz sahibi olan, iqtisadi potensialı yüksək olan indiki Azərbaycan deyildi. Kasıb, büdcəsində çox cüzi vəsaiti olan, kiçik bir Ermənistan tərəfindən torpaqları işğal olunan Azərbaycan idi.

Bilirsiniz ki, danışıqlar prosesində, qəbullarda jurnalistləri çox qalmağa icazə vermirlər, maksimum 2-3 dəqiqə. Çinə səfəri zamanı da Heydər Əliyevlə ÇXR-in rəhbəri Jianq Zemin görüşəndə belə oldu. Amma sonra danışıqlarda iştirak edən Azərbaycanın o illərdəki Baş naziri Fuad Quliyev mənə çox qürurla belə bir söhbət etdi: "Görüşün əvvəlində Çinin o zamankı lideri Jianq Zemin Heydər Əliyevlə bir qədər təkəbbürlü, ədalı danışırdı. Aydın məsələ idi ki, Çinlə müqayisədə Azərbaycan çox kiçik bir dövlət idi, həm əhalisinə, həm iqtisadi potensialına, həm də yüksəlişdə olmasına görə bizdən üstün idi. Jianq Zeminin ədalı danışığını Heydər Əliyev səbirlə dinləyirdi. Amma 5-6 dəqiqədən sonra, elə ki, Heydər Əliyev danışmağa başladı, Jianq Zeminin ədası sürətlə əriməyə başladı və tamamilə dəyişib başqa bir adam oldu. Danışıqlar prosesinin ikinci hissəsini onları tanımayan bir adam izləmiş olsaydı, elə başa düşərdi ki, Jianq Zemin balaca və kasıb Azərbaycanın prezidentidir, Heydər Əliyev milyarddan çox əhalisi olan nəhəng Çinin. Rollar dəyişmişdi, Jianq Zemin Heydər Əliyevə çox diqqətlə və heyranlıqla qulaq asır və onun dediklərini başı ilə təsdiqləyirdi". Soruşdum ki, Fuad müəllim, niyə belə oldu? Dedi: "Heydər Əliyev ona Çinin tarixi, baş vermiş hadisələr, ölkədə gedən proseslər, SSRİ–Çin münasibətləri haqqında elə faktlardan söz açdı ki, müsahibi çaşıb qaldı. Danışıqlar başa çatandan sonra Jianq Zemin Heydər Əliyevlə elə sağollaşdı, elə bil böyük qardaşından ayrılırdı. Bu danışıqlardan sonra, həmin dövrlərdə heç bir ölkəyə kredit verməyən Çin Azərbaycana kredit ayırmağa razılıq verdi, həm də çox böyük məbləğdə".

Səudiyyə Ərəbistanında da eynən belə hadisə baş verdi. Bu ölkədə də yüksək səviyyəli görüş zamanı kral Heydər Əliyevi bir qədər təkəbbürlü və əda ilə qarşıladı. Düşünürdülər ki, kasıb Azərbaycan bura nə üçün gəlib? Əlbəttə, kredit üçün. Bu reallıq idi, çünki bizim ölkənin iqtisadi vəziyyəti ağır idi. Aydın məsələ idi ki, onlar Heydər Əliyevi yaxşı tanıyırdılar. Haralarda işlədiyini bilirdilər. Amma Azərbaycanın o zamanda düşdüyü vəziyyəti də yaxşı bilirdilər. Onlar ədalı danışıqlarını bitirən kimi Heydər Əliyev danışmağa başlayır və deyir: "Bilirsiniz, bizim xalq VII əsrdə hələ İslamı qəbul etməmişdi. Siz gəldiniz bizim torpaqlara, millətimizi islamlaşdırdınız, gözəl bir din gətirdiniz. Biz buna görə sizə çox minnətdarıq. İndi baxın görün neçə əsr keçib. Siz də dünyada müəyyən nüfuz qazanmısınız, inkişaf etmisiniz. İndi din qardaşlarınıza əl uzadıb, kömək etməyin vaxtı çatmayıbmı? Vaxtdır, indi müsəlman qardaşlarınıza dəstək olmalısınız". Bundan sonra mənzərə tam dəyişdi. Hamı gülməyə başladı.

Yəni Heydər Əliyev belə incə məqamlara toxunmağı, qarşısındakı müsahibini öz fikri ilə ovsunlamağı çox gözəl bacarırdı. Yəqin xatırlayırsınız, bu görüşlərdən sonra Heydər Əliyev müqəddəs Məkkəni ziyarət etdi. Biz də onunla bərabər həmin müqəddəs yerləri ziyarət etdik. Hətta iki müqəddəs ocağın xidmətçisi, Kral Heydər Əliyev üçün Kəbənin qapılarını açdırıb, oranı ziyarət etməsinə şərait yaratdı, biz də ulu öndərin sayəsində Kəbənin içinə girə bildik. Müsəlmanlar üçün bundan müqəddəs nə ola bilərdi?

Heydər Əliyev Məkkəni, Kəbəni ziyarət etməklə və burada namaz qılmaqla da dünyaya bir mesaj verdi: Azərbaycan İslam dəyərlərinə yüksək ehtiram göstərir, öz əqidəsinə sadiqdir. Eyni zamanda Roma Papasını ziyarət etməsi, sonra onu bura dəvət etməsi, həmçinin Qərbə, Asiyaya səfərləri müstəqil Azərbaycanın dünyəvi siyasət yürütdüyünü, ancaq öz milli dəyərlərinə sadiq qaldığını göstərən mesajlar idi.

Heydər Əliyevin çox maraqlı cəhətləri var idi. Məsələn, ən yüksək tribunalardan belə çıxışları zamanı heç bir qeydə, kağıza baxmadan bədahətən danışırdı. Doğrudur, bir iki məqamda bunu görmüşdük. Məsələn, Roma Papası ilə görüş zamanı ulu öndər, xarici işlər naziri Vilayət Quliyevlə birlikdə yığcam çıxış yazdı. İkinci dəfə də Yalta görüşü zamanı belə oldu. Çıxış üçün 3-4 dəqiqə vaxt ayrılmışdı deyə, yığcam bir çıxış hazırladılar. Amma onda da bu çıxışı bir kənara qoyub başladı sərbəst danışmağa. Çünki çıxışın mətnində bir "paradiqma" sözü var idi, Heydər Əliyev o sözü deyəndə bir anlıq fasilə verdi və üzünü Vilayətə çevirib soruşdu ki, bu nə sözdü bura yazmısınız? Sonra salondakılara müraciət edib dedi: "Olarmı alimlərin yazdığı bu qeydləri bir kənara qoyub, öz bildiyim və bacardığım kimi danışım?" Bununla da qeydləri bir kənara qoyub yenə sinədəftər danışmağa başladı.

***(ardı var)***

***Müsahibəni qələmə aldı:***
***İlqar RÜSTƏMOV,***
***Əməkdar jurnalist***

# Heydər Əliyevin ümummilli liderlik salnaməsi

**Ulu öndər Heydər Əliyevin Azərbaycanın çoxəsrlik dövlətçilik tarixinin ən qüdrətli şəxsiyyəti, öz xalqının ümummilli lideri, dünya şöhrətli siyasət və dövlət xadimi kimi uca mərtəbələrə yüksəlişinin qanunauyğunluğuna yalnız onun bioqrafiyasını incələməklə cavab tapmaq mümkündür. Dünyanı Azərbaycan fenomeni olaraq heyran qoymuş bu ulu insanın özünün qələmə aldığı bioqrafiya və ya memuar olmasa da, onun ömür yolu tarixə həkk edilmiş əməllərlə misilsiz salnamədir.**

**Heydər Əliyevin hakimiyyətinin ikinci dövründəki nitqləri və çıxışları memuar xarakterli epizodlar ilə zəngin olduğundan onun öz xalqının xoşbəxtliyinə həsr olunmuş ömür yolu və liderlik fəaliyyəti barədə ətraflı məlumat verir, siyasi kimliyi haqqında geniş təsəvvür yaradır. Ötən illərdə Ulu öndərdən bəhs edən çoxsaylı ədəbiyyat yaransa da, onun mükəmməl bioqrafiyasının yazılmasına getdikcə daha böyük ehtiyac duyulur. Bu yazı həmin məqsədlə qələmə alınıb – Heydər Əliyevin ümummilli liderlik tarixinin bioqrafik icmalına həsr edilib. Bu bioqrafiya, eyni zamanda, Heydər Əliyevin ümummilli lideri olduğu xalqın və ölkənin çağdaş siyasi salnaməsidir.**



## 1. Uşaqlıq və yeniyetməlik (Naxçıvan, 1923–1939)

Ümummilli lider Heydər Əliyev Türkiyənin TGRT telekanalının "Üz-üzə" proqramına müsahibəsində demişdir: "Həyatım haqqında danışmaq üçün çox vaxt lazımdır. Buna bir saat bəs etməz. Amma qısa olaraq deyə bilərəm. Mən 1923-cü ildə Naxçıvanda anadan olmuşam".

Heydər Əliyev səkkizuşaqlı ailənin dördüncü üzvü idi. Naxçıvandakı 1 saylı beynəlmiləl orta məktəbin yeddinci sinfini bitirdikdən sonra 1936-cı ildə Naxçıvan Pedaqoji məktəbinə (texnikum da adlandırılır) daxil olur. Tələbəlik illəri həyatında ciddi rol oynayır. Heydər Əliyev bu illər haqqında Naxçıvanda görkəmli rəssam Bəhruz Kəngərlinin muzeyinin açılışında belə demişdir: "Mən həmişə Naxçıvanda oxuduğum dövrü xatırlayıram, bu dövr mənim yaddaşımdan heç vaxt çıxmayacaqdır. Birinci sinifdən sona qədər heç vaxt yadımdan çıxmayacaqdır. Ona görə də müəllimlərin hamısı yadımdadır. Hansı binada, hansı sinifdə oturmuşam o da yadımdadır. Hansı partanın arxasında oturmuşam, o da yadımdadır... burada o qədər məhəbbətlə, o qədər sevgi ilə, o qədər köklü təhsil aldım ki, sonra bütün başqa yüksək təhsil ocaqlarında oxumaq mənim üçün çətin olmadı".

## 2. İlk ali təhsil (Bakı, 1939–1940)

Heydər Əliyev pedaqoji məktəbi bitirdikdən sonra Bakıya gəlir və burada Azərbaycan Sənaye İnstitutunun memarlıq fakültəsinə daxil olur. Elə həmin ildə İkinci Dünya müharibəsi başlayır. Heydər Əliyev təhsilini davam etdirməklə bərabər, rəsm əsərləri də çəkir, lakin tezliklə institutu tərk etməli olur. Bundan sonra Naxçıvana qayıdır. Bu dövrdə və sonralar, 1990-cı ildə Naxçıvana qayıdış, onun həyatında yeni yüksəliş üçün əsas olur.

## 3. Əmək fəaliyyətinin başlanması (Naxçıvan, 1941–1944)

Faşist Almaniyası işğalçılıq fəaliyyətini davam etdirərək Şərqi Avropa dövlətlərinin, demək olar ki, hamısını zəbt edir. 1941-ci il iyunun 22-də isə SSRİ üzərinə hücum edir. Beləliklə, SSRİ-nin Almaniya ilə 1941-1945-ci illər müharibəsi başlayır. Bu hadisələr gənc Heydərin də həyatında ciddi dəyişiklik edir. Müharibə ona təhsilini davam etdirməyə imkan vermədiyindən Naxçıvanda əmək fəaliyyətinə başlayır. O, sonralar söyləmişdir: "Müharibədən əvvəl mən memar olmaq istəyirdim. Müharibəyə görə bu pozuldu".

Gənc Heydər Əliyev 1941–1943-cü illərdə Naxçıvan MSSR Xalq Daxili İşlər Komissarlığında məxfi şöbənin, 1943–1944-cü illərdə isə Naxçıvan MSSR Xalq Komissarları Sovetində ümumi şöbənin müdiri vəzifələrində çalışır.

## 4. Dövlət təhlükəsizliyi orqanlarında fəaliyyəti (Bakı, 1944–1969)

Heydər Əliyev 1944-cü ildə Dövlət təhlükəsizliyi orqanlarına işə göndərilir. Bu, onun sonrakı həyatında həlledici rol oynayır və ömrünün 25 ili bu dövlət orqanı ilə bağlı olur. 1945-ci ildə isə Sovet İttifaqı Kommunist Partiyası sıralarına daxil olur. 1991-ci ilin iyulunda Sov. İKP-nin siyasətinə etiraz əlaməti olaraq onun sıralarını tərk edir.

1949-cu ildə Leninqradda Təhlükəsizlik orqanlarının ali məktəbinə daxil olan Heydər Əliyev 1950-ci ilin yayınadək orada təhsil alır. Həmin məktəbi müvəffəqiyyətlə bitirdikdən sonra ona verilən xidməti xasiyyətnamədə deyilirdi: "Baş leytenant H.Əliyev 1949-cu ilin may ayından 1950-ci ilin iyul ayınadək SSRİ DTN-in (Dövlət Təhlükəsizlik Nazirliyi, 1946–1953-cü illərdə mövcud olmuş, 1954-cü ildə Dövlət Təhlükəsizlik Komitəsi (DTK) təşkil olunmuşdur. – K.Ş.) Leninqraddakı məktəbində oxumuş və özünü yalnız nümunəvi tərəfdən göstərmişdir. Təhsilə tam ciddi yanaşmışdır. Tədris materiallarının öyrənilməsi üzərində geniş və inadla çalışmışdır. Sinif və seminar məşğələlərinə həvəs və səylə hazırlaşmış, təhsildən kənar vaxtlarında öz ideya-siyasi və ümumtəhsil səviyyəsini artırmaq üzərində əlavə işləmişdir".

Heydər Əliyev 1950–1953-cü illərdə Azərbaycan SSR Dövlət Təhlükəsizlik orqanlarında bölmə rəisi vəzifəsində çalışmışdır. 1951–1957-ci illərdə eyni zamanda Azərbaycan Dövlət Universitetinin (hazırda Bakı Dövlət Universiteti) tarix fakültəsinin qiyabi şöbəsində təhsil almışdır.

1953-cü ildə İ.Stalinin ölümündən sonra N.S.Xruşşov hakimiyyəti ələ keçirməyə nail olur. Stalinin şəxsiyyətə pərəstişi tənqid olunmağa başlayır, demokratikləşmə genişlənir. Bu dövr (1953–1964) tarixə "mülayimləşmə" dövrü kimi daxil olur.

1954-cü ildə Heydər Əliyevin şəxsi həyatında əlamətdar hadisə baş verir. Həmin ildə Zərifə xanım Əliyeva ilə ailə qurur. Zərifə xanımın atası Əziz Əliyev (1897–1962) görkəmli partiya və dövlət xadimi idi. Stalin hakimiyyətinin son dövrünün təqibləri Əziz Əliyevdən də yan keçməmiş, dövlət təhlükəsizlik orqanları tərəfindən xüsusi nəzarətə götürülmüşdü. Heydər Əliyev də bu ailə ilə münasibətinə görə, hər cür təqib və təhdidlərlə üzləşmiş, lakin Zərifə xanım ilə ailə həyatı qurmaqdan çəkinməmişdir. 12 oktyabr 1955-ci ildə Sevil Əliyeva, 24 dekabr 1961-ci ildə isə İlham Əliyev anadan olur.

Heydər Əliyev 1995-ci ilin aprelində Zərifə xanımı belə xatırlayırdı: "Gənc yaşlarımdan mənim həyatım dövlət işi ilə bağlı olubdur. Mən bütün həyatımı buna sərf etmişəm və bu gün də bu yolda çalışıram. Bu yolda mənim həmişə səmərəli, müvəffəqiyyətlə çalışmağımda, hesab edirəm ki, ailə vəziyyətimin çox böyük rolu olub. Zərifə xanım kimi həyat yoldaşım olduğuna və o, ailəmdə çox yüksək mənəvi mühit yaratdığına görə mən xoşbəxt olmuşam. Həyatımın bütün dövrlərində işlə məşğul olduğuma görə ailə məsələlərinə fikir verməyə vaxtım olmayıb. Bunların hamısı Zərifə xanımın üzərinə düşüb və o da bu vəzifəni şərəflə, sədaqətlə, çox böyük məharətlə yerinə yetirib".

Heydər Əliyevin dövlət təhlükəsizlik orqanlarında fəaliyyəti uğurla davam edir. 1964-cü ildə Dövlət Təhlükəsizlik Komitəsinin sədr müavini, 1967-ci ildə isə sədri vəzifəsinə irəli çəkilir.

Azərbaycanda Heydər Əliyevədək bu orqana qeyri-azərbaycanlılar rəhbərlik etmişdir. DTK 1937–1938-ci illər repressiyası zamanı Azərbaycan xalqının görkəmli şəxslərinin məhvini həyata keçirmiş, milli-mənəvi dəyərlərə qarşı mübarizə aparmışdı.

Heydər Əliyev təhlükəsizlik orqanlarında işlədiyi zaman, xüsusilə bu orqana rəhbərlik etdiyi dövrdə ölkənin milli mənafelərinin müdafiə edilməsi sahəsində xeyli iş görmüşdür. Bir çox xarici dövlətlərin kəşfiyyat fəaliyyəti zərərsizləşdirilmiş, peşəkar əməliyyatlar həyata keçirilmişdir.

Heydər Əliyevin siyasəti nəticəsində təhlükəsizlik xidməti orqanlarında azərbaycanlı zabit və sıravi əməkdaşların sayı artırılır, şəxsi heyət arasında milli hiss gücləndirilirdi.

Ulu öndər Respublika Milli Təhlükəsizlik orqanları əməkdaşlarının peşə bayramı gününün təsis edilməsinə həsr olunmuş təntənəli yığıncaqda demişdir: "Azərbaycanın milli təhlükəsizlik orqanlarının tarixinə müəyyən qədər nəzər salsaq, bax, belədir: 20-30-cu illərdə, 40-cı illərdə bu orqanlarda çox cinayətlər olubdur. Deyə bilərəm ki, 1953-cü ildən saflaşma prosesi gedibdir və mən də bu prosesin bilavasitə iştirakçısı, son illərdə də təşkilatçısı olmuşam və xoşbəxtəm ki, o vaxtlar bu işləri görə bilmişəm və təxminən 1988-ci ilə qədər Azərbaycanda bu orqanlar, hesab edirəm ki, düzgün mövqedə olublar. Şübhəsiz ki, bu, Sovetlər İttifaqı Dövlət təhlükəsizliyi sisteminin bir hissəsi olub, bütün göstərişlər, direktivlər hamısı Moskvadan gəlibdir. Bunlar təbiidir. Ancaq, eyni zamanda həqiqət naminə demək lazımdır ki, bu dövrdə, yenə də qeyd edirəm, 1953-cü ildən sonra bu orqanlarda həm kəşfiyyat, həm əks–kəşfiyyat sahəsində, bütün başqa sahələrdə çox gözəl azərbaycanlı kadrlar yetişmişdi, inkişaf etmişdi, bu orqanlar azərbaycanlılaşmışdı".

Heydər Əliyev dövlət təhlükəsizlik orqanlarında əsrin dörddəbiri qədər çalışdı. Bu dövr ərzində əldə edilən professional və siyasi nüfuz Azərbaycanın rəhbəri olmaq üçün kifayət etdi.

## 5. Azərbaycana birinci rəhbərlik (Bakı, 1969–1982)

Heydər Əliyev 1969-cu il iyulun 14-də Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin (KP MK) plenumunda birinci katib, sovet ənənəsinə görə, əslində dövlətin rəhbəri seçildi. Heydər Əliyev rəhbərliyə başladığı zaman ölkədə sovet hakimiyyəti əllinci ilinə çatmaqda idi. Bu müddətdə Azərbaycan SSR-də, əsasən, on iki rəhbər hakimiyyətdə olmuşdu ki, onlardan da dördü qeyri-azərbaycanlı idi. Sovet dövləti həmin dövrdə Azərbaycan rəhbərliyinə münasibətdə imperiya mövqeyindən çıxış etmişdir. Onların çoxu sui-qəsd, repressiya və siyasi motivlərdən qətlə yetirilmiş və ya güllələnmişdir. Yalnız Heydər Əliyevin zamanında Azərbaycan rəhbərliyi yüksək statusa nail ola bilmiş, onun Moskvadakı vəzifəsindən istefasından sonra (1987) bu praktika yenidən bərpa edilmişdi.

Heydər Əliyev sovet sistemi daxilində Azərbaycanın idarəçiliyində yeni dövr açdı. Qısa bir zamanda Dövlət Təhlükəsizlik Komitəsinin rəhbəri kimi, əsasən, nadir hallarda üzdə olan bir şəxsdən xalqın gözü önündə olan ictimai-siyasi şəxsə çevrildi və ömrünün sonuna kimi bu missiyanı uğurla davam etdirdi.

Heydər Əliyev 1969-cu ildə hakimiyyətə gələndə digər müttəfiq respublikalar ilə müqayisədə Azərbaycanın sosial-iqtisadi vəziyyəti daha ağır vəziyyətdə idi. O bu barədə Yeni əsr və üçüncü minillik münasibətilə Azərbaycan xalqına müraciətində demişdir: "Qətiyyətlə bildirmək olar ki, 60-cı illərdə respublika iqtisadiyyatı bütövlükdə dərin və uzunmüddətli böhran mərhələsinə qədəm qoymuşdu. Yaranmış ağır vəziyyətdən çıxış yolu tapılmalı, iqtisadiyyatın inkişafı üçün prinsipial cəhətdən yeni konseptual yanaşma yolları işlənib hazırlanmalı, xalq təsərrüfatında köklü struktur dəyişiklikləri aparılmalı, təsərrüfatçılıq və iqtisadi həvəsləndirmə işində təzə metodlar tətbiq edilməli idi".

Azərbaycanın düşdüyü böhrandan çıxarılması və inkişafının təmin edilməsi üçün Azərbaycan KP MK-nın avqust və dekabr (1970) plenumlarında tədbirlər müəyyən edildi.

Heydər Əliyevin Azərbaycanda rəhbərliyə gəlməsi respublika üçün daha ciddi bir təhlükənin qarşısını da aldı. 1948–1953-cü illərdə sovet dövlət rəhbərliyinin yaxından köməyi ilə azərbaycanlıların doğma torpaqları olan Qərbi Azərbaycandan–Ermənistan SSR adlandırılan ərazidən deportasiyasına nail olan ermənilər 1968–1969-cu illərdə Azərbaycana qarşı ərazi iddialarını da yenidən genişləndirmişdilər. Moskva da onların bu iddialarına dəstək verirdi. Məhz belə bir təzyiq nəticəsində Azərbaycan SSR Ali Sovetinin Rəyasət Heyəti Ermənistanla sərhəddə yerləşən 2 min hektardan çox torpağın onlara verilməsi haqqında hələ 1938-ci il mayın 5-də qəbul edilmiş əsassız sənədi 1969-cu il 7 may tarixli qərarı ilə təsdiq etdi.

Heydər Əliyev bu qərarın həyata keçirilməsinə yol vermədi. Bu plan Qazax, Gədəbəy və digər rayonların ərazisindən müəyyən torpaqların Ermənistana verilməsi, yalnız 1984-cü ilin oktyabrında, respublikanın o zamankı rəhbəri Kamran Bağırov (1982–1988) tərəfindən reallaşdırılmış, etiraz edən yerli əhaliyə qarşı cəza tədbirləri həyata keçirilmişdi.

Heydər Əliyevin hakimiyyətə gəlişi ilk baxışda adi görünən, mahiyyət etibarilə böyük əhəmiyyəti olan bir hadisədə də özünü göstərdi. O, 1 noyabr 1969-cu ildə Azərbaycan Dövlət Universitetinin (hazırda Bakı Dövlət Universiteti) 50 illik yubileyində, rəsmi tədbirdə Azərbaycan rəhbərləri içərisində ilk dəfə olaraq ana dilində - Azərbaycan dilində çıxış etdi. Heydər Əliyevin rəhbərliyi ilə 1978-ci ilin aprelində qəbul edilmiş Azərbaycan SSR Konstitusiyasında Azərbaycan dili dövlət dili kimi təsbit olundu.

Sovetlər zamanı dövrün səciyyəsi partiya qurultayları, plenumları və beşillik planlar ilə müəyyən edilirdi. Heydər Əliyev birinci hakimiyyəti dövründə Azərbaycan KP-nin XXVIII (1971), XXIX (1976), XXX (1981) qurultaylarına rəhbərlik etmiş, Sov. İKP-nin XXIV (1972), XXV (1977) və XXVI (1982) qurultaylarında çıxış etmişdir. O, 1976-cı ilin martında Sov. İKP MK Siyasi Bürosunun üzvlüyünə namizəd seçilmişdir. 1977-ci ilin oktyabrında SSRİ Konstitusiya Komissiyasının üzvü kimi SSRİ Konstitusiyasını qəbul edən SSRİ Ali Sovetinin sessiyasında çıxışında Azərbaycan dövləti və xalqının mövqeyini qətiyyətlə ifadə etmişdir.

Heydər Əliyev hakimiyyətdə olduğu dövrdə VIII beşilliyi (1966-1970) uğurla başa çatdırmağa nail olmuş, IX (1971–1975), X (1976–1980) və XI (1981–1985) beşilliklərin hazırlanması və həyata keçirilməsini (XI beşillik 1982-ci ilin sonlarınadək) təmin etmişdir.

Heydər Əliyevin Azərbaycana rəhbərliyi dövründə Sov. İKP MK və SSRİ Nazirlər Sovetinin Azərbaycana dair 5 qərarı – "Azərbaycan SSR xalq təsərrüfatını inkişaf etdirmək tədbirləri haqqında" (1970, 23 iyul), "Azərbaycan SSR kənd təsərrüfatını daha da inkişaf etdirmək tədbirləri haqqında" (1970, 25 iyul), "Azərbaycan SSR-də kənd təsərrüfatı istehsalını daha da intensivləşdirmək tədbirləri haqqında" (1975, 9 iyul), "1976–1980-ci illərdə respublika sənayesinin ayrı-ayrı sahələrinin inkişaf etdirilməsinə dair Azərbaycan KP MK-nın təkliflərinin nəzərdən keçirilməsi nəticələri barəsində" (1976, 27 iyul) və "Azərbaycan SSR-də kənd təsərrüfatı istehsalını daha da ixtisaslaşdırmaq, üzümçülüyü və şərabçılığı inkişaf etdirmək tədbirləri haqqında" (1979, 22 fevral) qəbul edilmişdir. Öz dövrünə görə bu qərarların qəbul edilməsi böyük tarixi hadisə idi.

Hər bir siyasi xadimin böyüklüyü ondadır ki, o, taleyüklü məsələləri vaxtında görür, onu həyata keçirməyin yollarını tapır və həllinə nail olur. Heydər Əliyevin təşəbbüsü ilə 20 iyun 1971-ci ildə Bakıda azərbaycanlı gənclərdən zabit kadrların hazırlanmasında böyük rolu olan C.Naxçıvanski adına Respublika Orta İxtisaslaşdırılmış İnternat məktəbi açılmışdı. Heydər Əliyev sonralar hərbi lisey kimi fəaliyyətini davam etdirən həmin məktəbin 30 illik yubileyində demişdir: "Bu məktəbi yaşatdıq, böyütdük. Ancaq o illərdə mənim beynimdə dolaşan fikir təkcə o deyildi ki, bizim gənclər nə üçün orduda zabit vəzifəsində işləmirlər. Bunun o biri tərəfi də var. Demək, mən düşünürdüm ki, bizim xalqımızın gələcəyi, nə vaxt da olsa, müstəqillik olacaqdır. Məhz ona görə də, bax, bizim bu günümüzə görə də, müstəqillik dövrümüzə görə də mən bu məktəbi yaratdım, böyütdüm, 30 yaşa çatdırdım".

Heydər Əliyev Azərbaycan gənclərinin SSRİ-nin Moskva, Leninqrad, Kiyev və başqa qabaqcıl ali məktəblərində təhsil almasının təşkilinə xüsusi önəm vermişdi. 1969-cu ildə Azərbaycandan kənara təhsil almağa göndərilən, əsasən də qeyri-azərbaycanlılardan ibarət olan tələbələrin sayı cəmi 47 nəfər idisə, 1980-ci illərin əvvəllərində əksəriyyətini azərbaycanlılar təşkil edən tələbələrin sayı 1000–1400 nəfərə çatmışdı. 1972-ci ildən etibarən Azərbaycandan SSRİ-nin müxtəlif ali hərbi məktəblərinə hər il 300–400 nəfər göndərilirdisə, 1980-ci illərin əvvəllərində onların sayı 800–1000 nəfər idi.

Görkəmli azərbaycanlıların, Azərbaycan xalqı qarşısında böyük xidmətləri olan elm və mədəniyyət xadimlərinin yubileylərinin qeyd edilməsinə də xüsusi diqqət verilirdi. Məşhur şair və dramaturq, repressiya qurbanı Hüseyn Cavidin nəşi 26 oktyabr 1982-ci ildə Sibirdən gətirilərək Naxçıvanda dəfn edilmişdir.

Heydər Əliyevin siyasətində Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Dağlıq Qarabağ Muxtar Vilayətinə (DQMV 1923–1991-ci illərdə mövcud olmuşdur) münasibət də mühüm yer tuturdu. O, ən əvvəl vilayətin sosial-iqtisadi və mədəni inkişafına çalışırdı. 1973-cü ildə Xankəndidə Pedaqoji İnstitut açılmış, 1976-cı ildə Sərsəng su dəryaçası, 1978-ci ildə Ağdam-Xankəndi dəmiryol xətti istifadəyə verilmişdir. Heydər Əliyev 1979 və 1982-ci illərdə vilayətə səfərlər etmiş, 1982-ci il yanvarın 14-də Şuşada məşhur Azərbaycan şairi M.P.Vaqifin əzəmətli məqbərəsini açmış, həmin ilin avqustunda Vaqif poeziya günlərində iştirak etmişdi.

Heydər Əliyev bu dövrdə, Azərbaycanın sosial-iqtisadi və mədəni həyatının tərəqqisi ilə birgə, onun SSRİ-nin xarici siyasətinin həyata keçirilməsində rolunun artırılmasına da nail olmuşdur. Heydər Əliyevin SSRİ nümayəndə heyətlərinin tərkibində xarici səfərlərdə iştirakı və xarici partiya və dövlət xadimlərinin Azərbaycana səfərləri də bunu təsdiq edir.

Bu dövrün başlıca yekununa gəldikdə, Heydər Əliyev Yeni əsr və üçüncü minillik münasibətilə Azərbaycan xalqına müraciətində onu belə ifadə etmişdir: "Azərbaycanın müasir tarixində 1969-cu ildə dönüş mərhələsinin təməli qoyuldu. Respublikanın dinamik inkişafı üçün kompleks proqramların işlənib hazırlanmasında yorulmaz fəaliyyət, misilsiz təşəbbüskarlıq və nəhəng enerji bütün 70-ci illərin bariz əlamətinə çevrildi. 1970–1985-ci illər Azərbaycanın quruculuq salnaməsinə ən parlaq səhifələr kimi daxil olmuşdur. Baş verən dəyişikliklərin miqyasına, iqtisadi və sosial sahələrdə aparılan dərin struktur islahatların xarakterinə, xalqın maddi rifah halının keyfiyyətcə yeni mərhələyə keçirilməsinə görə doqquzuncu, onuncu və on birinci beşilliklər Azərbaycanın yeni tarixində ən mühüm yerləri tutur. SSRİ hökuməti Azərbaycanla əlaqədar, respublikada xalq təsərrüfatının hərtərəfli yüksəlişi və intensiv inkişafını nəzərdə tutan beş xüsusi qərar qəbul etmişdi. Azərbaycan xalqı üçün həqiqətən tarixi əhəmiyyət daşıyan bu mühüm qərarlar 70–80-ci illər arasında və daha sonrakı perspektivdə ölkənin sosial-iqtisadi inkişafının əsas istiqamətləri üzrə kompleks məsələləri müəyyənləşdirmişdi".

Bununla birgə, bir məsələni də qeyd etmək lazımdır. Heydər Əliyev böyük dövlət xadimi kimi həyatının hər bir dövrünü, o cümlədən bu dövrü də ideallaşdırmamış, ona obyektiv yanaşma nümunəsi göstərmişdir. O, müxbirin həmin dövrdəki səhvlər və yanlışlıqlar haqqında müraciətinə (3 avqust 1990-cı il) belə cavab vermişdir: "Bilirsiniz, işdə səhv olar. Əgər o vaxtın materialları ilə tanış olsanız, tam yəqin edərsiniz ki, biz heç bir səhvimizi, günahımızı gizlətməmişik, açıqca demişik, etiraf etmişik… Ancaq indi müəyyən vaxt keçəndən sonra, mən onları daha dəqiq, aydınlığı ilə görürəm. Əsas səhvlər kadrların seçilməsi və irəli çəkilməsində olub. Bu da ona görə yox ki, yararsız olduğunu bildiyim halda onu irəli çəkmişəm. Deməli, kadrların öyrənilməsi işi ilə məşğul olan adamlar mənə düzgün məlumat verməyiblər. Mən adamlara inanmışam, onları irəli çəkmişəm, müəyyən vaxtdan sonra onların iç üzü açılıbdır. Bax, bunları mən özümə səhv hesab edirəm".

Heydər Əliyevin 1969–1982-ci illərdəki hakimiyyətinin son dövründə Azərbaycan nəinki SSRİ-də, o cümlədən dünyada tanınan bir ölkəyə çevrildi, onun sovet dövlətinin sosial-iqtisadi həyatında rolu artdı. Heydər Əliyev qlobal düşüncələri, iti zəkası, ədalətlilik və humanizm uğrunda davamlı, sərt və prinsipial mübarizələri ilə tez bir zamanda bütün Sovetlər İttifaqında da böyük nüfuz sahibinə çevrildi.

Onun bu xidmətləri sovet dövləti tərəfindən də yüksək dəyərləndirilmişdir. Heydər Əliyevə Azərbaycana rəhbərliyinin onuncu ilində SSRİ Ali Soveti Rəyasət Heyətinin 24 avqust 1979-cu il tarixli fərmanı ilə "Lenin" ordeni və "Oraq və çəkic" qızıl medalı təqdim edilməklə Sosialist Əməyi Qəhrəmanı adı verilmişdir. Bu fərmanın ən diqqətəlayiq cəhətlərindən biri ondan ibarətdir ki, bu ad o zamankı təcrübəyə uyğun olaraq, şəxsi yubiley üçün deyil, məhz hakimiyyətinin yubileyinə uyğun verilmişdir. Bu, SSRİ tarixində çox nadir hadisələrdən idi. 1983-cü ildə isə ona ikinci dəfə Sosialist Əməyi Qəhrəmanı adı verilmiş, hələ sağlığında Naxçıvanda büstü qoyulmuşdur.

*(ardı var)*

***Kərim ŞÜKÜROV,***
***AMEA Tarix və Etnologiya İnstitutunun direktoru,***
***tarix elmləri doktoru, professor***

# Heydər Əliyev: Liderin zəka və qətiyyəti



## I MƏQALƏ

### Müstəqil dövlətçiliyin çətin zamanları

XX əsr, ümumiyyətlə, Azərbaycan üçün çox çətin keçmişdir. Əsrin əvvəllərindən erməni terroru havadarlarının böyük yardımı ilə Qərbi Azərbaycan da daxil olmaqla Azərbaycan coğrafiyasında olmazın zülmlər törətmişlər. Bu proses SSRİ dönəmində müəyyən fasilələrlə davam etdirilmişdir. 1988-ci ildə SSRİ-də daxili böhran kəskinləşəndə Azərbaycan qarşı təcavüzkarlıq da genişlənmişdir. 1991-ci ildə Azərbaycan müstəqilliyini bəyan edəndən sonra isə dost olmayan dairələr yeni şiddətlə dövlətçiliyimizə qarşı ədalətsiz savaşa başlamışlar. Artıq 1993-cü ilin əvvəllərinə aydın idi ki, Azərbaycan Respublikasının müstəqil olaraq mövcud olması ciddi təhdidlərlə üz-üzədir.

Tarixin bir qaydası var. Xalq ən çətin anlarda xilaskarını düzgün müəyyən edə bilirsə, müdrikdir. Azərbaycan xalqı bütün mürəkkəbliklərə, çətinliklərə, təzyiqlərə baxmayaraq, xilaskarını düzgün müəyyən etdi – təkidlə Heydər Əliyevin hakimiyyətə gəlişini tələb etdi.

Hər baxımdan çox çətin olan bir dönəmdə Heydər Əliyevin Azərbaycana rəhbərliyə gəlməsi böyük cəsarət tələb edən addım idi. Ölkəni faktiki olaraq məhv olmanın cəngindən qurtarmaq lazım idi. Həmin anda şəxsiyyət, siyasət və diplomatiya ön plana çıxmışdı. Lider yalnız güclü şəxsiyyət olmamalı idi, həm də təcrübəli siyasətçi və məharətli diplomat olmalı idi.

Lakin bu keyfiyyətləri həm göstərmək, həm də dünyanı ona inandırmaq başqa bir bacarıq tələb edirdi. Çünki keçən əsrin 90-cı illərinin əvvəllərində Azərbaycana qarşı dünyanın böyük dövlətləri olduqca qərəzli mövqe tutmuşdular və real olaraq təcavüzkarı dəstəkləyirdilər. Bunun üçün minbir bəhanə də gətirirdilər. Deməli, Azərbaycanın dövlət başçısı hər şeydən öncə lider kimi özünü təsdiq etməli idi. Reallıqda bunun nə qədər çətin bir vəzifə olduğunu anlamaq gərəkdir. Bu məsələnin iki aspekti mövcuddur.

### Liderliyin iki aspekti

Birincisi, Azərbaycan rəhbərinin lider kimi müasir mərhələdə qüdrətini qəbul etdirmək zəruri şərt idi. Çünki Heydər Əliyevdən öncə respublikaya rəhbərlik edənlərin səriştəsizliyini və iradəsizliyini xarici dövlətlər görmüşdülər. Onlara elə gəlirdi ki, ümumiyyətlə, Azərbaycanda qüdrətli və siyasi-diplomatik məharəti yüksək olan lider mövcud deyil. Ona görə də ilk olaraq bu sindromu sındırmaq lazım idi.

İkincisi, Azərbaycan liderinin gücünü nümayiş etdirmək, faktiki olaraq, realpolitikada müstəqil dövlət identikliyini uğurlu formalaşdırmaqla sıx bağlı olmalı idi. Çünki diplomatiya və siyasətdə məharətin əyani sübutu dövlətin sivil kimliyini (və ya identikliyini) konkret fəaliyyətlə göstərmək gərəkdi.

Belə alınır ki, Azərbaycan dövlətinin kimliyini beynəlxalq aləmdə təqdim etmək uğurlu liderliyin ilk ciddi fəaliyyət nümunəsi olmalıydı. Bu baxımdan 1994-1995-ci illəri dövlətçiliyin özünütəsdiqi aspektində, şərti olaraq, "keçid mərhələsi" adlandırmaq olar. Öz növbəsində "keçid mərhələsi"ni iki altmərhələyə ayırmaq mümkündür.

### 1994-cü ilin sonlarına qədər olan mərhələ

1994-cü il sentyabrın 29-da BMT Baş Məclisinin 49-cu sessiyasında çıxışında Ulu öndər Heydər Əliyev dünyaya Azərbaycanın dövlət identikliyinin baza parametrlərini bəyan etmişdir. Heydər Əliyev demişdi: "Bizim respublikamız qətiyyətlə hüquqi, demokratik, sivilizasiyalı dövlət quruculuğu yolunu tutmuşdur". Bu bəyanda ifadə edilən fikirlər, faktiki olaraq, ona işarə idi ki, birinci altmərhələdə Azərbaycan geniş beynəlxalq miqyasda çox güclü əks qüvvələrə özünün dövlət identikliyini qəbul etdirmək vəzifəsinin öhdəsindən gəlməli idi.

Bununla həm də müasir Azərbaycan dövlətçiliyi tarixində ciddi sınaq müddəti başlamış olurdu. Öncəki dönəmlərdən fərqli olaraq Heydər Əliyevin liderliyi ilə qarşısına ciddi məqsədlər qoymuş və müstəqil siyasət yeritməkdə qərarlı olan dövlət meydana çıxmışdı.

Onun təsdiqlərindən biri "Əsrin müqaviləsi"nin imzalanması idi. Bu müqavilə birbaşa Heydər Əliyevin liderlik əzmi, qətiyyəti və siyasi-diplomatik məharəti sayəsində baş tutmuşdu. Bunu dünyanın bütün böyük dövlətlərinin liderləri bilirdilər və həmin anlamda o hadisə həm də Ulu öndərin lider kimi özünütəsdiqinin mühüm faktı idi. Bununla Heydər Əliyev dünyaya göstərdi ki, Azərbaycan lideri ölkəyə, cəmiyyətə və dövlətə uğur gətirə biləcək başlıca qüvvədir. Bu, Azərbaycanda liderlik məktəbinin, ümumiyyətlə, dövlətin fəaliyyətində oynadığı rolun və yerin müasir mərhələdə təqdimatı idi.

### 1994-cü ilin sonları - 1995-ci il

1994-cü ilin sonlarından dövlət identikliyinin özünütəsdiqinin ikinci mərhələsi başlayır. Bu altmərhələ üçün xarakterik olan başlıca cəhət Azərbaycan liderinin əsas ilham mənbəyinin xalqın birliyi olduğunu nümayiş etdirməklə bağlıdır. Azərbaycan xalqının birliyi məsələsi sadə formula əsaslanmır. Azərbaycanlıların həmrəyliyinin özünəməxsus cəhətləri var və onlar sintez halında cəmiyyətin birliyini əmələ gətirirlər. Onlar azərbaycançılıq daxilində legitimləşən multikultural siyasət sayəsində əyaniləşir, sosial-mədəni praktikanın elementinə çevrilirlər.

Beləliklə, şərti olaraq keçid dövrü adlandırdığımız mərhələdə Heydər Əliyev çox mürəkkəb situasiyada və ziddiyyətli şərtlər daxilində Azərbaycan lideri kimi dövləti beynəlxalq miqyasda ləyaqətli təmsil etdi. Ümummilli lider dövlət identikliyinin başlıca parametrlərini - hüquqi, demokratik, sivilizasiyalı dövlət olmağı, BMT-nin yüksək tribunasından bəyan etdi!

Bu güclü diplomatik addımı ilə Heydər Əliyev həm də dünyanın ən güclü dövlətlərinə belə göstərdi ki, Azərbaycan Lideri milli və regional miqyasda geosiyasi vəziyyəti dəyişə bilər. Həmin hadisədən cəmi bir neçə il sonra xarici dairələr Gürcüstanda Bakı-Ceyhan neft ixracı marşrutunun reallaşmasında qondarma ekoloji problem çıxaranda Heydər Əliyev liderlik müdrikliyi ilə həmin əngəli aradan qaldırdı. Bakı-Ceyhanın neft strategiyası daxilində reallaşmasına şimal və cənubdan olan təhlükələri də eyni müdrikliklə neytrallaşdırdı və bunun sayəsində Azərbaycan tarixi bir gediş etdi.

Bütün bunlar göstərir ki, artıq 1995-ci ilə Ulu öndər Heydər Əliyev müasir Azərbaycan Respublikasının identikliyini demokratik, hüquqi, sülhsevər, ədalətli və dünyanın hər bir guşəsində separatçılıqla terrorizmə qarşı duran müstəqil milli dövlət kimi müəyyən etmişdir. Bu, həmin dönəmin ən böyük siyasi-diplomatik uğurlarından biri idi.

### Beynəlxalq hüquq, ədalət və humanizmə əsaslanan sülh

Ümummilli lider müstəqil Azərbaycanın dövlət kimliyini daha geniş miqyasda müəyyən etdiyini 1994-1995-ci illərdə BMT-dəki çıxışlarında göstərmişdir. Onların sırasında strateji əhəmiyyəti böyük olan bir tezis indi də olduqca aktualdır. Heydər Əliyev 1994-cü ilin payızında BMT-dəki çıxışında ayrıca vurğulamışdı: "Bizə vurulmuş bütün ziyanlara baxmayaraq, biz beynəlxalq hüquq, ədalət və humanizm əsasında erməni tərəfinə sülh təklif edirik".

Sonrakı təcrübə göstərəcəkdi ki, reallıqda bu fikir Avrasiya məkanında dövlət sülhsevərliyinin mükəmməl konsepsiyasının baş tezisidir! İlk dəfə olaraq Heydər Əliyev müstəqil dövlətin real surətdə sülhsevərliyinin paradiqmasını yaratmışdır. Burada ziddiyyətli və mürəkkəb məqamlar çoxdur.

Bundan başqa, sözdə sülhsevərlikdən danışan liderlər az deyillər. Lakin gerçəkdən dövlətin sülhsevərliyi xüsusi konseptual yanaşma və praktiki fəaliyyət tələb edir. Heydər Əliyevin həmin fikri 1994-cü ildə ifadə etdi və sonradan o, Azərbaycanın dövlət kimi fəaliyyətində təsdiqini tamamilə tapdı! Məsələnin güclü və ibrətamiz tərəfi bundan ibarətdir.

### Dövlət identikliyinin sivilizasiya konteksti

Buradan Ulu öndər müstəqil dövlətin kimliyinin sivilizasiya səviyyəsində müəyyən edilməsinə olduqca maraqlı çıxış etmişdir. Etiraf edək ki, buna bənzər addım Avrasiya məkanında yoxdur. 1994-cü il BMT Baş Məclisinin 49-cu sessiyasında Heydər Əliyev bəyan etmişdir: "Şərq və Qərb sivilizasiyasını vəhdət halında birləşdirən ölkəmizin coğrafi mövqeyindən, sosial-siyasi yönümündən və tarixi-mədəni ənənələrindən irəli gələn xüsusiyyətlər beynəlxalq münasibətlər sistemində mənim respublikamın roluna və yerinə səciyyəvi təsir göstərir. Məhz oz xüsusiyyətlərimizi başa düşərək və dəyişkiliklərin irəli sürdüyü tələbləri nəzərə alaraq biz addım-addım irəliləyərək xarici dünya ilə əməkdaşlıq binasını ucaldırıq".

Belə alınır ki, Azərbaycan Respublikasının dövlət identikliyi milli-mədəni özəlliyə əsaslanan çoxkomponentli fenomendir. Ümummilli lider açıq surətdə ifadə etmişdir ki, müasir Azərbaycanın dövlət kimliyinin formalaşması birbaşa milli özünüdərkə, tarixinin başlıca xüsusiyyətlərinə, mədəniyyətə, sivilizasiyalar arasında oynadığı tarixi rola, beynəlxalq hüquqa, ədalətə və müasir geosiyasi gerçəkliyə əsaslanmışdır.

Sivilizasiya konteksti birbaşa dövlətin sülhsevərliyinə yol açır. Heydər Əliyevin arqumentləri çox inandırıcı və realdır.

Birincisi, Azərbaycan tarixən Şərq və Qərb sivilizasiyasını vəhdət halında birləşdirmişdir. Buna həm coğrafi mövqeyi, həm də ölkə olaraq dövlətqurma fəlsəfəsi sayəsində nail olmuşdur.

Məlumdur ki, Qərbin tanınmış strateqləri Azərbaycanı Şərqlə Qərb arasında perspektivli geosiyasi körpü adlandırmışlar. Heydər Əliyev isə məsələyə daha dərindən və tarixi əsasla yanaşır. Ulu öndər göstərir ki, məsələ yalnız geosiyasətdə deyil, ümumiyyətlə, Azərbaycan bir ideya, ölkə, dövlət və cəmiyyət olaraq dünyanın iki böyük sivilizasiyasını birləşdirən məkandır. Bu keyfiyyətdə onun mədəni, mənəvi, əxlaqi, iqtisadi, siyasi və ideoloji potensialı çox genişdir.

Eyni zamanda, Azərbaycan tarixən bu funksiyanı yerinə yetirdiyindən artıq zəngin təcrübəyə malikdir. Deməli, indiki tarixi mərhələdə Azərbaycan Respublikasının sivilizasiyaları birləşdirə bilən güc olması tamamilə realdır.

İkincisi, müasir mərhələdə Azərbaycanın "sosial-siyasi yönümündən və tarixi-mədəni ənənələrindən irəli gələn xüsusiyyətlər beynəlxalq münasibətlər sistemində" onun "roluna və yerinə səciyyəvi təsir göstərir".

Üçüncüsü, Azərbaycan öz xüsusiyyətlərini dərindən dərk edərək və eyni zamanda, müasir dövrdə baş verən dəyişikliklərin irəli sürdüyü tələbləri nəzərə alaraq, addım-addım irəliləyir və "xarici dünya ilə əməkdaşlıq binasını" ucaldır.

*(ardı var)*

***Füzuli QURBANOV,***
***XQ-nin analitiki,***
***fəlsəfə elmləri doktoru***



# Ali sevgini sonzuz kədərlə qovuşduran əbədiyyət nəğməsi

**Ümummilli lider Heydər Əliyev və Prezident İlham Əliyev haqqında 2021-ci ildə çap etdirdiyim "Xilaskarlar" kitabımın üzərində yenidən işləyəndə bu iki dahi şəxsiyyətin Vətən qarşısında misilsiz xidmətlərini, xalqın xilaskarı məqamına yüksəldiklərini dərindən dərk edən elm və qələm sahiblərinin əsərlərini bir daha nəzərdən keçirməyə ehtiyac duydum.**

Vərəqlədiyim kitablar arasında Xalq şairi Zəlimxan Yaqubun şah əsəri hesab etdiyim "Əbədiyyət dastanı" poeması daha çox diqqətimi çəkdi. "Əbədiyyət dastanı" keçmişin mizan-tərəzisi ilə ölçsək, uzaqgörənliyi, müdrikliyi, ağlı-zəkası, dünyanın gedişatını öncədən görə bilməyi ilə (qədimdə dövləti ağılla idarə edən hökmdarlar peyğəmbər adlandırılırmış) peyğəmbər timsallı Heydər Əliyevin əziz xatirəsinə ithaf olunub.

Tarixi şəxsiyyətlər haqqında yazmaq nə qədər şərəfli iş olsa da, o qədər də çətin və məsuliyyətlidir. Azərbaycan tarixində bir epoxa olan, misilsiz xidmətlərinə görə xalqın xatirəsində əbədilik qazanan, onun qürur və güvənc yerinə çevrilən dahi şəxsiyyət Heydər Əliyevə əsər həsr etmək daha böyük məsuliyyət və istedad tələb edir. Zəlimxan Yaqubun bədii sözün intəhasız imkanlarından məharətlə istifadə edərək Azərbaycan salnaməsində qızıl hərflərlə yazılmış bu bənzərsiz tarixi şəxsiyyətə həsr etdiyi möhtəşəm "Əbədiyyət dastanı" poeması qəlblərə alov saçan ali kədərin və ali sevginin zirvəsindən Ulu öndərin əziz xatirəsinə oxunan elegiyadır.

Onu da deyim ki, Ulu öndəri 2003-cü il dekabrın 15-də son mənzilə yola salanda qulaqlarımda alban şairi Dəvdəkin 1322 il əvvəl Albaniya hökmdarı Cavanşirin qətlə yetirilməsinə ithaf etdiyi elegiyasından aşağıdakı misralar səsləndi:

***O, bizim üçün həqiqət dünyasının***
***işığı idi,***
***İlhamverici, sükançı idi — coşqun***
***dalğaları ram edərdi.***
***Uzun illər görməmişdik bu cür kədər,***
***bu cür bəla.***

Dəvdək, sanki, bu misrada ümummilli lider Heydər Əliyevə ümumxalq kədərini poetikləşdirmişdir.

"Əbədiyyət dastanı"nı da həyəcansız oxumaq olmur. Poemadan əxz etdiyim başlıca qənaət odur ki, Heydər Əliyev kimi tarixi şəxsiyyətlər dünyalarını dəyişdikdən sonra da, onların fikir və ideyaları yaşayır, aktuallığını itirmir, bütün zamanlar üçün gərəkli olurlar.

"Əbədiyyət dastanı" ali kədər və sevgidən yaranıb:

***Xalqı zirvələrə qaldırmaq üçün***
***Sevgi şahlığının taxtına çıxdın.***
***Oğul xalq üçündür, zirvə dağ üçün***
***Nə yaxşı ki, xalqın bəxtinə çıxdın.***

Şairin mənalandırdığı ali kədər və ali sevgi real həyat hadisəsi ilə bağlıdır. Bu isə Zəlimxanın bir sənətkar kimi həyat həqiqətlərinə sadiqliyindən xəbər verir:

***Sazın sinəsi yandı, muğamat xal itirdi,***
***Bülbüllər yaşıl çəmən, çiçəklər bal itirdi.***
***Qaya xınalı kəklik, zirvə qartal itirdi, –***
***"Heydər köçdü"– deyəndə.***

Zəlimxan Yaqubun hər sözü, hər misrası fikir dərinliyi Ulu öndərə sonsuz məhəbbətin göstəricisidir:

***Bəd xəbəri deyəndə insanlar fağır olur,***
***Bir sözün ağırlığı min dağdan ağır olur.***

Şair-publisist Əli Rza Xələfli "Ölməzlik nəğməsi" əsərində bu münasibətlə yazır ki, Zəlimxan poeziyasındakı çoxqatlılıq, daha dərinliklərdəki məna tutumu, nisbətən üzdəki mənalarla zəncirvari bağlıdır. Qəfil xəbər, doğrudan da, ildırım kimi çaxır. Ağır xəbər öz dəhşəti ilə o qədər miqyaslı olur ki, onu ilk anda qavramaq, soyuqqanlı qarşılamaq mümkün olmur.

Qəfil xəbər öz dəhşəti ilə şairi dərindən-dərinə sarsıdır.

Şairin göz yaşları ilə yazdığı möhtəşəm "Əbədiyyət dastanı" Azərbaycan tarixində epoxa olan, misilsiz xidmətlərinə görə xalqın xatirəsində əbədilik qazanan, onun qürur və güvənc yerinə çevrilən dahi şəxsiyyət Heydər Əliyevə kədər dağının zirvəsindən oxunan elegiyadır:

***Mən belə ağlamışam qanlı fələk ilk dəfə***
***Ürəyimi qıranda.***
***Yetim qalıb atamı torpağa tapşıranda.***

Ali kədərin zirvəsində dayanan şair onun ümumxalq kədəri olduğunu dərindən dərk etmiş, bu kədərin, bu sevginin sonsuzluğunu inanılmaz ürək çırpıntıları ilə vəsf edə bilmişdir. Şairin "Əbədiyyət dastanı" poemasına yazdığı giriş məqaləsi də Ümummilli liderimizə layiq məntiqi fikirlərlə zəngindir: "Ölümünə heç vaxt inanmadığım, ölümsüzlüyü ilə ömrüm boyu öyünəcəyim bir şəxsiyyətlə bağlı üstümüzü alan, qapımızı qəfil döyən qara xəbər hamı kimi məni də dərindən-dərinə sarsıtdı. Bu sarsıntılar içində əlimə nə vaxt qələm aldığımdan heç özümün də xəbərim olmadı. O vaxt özümə gəldim ki, artıq sonuncu misranı yazıb, son hissəni tamamlamışam".

Deyilənləri möhtəşəm "Əbədiyyət dastanı" poemasının son misraları da təsdiqləyir:

***Həsrətini çəkəcəyəm illər boyu,***
***Kövrək qəlbim oyum-oyum oyulacaq.***
***Eşqin ilə yaratdığım bu dastanın***
***Son nöqtəsi mən öləndə qoyulacaq.***

"Əbədiyyət dastanı"nı bir daha oxudum və dərk etdim ki, Ulu öndərimizin ölməz irsi kimi, bu poema da əbədi yaşayacaq.

***Qəzənfər PAŞAYEV,***
***Əməkdar elm xadimi,***
***filologiya elmləri doktoru,***
***professor***

# Azərbaycan və Laos arasında ilk siyasi məsləhətləşmə

**Dekabrın 8-9-da Azərbaycan xarici işlər nazirinin müavini Elnur Məmmədovun başçılıq etdiyi nümayəndə heyəti Laos Xalq Demokratik Respublikasında səfərdə olub.**

Səfər zamanı Azərbaycan və Laos Xarici İşlər nazirlikləri arasında xarici işlər nazirinin müavini Elnur Məmmədov və Laosun xarici işlər nazirinin müavini Maytonq Tammavonqsanın həmsədrliyi ilə ilk siyasi məsləhətləşmələr keçirilib. İclas zamanı iki ölkə arasında münasibətlərin hazırkı durumu, siyasi, iqtisadi, humanitar və digər sahələrdə əməkdaşlığın genişləndirilməsi və inkişafı perspektivləri ətrafında müzakirələr aparılıb.

Səfər zamanı Azərbaycan nümayəndə heyətinin rəhbəri Laos Milli Assambleyasının vitse-prezidenti Sunthon Saynyachak və Laosun xarici işlər naziri Sonqsavan Fomvihon ilə görüşlər keçirib.

# Leyla Əliyeva Türkmənistanda





**Dekabrın 9-da Türkmənistanın Türkmənbaşı şəhərində Qurbanqulu Berdiməhəmmədov adına Qayğıya ehtiyacı olan uşaqlara yardım üzrə xeyriyyə Fondunun Avaza filialının açılışı olub.**

Açılış mərasimində Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva və Qurbanqulu Berdiməhəmmədov adına Qayğıya ehtiyacı olan uşaqlara yardım üzrə xeyriyyə Fondunun tibb sahəsi üzrə vitse-prezidenti Oğulcahan Atabayeva iştirak ediblər.

Tədbirdə çıxış edən Oğulcahan Atabayeva Qurbanqulu Berdiməhəmmədovun təşəbbüsü ilə yaradılan Fondun irimiqyaslı və səmərəli iş apardığını diqqətə çatdırıb. “Fondun yaradılması hər bir vətəndaşa xeyriyyəçilik fəaliyyətində iştirak etməyə şərait yaratdı. Onun köməyi ilə yüzlərlə çətin tibbi əməliyyatlar olunub və bir sıra tibb müəssisələri müasir avadanlıqlarla təmin edilib”, - deyə o bildirib.

Uşaqlara qayğının dövlət siyasətinin prioritet məsələlərdən biri olduğunu deyən Oğulcahan Atabayeva filialda uşaqlara yüksəkkeyfiyyətli tibbi yardım xidmətindən əlavə, həmçinin onların istirahəti və reabilitasiyası üçün də şərait yaradıldığını diqqətə çatdırıb.

Qeyd edək ki, Berdiməhəmmədov adına Qayğıya ehtiyacı olan uşaqlara yardım üzrə xeyriyyə Fondu 2021-ci ildə yaradılıb. Qurumun əsas məqsədi gənc nəslə dəstək olmaq, onların yaşayışı üçün münbit şərait yaratmaq, qayğıya ehtiyacı olan uşaqların sağlamlığının bərpasına kömək etməkdir. BMT-nin Uşaq Fondu UNICEF ilə əməkdaşlıq edən xeyriyyə Fondu tərəfindən bu günə qədər Türkiyə, Ukrayna, Rusiya, Əfqanıstan, Tacikistan və Fələstində fövqəladə və təbii fəlakətlərdən zərər çəkmiş uşaqlara humanitar yardımlar da göndərilib.





XQ

## Türkmənistan milli mətbəxinə həsr olunan sərgi



**Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva Türkmənistana səfəri çərçivəsində dekabrın 9-da Türkmənbaşı şəhərində “Galkynysh” Milli At Oyunları Qrupunun təqdimatını izləyib və Türkmənistan milli mətbəxinə həsr olunan sərgidə iştirak edib.**

Türkmənistanın qədim atçılıq ənənələrini, milli mədəniyyətini və folklorunu qoruyan “Galkynysh” Milli At Oyunları Qrupu çıxışı zamanı qonaqlara zəngin mədəni irsi nümayiş etdirib.

Nümayişdən sonra Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva Türkmənistanın milli mətbəxinə həsr olunan sərgi ilə tanış olub.

Qonaqlara Türkmənistan mətbəxinin ənənələri barədə ətraflı məlumat verilib. Tədbir musiqi tamaşaları və rəqs qruplarının nömrələri ilə müşayiət olunub.

XQ



## İƏT Mədəniyyət Festivalı çərçivəsində Qadınların Yaradıcı Forumu









**Bakıda Heydər Əliyev Fondunun tərəfdaşlığı, Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi, İslam Əməkdaşlıq Təşkilatının təşkilatçılığı ilə davam edən “İƏT Mədəniyyət Festivalı: Bakı Yaradıcı Həftə-2025” çərçivəsində Qadınların Yaradıcı Forumu keçirilib. Forum Azərbaycanın Mədəniyyət Nazirliyi, İslam Əməkdaşlıq Təşkilatının Qadınların İnkişafı Təşkilatı, Azərbaycanda Qadın Sahibkarlığının İnkişafı Assosiasiyası və Yaradıcı Azərbaycan platformasının birgə təşkilatçılığı ilə baş tutub.**

Forumda Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva, “KADEM” Vəqfi Qəyyumlar Şurasının sədri Sümeyye Erdoğan Bayraktar, WDO-nun baş direktoru Afnan Al-Shuaibi, eləcə də Qazaxıstan, Bəhreyn və Özbəkistandan olan qadın innovatorlar və sahibkarlar iştirak ediblər.

Afnan Al-Shuaibi forum təşkilatçılarına təşəkkürünü bildirib. Qadınların bilikəsaslı cəmiyyətin formalaşmasında mühüm rol oynadığına diqqət çəkib: “Bu, inkişafın və tərəqqinin göstəricisidir. Bizim əsas missiyamız qadınlara öz potensiallarını kəşf etməyə və reallaşdırmağa imkan yaratmaqdır. Qadınlar həm sahibkar, həm də mədəni innovator kimi cəmiyyətin inkişafına böyük töhfə verirlər”.

Sümeyye Erdoğan Bayraktar qeyd edib ki, qadın yaradıcı sahələrə sonradan qatılan bir iştirakçı deyil, əslən bu sahənin kökündür, mahiyyətidir. “Qadının yaratdığı dəyərlər nəsildən-nəslə ötürülür. Azərbaycanın xalçaçılıq sənəti bunun ən gözəl nümunələrindəndir. Eyni şəkildə İznik və Kütahya çiniləri və digər sənət məktəbləri də qadının yaradıcı ruhu, sənətkarlıq bacarığı və estetik zövqü ilə formalaşıb”, - deyə o əlavə edib.

Azərbaycanda Qadın Sahibkarlığının İnkişafı Assosiasiyasının İdarə Heyətinin sədri Səkinə Babayeva isə forumun qadınların yaradıcılıq sahəsindəki imkanlarını və gələcək perspektivlərini müzakirə etmək üçün ideal platforma olduğunu deyib: “Bu istiqamətdə Azərbaycanda göstərilən dövlət dəstəyi olduqca əhəmiyyətlidir və təqdir olunmalıdır. Forumun əsas məqsədi mövcud boşluqları müəyyənləşdirmək, həmçinin İƏT ölkələri arasında bu sahədə əməkdaşlığı daha da gücləndirməkdir”.

Forumun açılışından sonra Mövlanə Cəlaləddin Ruminin “Zaman dairəsindən çıx – Sevgi dairəsinə daxil ol” kəlamı üzərində qurulan konseptual vizual kompozisiya nümayiş etdirilib. Layihənin illüstrativ hissəsi rəssam Leyla Əliyevanın əsərləri əsasında təqdim edilib. Vizual konsepsiyanın müəllifi Əməkdar artist Səbinə Şıxlinskaya, musiqi tərtibatçısı isə Orxan Ağayevdir.

XQ

# Anlaşma memorandumu imzalanıb



**Dekabrın 9-da Heydər Əliyev Fondu ilə Qurbanqulu Berdiməhəmmədov adına Qayğıya ehtiyacı olan uşaqlara yardım üzrə xeyriyyə Fondu arasında anlaşma memorandumu imzalanıb.**

Memorandumu Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva və Qurbanqulu Berdiməhəmmədov adına Qayğıya ehtiyacı olan uşaqlara yardım üzrə xeyriyyə Fondunun tibb sahəsi üzrə vitse-prezidenti Oğulcahan Atabayeva imzalayıblar.

Qeyd olunub ki, uzunmüddətli və səmərəli əməkdaşlığın təməlini qoyan sənəd, eyni zamanda, müxtəlif sahələrdə gələcək birgə layihələrin həyata keçirilməsinə yönəlib.

Sənədlə təsbit olunmuş hədəflər tərəflərin gələcəkdə birgə səmərəli fəaliyyətinə imkan yaradacaq.

Görüş zamanı sosial və təhsil sahələrində əməkdaşlıq, eyni zamanda, mədəniyyət və incəsənət üzrə layihələrin əhəmiyyəti vurğulanıb.

Görüşdə Heydər Əliyev Fondunun və IDEA İctimai Birliyinin təşkilatçılığı ilə reallaşan MAMA “Ana təbiət” beynəlxalq incəsənət sərgisinin iqlim dəyişiklikləri üzrə mesajı dünyaya yaymaq məqsədilə bir sıra ölkələrdə uğurla sərgiləndiyi diqqətə çatdırılıb.

Hazırda sərginin Türkmənistanda da nümayiş olunması məsələsi üzərində əməkdaşlıq edildiyi bildirilib. Qeyd olunub ki, bu beynəlxalq layihə mədəni mübadilə və ətraf mühitin qorunması mövzusuna diqqət çəkmək üçün vacib bir platforma olacaq.



XQ

# “Qara qızılın sirri” kitabının təqdimatı





**Bakı Kitab Mərkəzində SOCAR-ın dəstəyi ilə hazırlanmış “Qara qızılın sirri” adlı kitabın təqdimatı keçirilib.**

Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın fəxri qonaq qismində iştirak etdiyi tədbirdə ilk öncə şəhid və Vətən müharibəsi veteranlarının övladları üçün qısa tur təşkil edilib.

Daha sonra 3 nömrəli Uşaq-Gənclər İnkişaf Mərkəzinin vokal dərnəyinin üzvləri Tofiq Quliyevin “Dostluq mahnısı”nı ifa edib, həmçinin “Sənət” incəsənət mərkəzinin bədii qrupu “Dəniz” rəqsini təqdim edib.

Bakı Kitab Mərkəzinin direktoru Günel Anarqızı, SOCAR-ın Kommunikasiya məsələləri üzrə icraçı direktoru Aygün Hüseynova və kitabın müəllifi, Əməkdar artist Bəhram Bağırzadə qonaqları salamlayaraq, Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevaya tədbirdə iştirakına və göstərdiyi diqqətə görə təşəkkürlərini bildiriblər. Çıxış edənlər “Qara qızılın sirri” kitabı barədə fikirlərini bölüşərək, Azərbaycanın neft tarixindən bəhs edən nəşrin əhəmiyyətini qeyd ediblər.

Tədbirdə, həmçinin şəhid ailələrinin və Vətən müharibəsi iştirakçılarının dövlətimiz tərəfindən xüsusi qayğı ilə əhatə olunduqları diqqətə çatdırılıb. Tarixi zəfərlərimizin memarı, Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevə və rəşadətli Ordumuza minnətdarlıq ifadə edilib. Heydər Əliyev Fondu tərəfindən şəhid ailələrinə və müharibə veteranlarına göstərilən davamlı diqqət xüsusi vurğulanaraq Fondun vitse-prezidenti Leyla Əliyevanın bu kimi layihələrdə şəxsən iştirakının tədbirləri daha da əlamətdar etdiyi bildirilib.

Təqdimatın “Oxu saatı” hissəsində SOCAR könüllüləri tərəfindən uşaqlara “Qara qızılın sirri” kitabından parçalar səsləndirilib. Tədbir çərçivəsində kitabın müəllifi Bəhram Bağırzadə uşaqlar üçün xüsusi imzalama sessiyası keçirib.

Sonda uşaqlara hədiyyələr təqdim olunub.

# Eqmont Qrupunun iclası Bakıda keçiriləcək

**Dekabrın 9-da Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına, terrorçuluğun maliyyələşdirilməsinə, kütləvi qırğın silahlarının yayılmasına və yayılmasının maliyyələşdirilməsinə qarşı mübarizə sahəsində Koordinasiya Şurasının (Koordinasiya Şurası) növbəti iclası keçirilib.**

Koordinasiya Şurasının sədri Samir Şərifov dünya ölkələrinin Maliyyə Kəşfiyyatı Orqanlarının Eqmont Qrupunun 32-ci plenar iclasının 2026-cı ildə Bakı şəhərində keçirilməsinə dair qərarını ölkəmizin beynəlxalq müstəvidə artan nüfuzunun daha bir bariz göstəricisi olduğunu qeyd edib.

Diqqətə çatdırılıb ki, tədbirin ölkəmizdə layiqli və yüksək səviyyədə keçirilməsi ilə bağlı müvafiq təşkilati-hazırlıq işlərinin həyata keçirilməsi üçün aidiyyəti dövlət qurumlarının fəaliyyətinin əlaqələndirilməsi Koordinasiya Şurasına həvalə olunub.

Koordinasiya Şurasının üzvləri və Şura iclasına dəvət olunmuş bir sıra dövlət orqanlarının nümayəndələri tərəfindən Eqmont Qrupunun 32-ci plenar iclasının keçirilməsinə dair məsələlərin ətraflı müzakirəsinin yekunu olaraq İş Planı təsdiq edilib.

İclasda, həmçinin Maliyyə Monitorinqi Xidməti İdarə Heyətinin sədri Zaur Fətizadə Avropa Şurasının MONEYVAL Komitəsinə təqdim edilmiş tərəqqi hesabatı barədə məlumat verib. O bildirib ki, Azərbaycan Respublikasının cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə sisteminin FATF standartlarına uyğunlaşdırılması sahəsində mühüm irəliləyiş əldə edilib. Bu çərçivədə FATF-ın 7 tövsiyəsi üzrə ölkəmizin reytinqinin qaldırılması gözlənilir.

Bundan əlavə, iclasda ölkədə cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılması, terrorçuluğun maliyyələşdirilməsi və kütləvi qırğın silahlarının yayılmasının qarşısının alınması ilə bağlı digər məsələlər də müzakirə edilib.

Xatırladaq ki, Eqmont Qrupu çirkli pulların yuyulması və terrorizmin maliyyələşdirilməsinə qarşı mübarizə sahəsində milli maliyyə kəşfiyyatı qurumlarının fəaliyyətinə və aralarında qarşılıqlı məlumat mübadiləsinə dəstək vermək məqsədilə 1995-ci ildə təsis edilib. Ölkəmiz isə 2011-ci ildə tamhüquqlu üzv qismində bu qrupa qoşulub.

***XQ***

**Xuntaçıların məhkəməsi**

# Qanlı cinayətlər sübuta yetirilir

**Azərbaycan Respublikası Cinayət Məcəlləsinin sülh və insanlıq əleyhinə cinayətlər, müharibə cinayətləri, habelə terrorçuluq, terrorçuluğu maliyyələşdirmə ilə bağlı maddələri ilə və digər ağır cinayətlərdə təqsirləndirilən Ermənistan vətəndaşı Ruben Vardanyanın barəsində cinayət işi üzrə məhkəmə prosesi dekabrın 9-da davam etdirilib.**



Bakı Hərbi Məhkəməsində hakimlər Zeynal Ağayevin sədrliyi ilə keçirilən açıq məhkəmə iclasında təqsirləndirilən şəxs bildiyi dildə, yəni, rus dilində tərcüməçi, habelə müdafiəsi üçün dövlət hesabına vəkillə təmin olunub.

Hakim Zeynal Ağayev prosesdə ilk dəfə iştirak edən zərərçəkmiş şəxslərə və zərərçəkmiş şəxslərin hüquqi varislərinə məhkəmə heyətini, dövlət ittihamını müdafiə edən prokurorları, tərcüməçiləri və s. təqdim edib.

Sonra zərərçəkmiş şəxslərin ifadələri dinlənilib.

Zərərçəkmiş şəxsin nümayəndəsi Azər Manafov ifadəsində bildirib ki, Ermənistanın mina terroru nəticəsində zərər çəkib. O, dövlət ittihamçısı Vüsal Abdullayevin suallarına cavabında baş vermiş mina partlayışı nəticəsində hadisə yerində olan bir neçə nəfərin yaralandığını, Cavid İsmayılovun isə həlak olduğunu deyib.

Dövlət ittihamçısı Təranə Məmmədovanın suallarını cavablandıran zərərçəkmiş şəxs Yadulla Abuşov diqqətə çatdırıb ki, Kəlbəcər rayonu ərazisində düşmən tərəfindən minaatanlar və digər silahlardan açılan atəşlər nəticəsində bir neçə şəxs həlak olub, özü və daha bir neçə şəxs isə yaralanıb.

Zərərçəkmiş şəxs Sahil Salahov ifadəsində bildirib ki, Xocavənd rayonu ərazisində Ermənistan ordusunun qalıqları və qanunsuz erməni silahlı dəstələri tərəfindən atılan mərminin yaxınlığına düşüb partlaması nəticəsində yaralanıb. Baş Prokurorluğun Dövlət ittihamının müdafiəsi üzrə idarəsinin şöbə rəisi Nəsir Bayramovun suallarını cavablandıran zərərçəkmiş şəxs qeyd edib ki, hadisə nəticəsində bir neçə şəxs həlak olub.

Məhkəmə prosesi digər zərərçəkmiş şəxslərin ifadələrinin elan olunması ilə davam etdirilib.

İclasda, həmçinin cinayət işi materiallarında olan ekspertiza rəyləri, protokollar və iş üzrə sübuti əhəmiyyət kəsb edən digər sənədlər elan olunub.

Sonra məhkəməyə sədrlik edən bildirib ki, bununla da cinayət işi üzrə zərərçəkmiş şəxslərin və zərərçəkmişlərin hüquqi varislərinin ibtidai istintaq zamanı verdikləri ifadələrinin məhkəmədə elan edilməklə tədqiqi başa çatıb.

Təqsirləndirilən şəxs Ruben Vardanyan vəsatətlə çıxış edərək, cinayət işi ilə bağlı bəzi sənədlərlə tanış olmaq istədiyini bildirib, eləcə də bəzi sənədlərin cinayət işindən xaric olunmasını xahiş edib.

Məhkəməyə sədrlik edən Zeynal Ağayev təqsirləndirilən şəxsin konkret hansı sənədlərlə tanış olmaq istədiyi müəyyənləşdirildikdən sonra ona müvafiq şərait yaradılacağını bildirib.

Baş prokurorun böyük köməkçisi Vüsal Əliyev məhkəməyə müraciət edərək cinayət işi üzrə digər zəruri sənədlərin də tədqiq olunmasını təklif edib.

Məhkəmənin növbəti iclası dekabrın 12-nə təyin edilib.

***XQ***

# Azərbaycan–NATO: Hərbi təhlükəsizlikdən strateji tərəfdaşlığa



**Azərbaycanın müdafiə naziri Zakir Həsənovun NATO Avropa Ali Müttəfiq Qüvvələr Komandanlığının Qərargah rəisinin müavini Yusuf Karagüllenin rəhbərlik etdiyi nümayəndə heyəti ilə keçirdiyi görüş bir daha göstərir ki, ölkəmizin müdafiə və təhlükəsizlik sahəsində beynəlxalq əməkdaşlıq siyasəti ardıcıl və məqsədyönlü şəkildə inkişaf etdirilir.**

Bu cür yüksək səviyyəli görüşlər Azərbaycan–NATO tərəfdaşlığının real məzmununu, çoxtərəfli əməkdaşlığın dinamikasını və gələcək perspektivlərini göstərir. Müzakirələr zamanı NATO-ya üzv dövlətlərlə əlaqələrin daha səmərəli qurulması, Azərbaycan Silahlı Qüvvələrinin peşəkarlığının artırılması, regionda təhlükəsizlik mühitinin təkmilləşdirilməsi kimi məsələlər xüsusi diqqət mərkəzində olub.

Ümumən, Azərbaycanın NATO ilə əməkdaşlığının miqyasını əks etdirən statistik göstəricilər bu sahədə əldə olunan nəticələrin təsadüf olmadığını sübuta yetirir. Belə ki, Azərbaycan Silahlı Qüvvələrinin 250-dən çox nümayəndəsi xaricdə keçirilən 146 beynəlxalq tədbirdə iştirak edib. Həmçinin, 395 hərbi qulluqçu “Sülh Naminə Tərəfdaşlıq” proqramı çərçivəsində ölkə daxilində təşkil olunan 33 tədbirdə yer alıb. Rəqəmlər göstərir ki, Azərbaycan ordusu həm beynəlxalq təcrübənin mənimsənilməsinə, həm də öz peşəkarlığının nümayişinə xüsusi önəm verir.

Azərbaycan–NATO əlaqələrinin əsas istiqamətlərindən biri də hərbi təhsilin modernləşdirilməsi, zabit və gizir heyətinin hazırlıq səviyyəsinin artırılmasıdır. Hərbi tədris müəssisələrində NATO standartlarına uyğun proqramların tətbiqi, ingilis dilinin təkmilləşdirilməsi, müasir e-learning platformalarının istifadəsi və xüsusilə əməliyyat planlaşdırma üzrə kurslar Azərbaycan Ordusunun bilik və bacarıqlarının beynəlxalq standartlara uyğunlaşdırılmasına əsas yaradır. Bununla yanaşı, NATO təlimləri yalnız texniki və taktiki biliklərin artırılmasına deyil, həm də liderlik, qərarvermə, strateji idarəetmə kimi sahələrin inkişafına xidmət edir.

Qətiyyətlə deyə bilərik ki, 2025-ci ilin noyabr ayında NATO ilə akademik mübadilə proqramlarının genişləndirilməsi, tədris materiallarının yenilənməsi və hərbi akademiyalarda beynəlxalq standartlara uyğunlaşdırılmış təhsil modelinin qurulması ilə bağlı təşəbbüslər Azərbaycan Silahlı Qüvvələrinin hərbi elitasının hazırlanmasında yeni mərhələyə keçidi təmin edəcək. Bu proqramların tətbiqi ordunun strateji planlaşdırma, əməliyyat rəhbərliyi, logistika və analitik qiymətləndirmə kimi sahələrdə peşəkarlığını daha da artıracaq.

Prezident İlham Əliyevin dəfələrlə qeyd etdiyi kimi, Azərbaycan Ordusunun NATO standartlarına uyğunlaşdırılması dövlətin hərbi modernizasiya strategiyasının əsas hədəflərindən biridir. Bu istiqamətdə Türkiyə ilə aparılan birgə islahatlar xüsusi rol oynayır. Nəzərə alaq ki, Türkiyə Silahlı Qüvvələrinin təcrübəsinə əsaslanan modellər, NATO-nun illər ərzində formalaşdırdığı konsepsiyalar və əməliyyat standartları ilə harmoniyada həyata keçirilən islahatlar nəticəsində Azərbaycan Ordusu həm təşkilati, həm də əməliyyat baxımından yeni mərhələyə qədəm qoyub. İdarəetmə sistemlərinin yenilənməsi, komanda-nəzarət strukturlarının təkmilləşdirilməsi, müasir əməliyyat planlaşdırma metodologiyasının tətbiqi, eləcə də qoşunların qarşılıqlı əlaqə və koordinasiya imkanlarının genişləndirilməsi bu modernizasiyanın mühüm elementləridir.

Bundan əlavə, Azərbaycan uzun illərdir “Sülh Naminə Tərəfdaşlıq” proqramı çərçivəsində fəal iştirak edir və 2025-ci ilin dekabrında əlavə qüvvələrin NATO-nun “Əməliyyat İmkanları Konsepsiyası” (OCC) proqramına daxil edilməsi planlaşdırılır. Bu proqram çərçivəsində Azərbaycan bölmələri NATO ölkələri ilə birgə qiymətləndirilmə və hazırlıq proseslərində iştirak edir, döyüş hazırlığının səmərəliliyini və qarşılıqlı fəaliyyət qabiliyyətini artırır.

NATO ilə əməkdaşlığımız yalnız hərbi təlim və əməliyyatlarla məhdudlaşmır. Enerji təhlükəsizliyi, transregional nəqliyyat infrastrukturunun qorunması, Xəzər–Qara dəniz hövzəsində sabitliyin təminatı və kiber təhlükəsizlik kimi sahələr də tərəfdaşlığın əsas istiqamətlərindəndir. Azərbaycan enerji layihələri – Bakı–Tbilisi–Ceyhan, TANAP, TAP kimi strateji boru kəmərləri vasitəsilə Avropanın enerji təhlükəsizliyində mühüm rol oynayır və bu kontekstdə NATO ilə əməkdaşlıq enerji marşrutlarının təhlükəsizliyinin təminatına əlavə töhfə verir.

Azərbaycanın beynəlxalq missiyalarda iştirakı ölkənin sülhməramlı dövlət imicini möhkəmləndirib. Hərbçilərimiz uzun illər Əfqanıstanda NATO rəhbərliyində sülhməramlı əməliyyatlarda iştirak edərək, yüksək peşəkarlıq nümayiş etdiriblər. Bu fəaliyyət həm Ordumuzun beynəlxalq səhnədə etibarlı tərəfdaş kimi tanınmasına səbəb olub, həm də ölkəmizin qlobal təhlükəsizliyə töhfə verən aktor kimi mövqeyini gücləndirib.

Eyni zamanda, NATO ilə əməkdaşlıq regionda balanslı müdafiə strategiyasının formalaşdırılmasına imkan verir. Azərbaycan qonşu dövlətlərlə münasibətlərində qarşılıqlı hörmət və əməkdaşlıq prinsiplərinə əsaslanır, lakin eyni zamanda öz təhlükəsizliyini təmin etmək üçün müasir hərbi gücün formalaşdırılmasını zəruri sayır. NATO ilə əməkdaşlıq Silahlı Qüvvələrimizə yeni əməliyyat konsepsiyalarını tətbiq etməyə, mobilliyi artırmağa, kəşfiyyat və müşahidə imkanlarını genişləndirməyə şərait yaradır. Bu isə regionda mümkün risk və təhdidlərə qarşı adekvat müdafiə mexanizmlərinin qurulmasına real köməkdir.

Beləliklə, Azərbaycan–NATO əməkdaşlığı çoxşaxəli və strateji xarakter daşıyır. Bu əməkdaşlıq ölkənin müdafiə potensialının artırılmasına, Silahlı Qüvvələrimizin peşəkarlığının yüksəldilməsinə, hərbi tədris və təlim sisteminin modernləşdirilməsinə, silahlanma və idarəetmə standartlarının beynəlxalq səviyyəyə çatdırılmasına mühüm töhfə verir. Eyni zamanda, Azərbaycan Ordusunun beynəlxalq əməliyyatlarda iştirakının genişləndirilməsi ölkənin qlobal təhlükəsizlik arxitekturasındakı rolunu daha da gücləndirir.

Sonda bir daha vurğulayaq ki, ümumən, NATO ilə əlaqələr Azərbaycan və bütövlükdə Cənubi Qafqaz regionu üçün təhlükəsizlik, sabitlik və sülh baxımından əhəmiyyətli rol oynayır. Bu əməkdaşlıq Azərbaycanın beynəlxalq aləmdə etibarlı tərəfdaş kimi mövqeyini möhkəmləndirir, ölkənin strateji maraqlarını qorumağa xidmət edir və gələcək hərbi-siyasi inkişaf üçün geniş imkanlar yaradır.

***Pünhan ƏFƏNDİYEV***
***XQ***

## *Ekspert rəyi*



**Yeganə HACIYEVA,**
**Mətbuat Şurası İH-in üzvü, politoloq**

Azərbaycan–NATO münasibətləri qarşılıqlı fayda əsasında qurulmuş, siyasi balansı qoruyan və regionun təhlükəsizlik arxitekturasına əhəmiyyətli töhfə verən strateji tərəfdaşlıq modelidir. Bu əməkdaşlıq həm Cənubi Qafqazın stabil inkişafına, həm də Avropa üçün enerji və təhlükəsizlik təminatına mühüm təsir göstərir.

Azərbaycan və Şimali Atlantika Alyansı arasındakı münasibətlər uzun illərdir ki, regionda təhlükəsizlik və sabitliyin qorunmasına yönəlmiş praqmatik əməkdaşlıq nümunəsi kimi diqqət çəkir. NATO üzvü olmamasına baxmayaraq, Azərbaycan Alyansla müxtəlif formatlarda geniş tərəfdaşlıq edir və bu, həm Cənubi Qafqaz, həm də Avropa üçün əhəmiyyətlidir.

Azərbaycan–NATO əməkdaşlığının təməlində “Sülh Naminə Tərəfdaşlıq” proqramı dayanır. Bu proqram çərçivəsində Azərbaycan beynəlxalq və regional hərbi təlimlərdə iştirak edir, ordu standartlarının NATO tələblərinə uyğun modernləşdirilməsi istiqamətində iş aparır və müdafiə sahəsində islahatlara metodik dəstək alır. Əməkdaşlığın daha dərin mərhələsi isə Fərdi Tərəfdaşlıq üzrə Fəaliyyət Planı (IPAP) proqramı vasitəsilə həyata keçirilir. IPAP çərçivəsində müdafiə sənayesində planlaşdırma, hərbi kadr hazırlığı və sülhməramlı potensialın gücləndirilməsi sahələrində əməkdaşlıq mövcuddur. Azərbaycan hərbçiləri NATO-nun Əfqanıstandakı ISAF və “Resolute Support” missiyalarında, həmçinin bir sıra humanitar və logistik əməliyyatlarda fəal iştirak ediblər.

Azərbaycanın NATO üçün strateji əhəmiyyəti bir neçə əsas amillə bağlıdır. Ölkəmiz Rusiya, İran və Türkiyə kimi böyük regional güclər arasında yerləşir və Avropa ilə Asiyanı birləşdirən nəqliyyat və enerji dəhlizlərinə nəzarət edir. Əməkdaşlıq Cənub Qaz Dəhlizi, Transxəzər nəqliyyat əlaqələri və Orta Dəhliz İpək Yolu kimi geniş ərazilərdə enerji təhlükəsizliyi və logistika baxımından strateji əhəmiyyət daşıyır. Azərbaycanla münasibətlər, həmçinin, regionda güc balansının qorunması baxımından NATO üçün vacibdir.

Azərbaycan həm NATO üzvü Türkiyə, həm də Rusiya və İran kimi region nəhəngləri ilə milli maraqlarına əsaslanan balanslaşdırılmış siyasət yürüdür. Çoxvektorlu diplomatiya çərçivəsində Alyansla əməkdaşlıq ölkəyə əlavə təhlükəsizlik və diplomatik manevr imkanları qazandırır. Azərbaycan Ordusunun modernləşməsi də əməkdaşlığın mühüm istiqamətlərindən biridir. Avropanın enerji təhlükəsizliyində - qaz tədarükündə artan rolu fonunda respublikamız NATO üçün strateji əhəmiyyətə malik məkandır. Çünki Alyansın enerji infrastrukturunun müdafiəsi və tərəfdaş ölkələrdə sabitliyin qorunması Avropanın enerji təhlükəsizliyinin əsas komponentidir.

Digər tərəfdən, müasir dövrdə kibertəhlükələr və hibrid hücumlar geniş yayılıb. 2025-ci ildə Azərbaycan üçün kritik enerji və digər infrastrukturlarına qarşı hücumlar yadda qaldı. NATO tərəfdaş kimi Azərbaycanın kritik enerji infrastrukturlarının qorunması, kibertəhlükəsizlik üzrə təlimlər və böhranlara hazırlıq planlarının qurulması sahələrində dəstək verir.

Azərbaycan NATO-ya üzvlüyü hədəfləmir; xarici siyasətini balanslaşdırma prinsipinə əsaslandırır. Əməkdaşlıq praqmatik xarakter daşıyır və region ölkələri ilə münasibətlərlə ziddiyyət yaratmamasına diqqət edilib. NATO isə tərəfdaş ölkə kimi Azərbaycanın neytrallığına və suveren qərarlarına hörmət prinsiplərini qoruyur.

# "3+3"ün növbəti görüşü: Bakı və Ankaranın əminliyi, Tehranın həmrəyliyi

*(əvvəli 1-ci səhifədə)*

Nazir C.Bayramov iranlı həmkarı ilə birgə mətbuat konfransında da "3+3"ün üzərinə gəldi və təfərrüatları açıqladı. Bu, o demək idi ki, Bakı regional əməkdaşlığın mövcud formatında maraqlıdır. Daha doğrusu, marağını davam etdirir. Amma eyni maraq Ermənistanda da olmalıdır. Belə ki, ölkəmizin XİN rəhbərinin sözlərinə görə, rəsmi Bakı "3+3" regional məşvərət formatının növbəti toplantısının əvvəlcə Azərbaycanda, sonra isə Ermənistanda keçirilməsini təklif edib: "Bu formatda artıq üç görüş keçirilib - Rusiyada, İranda və 2024-cü ildə Türkiyədə. Türkiyədə keçirilən görüşün sonunda Azərbaycan tərəfi növbəti toplantının Azərbaycanda keçirilməsini təklif etdi. Biz həmçinin bildirdik ki, Azərbaycandakı görüşdən sonra növbəti toplantının Ermənistanda keçirilməsinə razılıq verərik. Təəssüf ki, həmin vaxt razılıq əldə edilmədi. Çünki Ermənistan bu ardıcıllığı qəbul etmədi", - deyən C.Bayramov hazırda mühitin fərqli olduğunu vurğulayıb və əlavə edib ki, Ermənistan və Azərbaycan nümayəndə heyətləri artıq bir-birilərinin ərazilərində reallaşan görüşlərə qatılırlar.

Nazir C.Bayramovun fikrincə, bunu və digər amilləri nəzərə alaraq, Ermənistanın etirazı üçün heç bir səbəb görmür və ölkəmizin təklifi qüvvədə qalır. İranın Azərbaycan və Ermənistan arasında münasibətlərin inkişafını dəstəklədiyini deyən Abbas Əraqçi isə vurğulayıb ki, Tehran, həmçinin, "3+3" regional məşvərət formatının əvvəl Azərbaycanda, sonra isə Ermənistanda keçirilməsi barədə Bakının mövqeyi ilə həmrəydir.

Bəli, Azərbaycan və Ermənistan arasında 2024-cü ildəki vəziyyət yoxdur. Məlum olduğu kimi, ölkələr sülh müqaviləsinin mətnini paraflayıblar və regional barış üçün səylər göstərirlər. O da artıq tam məlumdur ki, İran bu səyləri dəstəkləyir. Azərbaycan tərəfi isə bütün təfərrüatların aydın olması üçün öz Cənub qonşusunu məlumatlandıraraq səmimi mövqe tutmaqdadır. Bunu A.Əraqçinin ölkəmizin Baş nazirinin müavini Şahin Mustafayevlə görüşü də təsdiqlədi. Nəzərə alaq ki, Ş.Mustafayev Ermənistanla sərhədlərin demarkasiyası və bir sıra regional məsələlərin detalları ilə bilavasitə məşğul olan şəxs statusundadır...

Beləliklə, Azərbaycan regional gündəliklə bağlı mövzularda kifayət qədər həssas və şəffafdır. "3+3" isə "region region ölkələri üçündür" kazusunu rəhbər tutmaqdadır. Hesab edirik ki, Azərbaycanın və Türkiyənin mövqeyi bu kazusa əsaslanır. Qalır Rusiya və Ermənistan. Əlbəttə, demək istəmirik ki, Ermənistan mövcud istiqamətdə hansısa fərqli yöntəmə üstünlük verir. Rəsmi İrəvanın illər ərzində kənar oyunçuların xidmətindən istifadənin səmərəsizliyini yetərincə dərk etdiyi qənaətindəyik.

Moskva da Tehran, Bakı və Ankara kimi "xariciləri regiona buraxmamağın" tərəfdarıdır. Ancaq nəzərə alaq ki, TRIPP marşrutu kontekstində regional kommunikasiyaların açılması məsələsində kənar oyunçuların bölgədə hökmranlıq məntiqinin olmadığı hər kəs tərəfindən qəbul edilir. Hərçənd, Rusiya bu qəbuletmə mənasında istisnadır.

Bir çox ekspertlərin fikrincə, ölkə son zamanlar "3+3" formatı ilə bağlı diskussiyaları Cənubi Qafqaz müstəvisindəki yeni reallıqları şübhələndirmək üçün aparır. Ölkənin bu format çərçivəsində özünü əsas regional tənzimləyici qismində göstərmək niyyəti güddüyü də siyasi təhlilçilərin diqqətindən yayınmır.

Əlbəttə, Rusiyada yaxşı anlayırlar ki, "3+3"ə fərqli yöntəm gətirmək cəhdləri regional kommunikasiyaların açılmasının tərəfdarı olan beynəlxalq aləmdə qıcıq doğuracaq. Bu qıcığın isə sonda etimadsızlıq yaratma ehtimalı var. Moskvanın istədiyi də budur ki, Azərbaycana və Ermənistana inam olmasın. Hər iki ölkə Rusiyanın peyki qismində təqdim olunsun.

Hər halda, Azərbaycanda durumu bilir və dərk edirlər. Rəsmi Bakı özünə əmindir, prinsiplərinə sadiqdir və buna görə "3+3"ün fəlsəfəsini qorumaqda israrlı olduğunu göstərir. Bu israrlılığın nəticəsidir ki, C.Bayramov format çərçivəsindəki toplantının Azərbaycanda təşkili ilə bağlı heç bir problemin olmadığını vurğulayır. Amma gərək Ermənistan da özünə əmin olsun. Başqa sözlə desək, erməni hakim dairələri Kremlin "3+3"ü hansısa siyasi deformasiyaya məruz qoya biləcəyi təhlükəsindən çəkinməsinlər.

Bəs nəyə görə, Rusiyanın "3+3"lə bağlı fərqli kursa üstünlük verəcəyinə dair şübhələr var? Suala cavab vermək üçün iki məqamın üzərində dayanaq. Birinci məqam psixoloji səciyyə daşıyır. Diqqət yetirək, son vaxtlar Rusiya rəsmiləri mütəmadi olaraq "3+3"ün üzərində dayanır və bu format çərçivəsində növbəti toplantının Bakıda və ya İrəvanda təşkilinin qərarlaşdırıldığını vurğulayırlar. Özü də bu vurğulanma, bir növ, Azərbaycanın və Ermənistanın öhdəliyi yerinə yetirməsinin vacibliyi şəklindədir. Nəticə hasil olur ki, Kreml öhdəliyi yerinə yetirməyən tərəf müəyyənləşdirməyə girişib. Halbuki belə yanaşma düzgün deyil. Ən azından etimad mühitinə ziddir.




İkincisi, Rusiya rəsmilərinin açıqlamalarından gəlinən qənaət budur ki, Moskva hazırda "3+3"ü regionla bağlı ziddiyyətlərin aradan qaldırılması platforması kimi təsəvvürə gətirir. Kənar oyunçuların regiona buraxılmamasının vacibliyi məntiqi də öz yerində. Vurğuladıq ki, TRIPP marşrutunun timsalında regional kommunikasiyaların blokdan çıxarılması məsələsi heç də həmin kənar oyunçuların bölgənin daxili işlərinə qarışması anlamı verə bilməz.

Rusiya bunu görməzdən gələcəksə və öz gündəliyini diktə etməyə çalışacaqsa, deməli, ümumi mənafelərə qarşı çıxmağa cəhd göstərəcək. O mənafelər ki, Türkiyə və İran kimi digər böyük regional güclər tərəfindən təsdiqlənir və Əraqçinin Bakı səfərinin bu baxımdan müstəsna rol oynadığını vurğulaya bilərik.

Digər əlahiddə məqam odur ki, "3+3" yaradılanda Rusiya ona indiki kimi regional ziddiyyətlərin, yəni Azərbaycan və Ermənistan arasındakı münaqişənin həlli platforması kimi yanaşmırdı. Moskvada hesab edirdilər ki, münaqişə bilavasitə Kremlin, belə demək mümkünsə, inhisarındadır. Nəzərə alaq ki, həmin vaxt Qarabağda artıq canını tapşırmış separatçı rejim mövcud idi və rus sülhməramlıları özləri-ni, az qala, həmin rejimin hamisi qismində aparırdılar.

Bəli, nəticə etibarilə Rusiyanın mövqeyi Cənubi Qafqazda dondurulmuş münaqişə məntiqinin saxlanılmasına yönəlmişdi. Halbuki ölkə bu siyasi coğrafiyada mövcudluğunu klassik jandarmeriya funksiyası ilə saxlamağa ümid bəsləməməli idi. Bəslədiyi üçün hazırda onun "3+3"ü, bir növ, aktivləşdirmək çağırışının arxasında səmimi çalarların olduğu barədə yekdil rəy yoxdur.

Hər halda, Ermənistanın Rusiyanın səmimiyyətinə inanmadığı aşkardır. Ona görə də İrəvan Moskvanı regiona buraxmamaqda israrlıdır. Ancaq haşiyə çıxaq ki, bu durum heç də Ermənistanın tamamilə Şimaldan üz döndərdiyi anlamı verə bilməz. Ölkə Rusiya ilə əməkdaşlığın iqtisadi paradiqmasında maraqlıdır və bu baxımdan onun Kremlin hakim rol oynadığı Avrasiya İqtisadi İttifaqından qopmamaq niyyətlərini ortaya qoyması vurğulanmalıdır.

Sonda ümumiləşdirmə apararaq bir daha deyək ki, Azərbaycan "3+3" regional məşvərət formatı ilə bağlı mövqeyini açıqlamaqla, prinsiplərinə sadiqliyini bir daha göstərdi. Bunun İranın XİN rəhbərinin Bakıya səfəri zamanı diqqətə çatdırılmasının məxsusiliyi var. Yəni Tehran əmin olmalıdır ki, regional gündəmin hazırkı siyasi konfiqurasiyasına zidd hansısa fəaliyyət gerçəkləşə bilməz. Başqa sözlə desək, region "3+3"ün fəlsəfəsində vurğulandığı kimi, yenə də region ölkələri üçündür. Qalır Ermənistanın məsələyə münasibəti, bir də çox güman İranın Rusiyanı inandırması, yaxud razı salması.

Onu da nəzərə alaq ki, Rusiyanın razılaşması həm də Moskvanın TRIPP marşrutu gündəmi ilə regional kommunikasiyaların açılması məntiqindən faydalanması deməkdir. Əlbəttə ki, söhbət bərabər şərtlərlə faydalanmaqdan gedir. Deməli, Rusiyanın sözügedən bərabərliyi qəbul edib-etməməsi də önəmlidir. Qəbul edə də bilər, etməyib 2026-cı ildə Ermənistanda parlament seçkilərinin nəticələrinə ümid bəsləyə də. Axı Ermənistandakı hakimiyyət dəyişikliyi ruspərəstlərin hakimiyyətə yiyələnmələri anlamı verəcək. Şübhəsiz, elə bir hal yaşanacağı təqdirdə, rəsmi İrəvan indiki kimi konstruktiv davranmayacaq.

***Ə.CAHANGİROĞLU***
***XQ***

# Erməni kilsəsi mövqeyini itirdikcə davakarlaşır

## *Daşnaklar isə bu nifaq yuvasının müdafiəsinə qalxıblar*

**Erməni Apostol Kilsəsi (EAK) ilə ölkə iqtidarı arasında davam edən qarşıdurmaya xarici ölkələrdə yaşayan hayların münasibəti birmənalı deyil. Qərbdə, Rusiyada və Yaxın Şərq ölkələrində yaşayıb fəaliyyət göstərən diaspor nümayəndələri prosesə fərqli siyasi baxışlar və şəxsi maraqlar prizmasından yanaşırlar. Xüsusilə, son aylarda bu fikir ayrılığı özünü daha qabarıq nümayiş etdirməyə başlayıb. Bəziləri kilsəni erməni milli kimliyinin son dayağı adlandıraraq Paşinyan iqtidarının addımlarını təhlükəli sayır, digərləri isə prosesləri köhnəlmiş institutların yenilənməsi kimi qiymətləndirir.**



Bu istiqamətdə Erməni İnqilabi Federasiyası – "Daşnaksütyun"un bürosunun siyasi məsələlər üzrə mərkəzi ofisinin və "Hay Dat" bölməsinin rəhbəri, ABŞ-da yaşayan Kiro Manoyanın açıqlaması diqqət çəkir. Mənfur "Daşnaksütyun"un yaradılmasının 135-ci ildönümünə həsr olunmuş təntənəli tədbirlərdə iştirak etmək üçün İrəvana gələn Manoyan "Sputnik Ermənistan"a açıqlamasında bildirib ki, hazırkı hakimiyyət–kilsə qarşıdurmasına dair diasporda yekdil mövqe olmasa da, ümumilikdə xaricdə yaşayan ermənilər apostol kilsəsinin rolunu tanıyırlar: "Çünki məhz kilsənin sayəsində onlar xalq olaraq öz mövcudluqlarını qoruyub saxlaya biliblər. Elə buna görə də yaranmış vəziyyət istənilən halda onlarda narahatlıq doğurur".

Kilsədə parçalanma ehtimalı ilə bağlı suala cavab verən Manoyan bunun nəticə verməyəcəyini deyib. Onun sözlərinə görə, "Daşnaksütyun" öz növbəsində kilsəni dəstəkləyir: "Nəzərə almaq lazımdır ki, "Daşnaksütyun"un fəallarının əsas hissəsi Kilikya katolikosluğunun dini rəhbərliyi altında olan yeparxiyalarda cəmləşiblər. Bu fəalların əksəriyyəti Suriya və Livandan olan ermənilərdir. Orada "Daşnaksütyun" ənənəvi olaraq güclü olub. Eçmiədzinə tabe olan yeparxiyalarda isə daşnaklar yaranmış vəziyyətlə bağlı öz mövqelərini ifadə edirlər".

Qeyd edək ki, EAK-a qarşı çıxan tanınmış din xadimlərindən biri ABŞ-da yaşayan Qərb sahili yeparxiyasının rəhbəri, baş yepiskop Ovnan Terteryandır. Terteryan noyabrın 29-da katolikos II Qaregini vəzifəsindən könüllü olaraq istefa verməyə çağıran ictimai müraciəti imzalamış 10 din xadimindən biridir. K.Manoyan bununla bağlı bildirib ki, kilsənin ABŞ-ın qərb sahili bölgəsi yeparxiyasının katolikosa loyallığı ilə bağlı müəyyən suallar yaranıb. "Bu yeparxiyanın rəhbəri Ovnan Terteryanın liturgiya zamanı katolikosun adını çəkib-çəkmədiyini bilmirəm. Həmçinin deyilir ki, o özünü taxt-taca namizəd hesab edir və ona görə də bu cür siyasət yürüdür. O, həmçinin yepiskopların katolikosun dəstəklənməsinə dair müraciətini də imzalamayıb. Hərçənd ki, müraciətdə onun da adı qeyd olunub. Yəni özünə geri dönüş üçün yer saxlayır".

Manoyanın sözlərinə görə, bu məsələlərin çoxu arxiyereylər şurasının iclası zamanı həll oluna bilərdi. İclas dekabrın 10-12-də keçirilməli idi, lakin Eçmiədzin tərəfindən təxirə salınıb. Manoyan hesab edir ki, yuxarıda sadalanan halları Ermənistan hakimiyyəti təşviq edir və onlar həm kilsəni, həm də "milli dəyər daşıyan digər institutları" sarsıdırlar. "Kilsə daxilində həll edilməli problemlər yığılıb, lakin hökumət bunu kilsəyə qarşı mübarizə aparmaq üçün bəhanəyə çevirir", – deyə o bildirib.

K.Manoyanın bəyanatını diqqətlə nəzərdən keçirdikdə görmək olar ki, "Daşnaksütyun"un kilsə ilə bağlı mövqeyi heç də yeni yaranmış situasiyanın nəticəsi deyil. Bu, tarixi alışqanlığın, daha doğrusu, uzun illər davam etmiş simbiozun (iki tərəfin uzunmüddətli qarşılıqlı asılılıq münasibəti – S.H.) davamıdır. "Daşnaksütyun"un kilsəni müdafiə etməsi onların hansısa dərin dini təəssübkeşliyindən qaynaqlanmır. Əksinə, bu siyasi təşkilat tarix boyu kilsəni öz ideoloji dayağı, legitimlik mənbəyi və diaspor üzərində təsir aləti kimi istifadə edib. Erməniliyin milli özünüdərk formulunun kilsə üzərində qurulduğu mifinə ən çox ehtiyac duyan məhz "Daşnaksütyun" olub. Çünki bu mif onların XX əsrin əvvəllərindən bəri həyata keçirdiyi xəttin, yəni silahlı dəstələrin qurulması, daxili nifaqın qızışdırılması, radikal çağırışların səsləndirilməsi və on minlərlə günahsız insanın həyatına son qoyan əməllərin üstünü örtən pərdə rolunu oynayıb.

Bu gün Paşinyan iqtidarının kilsə institutunda islahat aparmaq cəhdləri "Daşnaksütyun" üçün əsas təhlükə mənbəyinə çevrilib. Çünki kilsənin daha şəffaf, ictimai nəzarətə açıq və ciddi məsuliyyət daşıyan struktura çevrilməsi onların uzun illər qurduğu ideoloji mexanizmi dağıdar. Manoyanın, "kilsə xalqın varlığını qoruyub" tezisi də, əslində, bu mexanizmin növbəti dəfə təkrarlanmasıdır. Diaspor içində həmin yanaşmanın müdafiəçisi olan qruplar da daha çox köhnə radikal şəbəkələrin üzvləridir. Maraqlıdır ki, "Daşnaksütyun"un ən fəal dayaqları Kilikya Böyük Evinin tabeliyində olan yeparxiyalardadır. Bu isə yenə həmin köhnə sistemin, yəni Livan və Suriya mühitində formalaşmış radikal hərəkatın təsir dairəsindədir. Onların Eçmiədzinə bağlı yeparxiyalarda daha sərbəst danışması isə ümumi siyasi xəttin əvvəlki kimi vahid və nəzarətli olmadığını göstərir.

Bu gün kilsə islahatlarına qarşı çıxan diaspor nümayəndələrinin önündə "Daşnaksütyun"un dayanması təsadüfi deyil. Çünki kilsədə aparılacaq real dəyişikliklər təkcə dini sistemi yox, həm də onların illərlə "milli ideologiya" adı ilə yaratdığı mifləri dağıda bilər. Əgər ictimai düşüncə yenilənsə və diaspor daha rasional mövqe tutsa, "Daşnaksütyun"un əvvəlki təsiri azalacaq. Buna görə də onlar kilsədən ayrılmırlar.

*Ekspert rəyi*

**Ramiyə MƏMMƏDOVA, politoloq**



Son hadisələr göstərir ki, erməni kilsəsi artıq xaricdəki ermənilər arasında da birmənalı dəstəyə malik deyil. Uzun illər boyu diasporun əsas, necə deyərlər, milli dayağı kimi təqdim olunan kilsə bu gün müxtəlif ölkələrdə yaşayan erməni icmaları üçün eyni məna kəsb etmir. ABŞ, Fransa, Rusiya və Yaxın Şərqdəki cərəyanlar prosesə fərqli yanaşırlar. Bir qrup kilsəni tarixi identikliyin ayrılmaz hissəsi sayaraq II Qareginin müdafiəsinə qalxır, digər qrup isə EAK-ın köhnəlmiş idarəçilik modelinin dəyişməsini zəruri hesab edir.

Bu parçalanmanın əsas səbəblərindən biri diasporun artıq tək siyasi xəttlə idarə olunmayan müxtəlif ideoloji bloklara bölünməsidir. Kilsəyə münasibətdə də bu fərqlər aydın görünür. Məsələn, ABŞ-da bir sıra ruhanilər açıq şəkildə islahat tələb edir, bəzi yeparxiyalar isə katolikosun dəyişdirilməsini mümkün çıxış yolu kimi görürlər. Eyni zamanda, Yaxın Şərqdə güclü olan daşnakçı dairələr mühafizəkar mövqedən çıxış edərək kilsənin nəzarətdən çıxmasını təhlükə kimi təqdim edirlər. Beləliklə, EAK ətrafında yaranan böhran təkcə Ermənistan daxilində deyil, diasporun ideoloji xəritəsində də ciddi çatlar yaradır. Bu parçalanma kilsənin gələcək legitimliyinə və diaspor üzərindəki təsir gücünə birbaşa təsir göstərə biləcək amildir.

* * *

Onu da bildirək ki, O.Terteryan həqiqətən də bütün ermənilərin yeni katolikosu ola bilər. Bir neçə gün öncə "Joxovurd" qəzeti öz mənbələrinə istinadən N.Paşinyanın katolikosun mümkün varisi postuna üstünlük verdiyi iki namizədi müəyyənləşdirdiyini yazmışdı. Nəşrin məlumatına görə, əsas namizədlər kimi Terteryan və Kilikya Böyük Evinin Katolikosu I Aram nəzərdən keçirilir. İndi isə K.Manoyanın bu fikri söyləməsi "Joxovurd"un yazdıqlarının gerçəyə yaxın olduğunu deməyə əsas verir. Terteryanın açıq şəkildə katolikosu istefaya çağıran din xadimlərindən biri olması artıq kilsə daxilindəki gərginliyin dərinləşdiyini göstərən əsas nüanslardan biridir. Bu addım diaspor daxilində bölünmənin təkcə ictimai-siyasi müstəvidə deyil, həm də kilsə strukturlarında özünü göstərdiyini təsdiqləyir. Terteryan adi ruhani deyil. O, ABŞ kimi böyük diaspor mərkəzində qərarverici təsirə malik fiqurdur və onun istənilən mövqeyi geniş auditoriya tərəfindən nəzərə alınır.

Maraqlıdır ki, Ermənistan mediasında, xüsusilə "Joxovurd" qəzetində bir neçə gün öncə yayılan məlumatlar Paşinyanın artıq iki mümkün namizəd müəyyənləşdirdiyini iddia edirdi. Həmin siyahıda məhz Terteryanın və Kilikya Katolikosluğunun rəhbəri I Aramın adı çəkilirdi. İndi isə Manoyanın Terteryanla bağlı söylədikləri bu ehtimalların təsadüfi olmadığını göstərir. Əgər hakimiyyət doğrudan da kilsədə islahat aparmağa və yeni rəhbərlik formalaşdırmağa çalışırsa, Terteryanın bu prosesdə mərkəzi fiqura çevrilməsi ehtimalı güclənir.

Bütün bunlar bir daha sübut edir ki, EAK-da gedən proseslər sırf dini çərçivədə deyil, siyasi-hakimiyyət müstəvisində də ciddi rəqabət doğurur. Diasporun müxtəlif qanadlarında bu məsələyə fərqli münasibətlərin yaranması da təsadüfi deyil. Terteryanın qəti mövqeyi həm ABŞ-dakı erməni icmalarını iki yerə bölür, həm də Eçmiədzin–Kilikya xəttində yeni gərginlik ehtimalını artırır. Əgər Paşinyanın həqiqətən yeni katolikos seçilməsi prosesinə təsir imkanları varsa, Terteryanın adı yaxın aylarda daha çox hallanacaq və kilsə daxilində güc balansını dəyişə biləcək potensial oyunçular sırasında qalacaq.

***Səxavət HƏMİD***
***XQ***

*10 Dekabr İnsan Hüquqları Günüdür*

# Azərbaycan dövləti insan hüquqlarının ali təminatçısıdır

**10 dekabr tarixi hər il dünyada İnsan Hüquqları Günü kimi qeyd edilir. Bu, Ümumdünya İnsan Hüquqları Bəyannaməsinin qəbul edildiyi günün, yəni 10 dekabr tarixinin BMT Baş Assambleyasının 423 (V) saylı qətnaməsinə əsasən, İnsan Hüquqları Günü kimi qəbul edildiyi tarixdir.**




İlk dəfə İnsan Hüquqları Günü 1950-ci ildə qeyd edilmişdir. Hər il bu əlamətdar tarixin qeyd olunmasını BMT-nin İnsan Hüquqları üzrə Ali Komissarının İdarəsi təşkil edir. Bir qayda olaraq, İnsan Hüquqları Günü münasibətilə BMT-nin Baş Katibi və İnsan Hüquqları üzrə Ali Komissarı üzv dövlətlərə müraciət ünvanlayır. Müraciətdə, adətən, insan hüquqlarının təmini sahəsində BMT-ni narahat edən əsas məsələlər, insan hüquqlarının pozuntularının aradan qaldırılması, pozulmuş hüquqların bərpası, ümumilikdə insan hüquqlarının səmərəli təmini istiqamətində üzv dövlətlərə tövsiyələr öz əksini tapır.

Müstəqil Azərbaycanda isə ümummilli lider Heydər Əliyevin respublikamıza rəhbərlik etdiyi dövrlərdə ən çox diqqət yetirdiyi sahələrdən biri insan hüquq və azadlıqlarının qorunması olmuşdur. Ulu öndərin rəhbərliyi ilə həyata keçirilmiş islahatlar nəticəsində insan hüquqlarının səmərəli müdafiəsi təmin edilmiş, bütövlükdə insan hüquqlarının inkişafı üçün münbit şərait yaranmışdır.

1998-ci il aprelin 16-da Ulu öndərin imzaladığı "Birləşmiş Millətlər Təşkilatının Ümumdünya İnsan Hüquqları Bəyannaməsinin 50 illiyinin keçirilməsi haqqında" sərəncamda qeyd edilirdi: "Bəyannamədə təsbit edilmiş hüquqlar ümumbəşəri dəyərlərdir. Onlar hər kəsə, məhz insan olduğuna görə, mənsubdur. Kişi və ya qadın, uşaq və ya böyük, vətəndaş və ya əcnəbi, varlı və ya kasıb, güclü və ya zəif bütün bunların heç bir əhəmiyyəti yoxdur: hər kəs insan olduğuna görə bərabər hüquqlara malikdir və ləyaqətinə hörmət edilməyə haqqı vardır".

Həmin dövrdə Prezident Heydər Əliyev yeganə dövlət başçısı idi ki, belə bir nadir sənəd imzalamışdı. Bu isə Ulu öndərin insan hüquqlarına nə qədər böyük önəm verdiyinin göstəricisi idi. Bu il həm də müasir Azərbaycan dövlətinin qurucusu Heydər Əliyevin müəllifi olduğu Azərbaycan Respublikasının ilk milli və hüquqi Konstitusiyasının referendum yolu ilə qəbul edilməsindən 30 il ötür.

Müstəqil Azərbaycanın gələcək inkişafının yalnız hüquqi dövlət, demokratik idarəetmə və vətəndaş cəmiyyəti quruculuğu, azad sahibkarlıq və bazar iqtisadiyyatının formalaşdırılması nəticəsində mümkün olacağını yaxşı bilən müdrik liderimiz bu münasibətləri tənzimləyən yeni qanunvericilik sisteminin, xüsusən də onun əsasını təşkil edəcək Əsas Qanunun – Konstitusiyanın hazırlanıb qəbul edilməsinə çox böyük önəm verirdi: "Konstitusiya yaratmaq üçün, şübhəsiz ki, tarixi keçmişimizə nəzər salmalıyıq, amma eyni zamanda ümumbəşəri dəyərlərdən, dünyanın demokratik dövlətlərinin əldə etdiyi nailiyyətlərdən, təcrübədən istifadə etməliyik, bəhrələnməliyik".

Həqiqətən də, bu akt dünyada nadir konstitusiyalardandır ki, burada demokratik hüquqi dövlətin bütün prinsipləri – hüququn aliliyi, insan hüquqlarının müdafiəsi, hakimiyyət bölgüsü, konstitusiya nəzarəti prinsipləri təsbit olunmuş, insan hüquqlarının təmini dövlətin ali məqsədi kimi bəyan edilmiş, Konstitusiyamızın üçdə bir hissəsi məhz bu məsələyə həsr edilmişdir.

Xüsusilə, qeyd etməliyik ki, Ulu öndərin milli dövlətçilik ideyaları uğrunda mübarizəsi hələ 1978-ci il Konstitusiyasının qəbulu zamanından başlamışdı. Həmin Konstitusiyanın qəbul olunmasında müstəsna rolu olmuş Ümummilli liderin tələbi ilə Konstitusiyada dövlət dili kimi Azərbaycan dili müəyyən edilmişdi. Bu Konstitusiyada Dağlıq Qarabağ və onun orqanlarının hüquqi statusu "Yerli dövlət hakimiyyət orqanları" fəsli daxilində müəyyən edilmişdi, yəni ona ayrıca, xüsusi önəm verilmirdi.

Bunlar Ulu öndərin Azərbaycan xalqı və dövləti qarşısındakı tarixi xidmətlərindən biri idi. Tam əminliklə deyə bilərik ki, müstəqilliyimizin təməli Heydər Əliyev tərəfindən hələ SSRİ vaxtı qoyulmağa başlanmışdır. Məhz yurdsevər lider Heydər Əliyevin müstəsna xidmətləri və qətiyyəti sayəsində 1978-ci il Konstitusiyasına milli dövlətçiliyimizə xidmət edən müddəalar daxil edilmişdir.

Azərbaycan Respublikasının müasir Konstitusiyası insan hüquqları doktrinasına əsaslanır. Burada ilk dəfə olaraq insan hüquqlarına dair təbii hüquq nəzəriyyəsi öz əksini tapmışdır. 24-cü maddənin II hissəsində göstərilmişdir ki, hər kəsin doğulduğu andan toxunulmaz, pozulmaz və ayrılmaz hüquqları və azadlıqları vardır. Bu müddəanın söykəndiyi fəlsəfəyə görə, insan hüquqları onların normativ təsbitindən kənar və asılı olmayaraq mövcuddur və Konstitusiyamızda öz əksini tapmış əsas hüquq və azadlıqların siyahısına daxil olmaqla insan hüquqlarının qanunvericilikdə, xüsusilə Konstitusiya qaydasında pozitivləşdirməklə onların dəqiq hüquqi prosedurlar vasitəsilə lazımi müdafiəsi üçün prinsipial əhəmiyyət kəsb edir. Azərbaycanın dövlət quruculuğu tarixində ilk dəfə idi ki, təbii hüquq nəzəriyyəsi əsas qanunda öz əksini tapırdı.

Konstitusiyanın "Əsas insan və vətəndaş hüquqları və azadlıqları" adlanan 48 maddədən ibarət III fəslinin bütün mətni insana, insan ləyaqətinə, insan hüquqlarına hörmət ruhunda yazılmışdır. Ona görə də bəşər sivilizasiyasının iki mütərəqqi ideyasının – konstitusionalizm və insan hüquqlarının müdafiəsi ideyalarının üzvi bağlılığı Azərbaycan Respublikasının Konstitusiyasında özünün layiqli ifadəsini tapmışdır.

Konstitusiyada insan ləyaqəti xüsusi diqqət mərkəzinə gətirilir. İnsan ləyaqəti həm ümumbəşəri dəyər, həm konstitusion prinsip, həm də subyektiv hüquq kimi qəbul edilir. Ləyaqət insan hüquqlarının əsasını və bünövrəsini təşkil edir. İnsan hüquqları doktrinası bütövlükdə ali dəyər olan insan ləyaqətinə əsaslanır.

İnsan hüquqları sahəsində fundamental sənəd olan Ümumdünya İnsan Hüquqları Bəyannaməsində bununla bağlı bir sıra normalar mövcuddur. Bəyannamənin preambulasına əsasən, bəşər ailəsinin bütün üzvlərinə xas olan ləyaqət hissinin və onların bərabər və ayrılmaz hüquqlarının tanınması azadlıq, ədalət və ümumi sülhün əsasıdır. Bəyannamənin 1-ci maddəsinə əsasən isə, bütün insanlar ləyaqət və hüquqlarına görə azad və bərabər doğulurlar.

İnsanın hüquq və azadlıqları birbaşa olaraq məhz ləyaqətdən irəli gəlir. İnsanın hüquq və azadlıqlarını qorumaq üçün ilk növbədə onun ləyaqəti dövlət tərəfindən qorunmalıdır. 1975-ci il tarixli Helsinki Yekun Aktında dövlətlərin insan şəxsiyyətinə məxsus ləyaqətdən irəli gələn və insanın azad, hərtərəfli inkişafı üçün əsas olan mülki, siyasi, iqtisadi, sosial, mədəni, eləcə də digər hüquq və azadlıqların səmərəli həyata keçirilməsini təşviq və inkişaf etdirəcəkləri qeyd edilir.

Ümummilli lider Heydər Əliyev öz fəaliyyətində insan ləyaqətinin toxunulmazlığı və ona hörmət olunması konsepsiyasını rəhbər tuturdu: "İnsan ləyaqətinə hörmət Azərbaycan xalqının çoxəsrlik ənənələrindən irəli gəlir". "Ləyaqət" kateqoriyasının hər iki aspekti Azərbaycan Respublikasının Konstitusiyasında öz əksini tapmışdır. Konstitusiyanın 24-cü maddəsinin I hissəsinə əsasən, insan ləyaqəti qorunur və ona hörmət olunur. Konstitusiyanın 46-cı maddəsinə müvafiq olaraq, hər kəsin öz şərəf və ləyaqətini müdafiə etmək hüququ var. Bununla da, Azərbaycan Konstitusiyası ləyaqət konsepsiyasını tam şəkildə özündə əks etdirir.

Milli Konstitusiyamızın mühüm xüsusiyyəti kimi burada hüquq və azadlıqların bilavasitəliyinin təsbit olunmasıdır ki, bu prinsip insanın öz hüquqlarını bütün qanuni vasitələrlə qoruya bilməsini təmin edir və dövlət onları tanımağa, riayət etməyə və qorumağa borcludur. Bilavasitəlik prinsipinin əsas mahiyyəti ondan ibarətdir ki, hüquq və azadlıqlar birbaşa tanınır, bunun üçün əlavə qanunvericilik tədbirlərinə ehtiyac yoxdur.

İnsan hüquq və azadlıqları bütün qanunların mənasını, məzmununu və tətbiqini, o cümlədən qanunvericilik və icra hakimiyyəti də daxil olmaqla bütün dövlət orqanlarının fəaliyyətini müəyyən edir. Eyni zamanda, dövlət insan və vətəndaş hüquq və azadlıqlarını tanımağa, onlara riayət etməyə və müdafiə etməyə, onların müdafiəsini təmin etməyə borcludur. Hər kəs istər dövlət, istərsə də başqa şəxslər tərəfindən törədilən hər hansı pozuntudan qorunmaq üçün öz hüquq və azadlıqlarından birbaşa istifadə edə bilər.

İnsan hüquqları sahəsində beynəlxalq standartları adekvat əks etdirməklə yanaşı, Azərbaycan Respublikası Konstitusiyasında, eyni zamanda, belə bir mütərəqqi müddəa nəzərdə tutulmuşdur: "Konstitusiyada sadalanan insan və vətəndaş hüquqları və azadlıqları Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrə uyğun tətbiq edilir" (12-ci maddənin II hissəsi).

Eyni zamanda, insan və vətəndaş hüquq və azadlıqlarının, Azərbaycan Respublikasının vətəndaşlarına layiqli həyat səviyyəsinin təmin edilməsi dövlətin ali məqsədi kimi bəyan olunması xüsusi qeyd olunmalıdır. Çünki məhz layiqli həyat səviyyəsinin təmin edilməsi digər hüquq və azadlıqların da maneəsiz həyata keçirilməsini təmin edir. "Layiqli həyat səviyyəsi" müasir inkişaf etmiş cəmiyyətin standartları səviyyəsində maddi təminatı, mədəni dəyərlərə çıxışı, həm işləyənlərin, həm də işləyə bilməyənlərin şəxsi və ailə təhlükəsizliyi hüquqlarını təmin edən normalar məcmusudur.

Layiqli həyat səviyyəsi bir iqtisadi elementdən deyil, bir çox elementlərdən ibarət olan daha mürəkkəb, əhatəli bir anlayışdır. Daha konkret desək, milli Konstitusiyamız tələb edir ki, dövlət elə zəmin yaratmalıdır ki, hər bir şəxs özünü qorunmuş hiss etsin, dövlətin onun qayğısına qaldığına əmin olsun. Bütün bunlar da Ana Qanunun sosial dövlət ideyalarına söykəndiyini bir daha təsdiq edir.

12-ci maddənin təhlili eyni zamanda onu deməyə əsas verir ki, insan hüquqları sahəsində etatizm doktrinasından imtina edilmiş və bunun əvəzinə mütərəqqi konsepsiya kimi insanın mərkəzdə olduğu humanizm doktrinası rəhbər tutulmuşdur.

İnsan hüquqlarının Konstitusiyanın təsbitinin əsasında duran mühüm prinsiplərdən biri də Konstitusiyanın 25-ci maddəsində əks olunmuş hamının qanun və məhkəmə qarşısında bərabərliyi prinsipidir. Bu müddəanın III fəsildə ön plana çəkilməsi prinsipial əhəmiyyətə malikdir. Belə ki, praktikada bərabərlik hüququnu təmin etmədən insanın bütün digər hüquq və azadlıqlarının real qorunmasına nail olmaq mümkün deyildir.

25-ci maddənin III hissəsində birmənalı şəkildə göstərilmişdir ki, dövlət, irqindən, etnik mənsubiyyətindən, dinindən, dilindən, cinsindən, mənşəyindən, əmlak vəziyyətindən, qulluq mövqeyindən, əqidəsindən, siyasi partiyalara, həmkarlar ittifaqlarına və digər ictimai birliklərə mənsubiyyətindən asılı olmayaraq, hər kəsin hüquq və azadlıqlarının bərabərliyinə təminat verir. İnsan və vətəndaş hüquqlarını və azadlıqlarını irqi, etnik, dini, dil, cinsi, mənşəyi, əqidə, siyasi və sosial mənsubiyyətə görə məhdudlaşdırmaq qadağandır.

Konstitusiyada təsbit olunmuş hüquqlar sırasında yaşamaq hüququnun təminatı xüsusi qeyd edilməlidir. Yaşamaq hüququnun təsbit olunduğu konstitusiya müddəasına əsasən, dövlətə silahlı basqın zamanı düşmən əsgərlərinin öldürülməsi, məhkəmənin qanuni qüvvəyə minmiş hökmünə əsasən ölüm cəzasının tətbiqi və qanunla nəzərdə tutulmuş digər hallar istisna olmaqla, hər bir şəxsin yaşamaq hüququ toxunulmazdır. Yəni heç kəs özbaşına həyatdan məhrum edilə bilməz.

Ulu öndər Heydər Əliyev yaşamaq hüququna xüsusi önəm verərək xalqın təkidli tələbi ilə ikinci dəfə hakimiyyətə gəldikdən sonra atdığı ilk addımlardan biri məhz ölüm hökmlərinin icrasının dayandırılması oldu. Bununla bağlı böyük rəhbər deyirdi: "1993-cü ilin iyun ayından biz Azərbaycanda ölüm hökmlərinin icrasını dayandırmışıq. Baxmayaraq ki, o illər bizim üçün çox mürəkkəb, ağır, çətin illər olubdur, Azərbaycan dövlətini, onun müstəqilliyini qoruyub saxlamaq, dövlətçiliyə olan qəsdlərin qarşısını almaq lazım idi. Şübhəsiz ki, bunlar çox qəti addımlar atmaq, tədbirlər görmək, həyata keçirmək tələb edirdi. Biz bunları etmişdik. Ancaq biz humanistliyimizi də itirməmişdik. Məhz ona görə də biz ölüm hökmünün icrasını dayandırmışdıq".

Şərqdə ilk dəfə olaraq, ölüm cəzasının Azərbaycanda ləğvi ölkəmizin dünyəvi, demokratik, hüquqi dövlət quruculuğu yolu ilə inamla irəlilədiyini, demokratik prinsiplərin inkişafına xüsusi önəm verdiyini bir daha təsdiqləmiş oldu.

İnsan hüquq və azadlıqlarının real təmin edilməsi üçün həlledici şərtlərdən biri də şəxslərə öz hüquqlarını müdafiə etmək və pozulmuş hüquqlarını bərpa etmək imkanının verilməsidir. Hələ qədim Roma hüququndan bizə belə bir hüquqi aksiom məlumdur ki, hüquq olan yerdə onun müdafiə vasitəsi də olmalıdır (ubi jus ibi remedium). Hüquqi dövlətin bu mühüm tələbi Azərbaycan Respublikası Konstitusiyasının 26-cı maddəsində birbaşa öz ifadəsini tapmışdır. Həmin maddənin I hissəsində deyilir ki, hər kəsin qanunla qadağan olunmayan üsul və vasitələrlə öz hüquqlarını və azadlıqlarını müdafiə etmək hüququ vardır.

Şəxsiyyətin ədalət mühakiməsinin həyata keçirilməsi ilə əlaqədar hüquqlarına təminat verilməsi Konstitusiyanın mühüm müddəalarından biridir. Bu müddəa hüquqi yardım almaq, məhkəmədə müdafiə olunmaq, müdafiəçinin köməyindən istifadə etmək, məhkəmə qərarından şikayət vermək, təqsirsizlik prezumpsiyası hüququnu və başqa hüquqları əhatə edir.

Bundan əlavə, Əsas Qanun məhkəmə aidiyyətinin dəyişdirilməsinə, eyni cinayət üstündə təkrar məhkum edilməyə, habelə qohumların əleyhinə ifadə verməyə məcbur etməyə yol vermir. Konstitusiyaya görə, hər bir şəxsin cinayət, hakimiyyətdən sui-istifadə, yaxud dövlət orqanlarının və ya vəzifəli şəxslərin qanuna zidd hərəkətləri nəticəsində ona vurulmuş zərərin ödənilməsini tələb etmək hüququ vardır.

Konstitusiyanın 24-cü maddəsinə əsasən, hüquqlardan sui-istifadəyə yol verilmir. İlk növbədə onu qeyd etmək lazımdır ki, insan hüquqlarının və əsas azadlıqların Konstitusiyada və digər qanunvericilik aktlarında təsbit edilməsi və səmərəli şəkildə təmin edilməsi, müdafiəsi və onlara hörmət olunması nə qədər vacibdirsə, bu hüquq və azadlıqlardan sui-istifadə edilməsi cəmiyyət üçün bir o qədər təhlükəlidir. Hüquqlardan sui-istifadə insan hüquqlarının mənəviyyata və əxlaq normalarına zidd şəkildə həyata keçirilməsidir.

İnsan hüquqlarının həyata keçirilməsinin əsas şərti bu hüquqların qanun çərçivəsində, qanunauyğun şəkildə və qanunla nəzərdə tutulmuş qaydada həyata keçirilməsidir. Hüquqlardan sui-istifadə, həm də, hüquq pozuntusunun xüsusi formasıdır, "sui generis" hüquq pozuntusudur. Hüquqlardan sui-istifadə nəticəsində insana, cəmiyyətə və dövlətə ciddi zərər dəyir. Hüquqlardan sui-istifadə hüquq və azadlıqların, onların əsl mahiyyətinə və təyinatına zidd olaraq həyata keçirilməklə digər şəxslərin hüquqlarının pozulmasına gətirib çıxarır.

İstər milli qanunvericilikdə, o cümlədən konstitusiyada, istərsə də beynəlxalq hüquqi aktlarda, o cümlədən insan hüquqlarına dair fundamental beynəlxalq sənədlər olan Ümumdünya İnsan Hüquqları Bəyannaməsində, Mülki və siyasi hüquqlar haqqında Beynəlxalq Paktda, İqtisadi, sosial və mədəni hüquqlar haqqında Beynəlxalq Paktda, İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında Konvensiyada təsbit edilmiş istənilən hüququn qanuna, insan hüquqlarının mahiyyətinə zidd şəkildə həyata keçirilməsi, yəni bu hüquqlardan sui-istifadə edilməsi qanunla qadağan edilməlidir.

Bu, digər şəxslərin hüquq və azadlıqlarının, mənəviyyatın və ictimai qaydanın, qanunçuluğun və təhlükəsizliyin təmin edilməsi üçün olduqca vacibdir. Məhz bu prizmadan çıxış edərək bir sıra demokratik-hüquqi dövlətlərin konstitusiyalarında bu prinsip öz əksini tapmışdır. Hüquqlardan sui-istifadəyə yol verilməməsi ilə bağlı müddəanın Azərbaycan Respublikasının Konstitusiyasında təsbit olunması insan hüquq və azadlıqlarının səmərəli təmininə, hüquq qaydasının mühafizəsinə xidmət edir.

İnsan hüquqları baxımından daha bir mühüm müddəa Konstitusiyanın 60-cı maddəsində öz əksini tapmışdır. Konstitusiyaya əsasən, hər kəsin hüququ var ki, onun işinə qərəzsiz yanaşılsın və həmin işə inzibati icraat və məhkəmə prosesində ağlabatan müddətdə baxılsın. İlk növbədə onu qeyd etmək lazımdır ki, işə ağlabatan müddətdə baxılması hüquqi dövlətin əsasını təşkil edən ədalət mühakiməsinin əsas elementlərindən biridir.

Beynəlxalq hüquqda ağlabatan müddətin insan hüquqlarının səmərəli təmin edilməsi baxımından mühüm əhəmiyyət daşıması ilə bağlı bir sıra mühüm normalar mövcuddur. Beynəlxalq insan hüquqları hüququnun ən mühüm mənbələrindən biri olan Avropa İnsan Hüquqları Konvensiyasının 6-cı maddəsinə əsasən, hər kəs, onun mülki hüquq və vəzifələri müəyyən edilərkən və ya ona qarşı hər hansı cinayət ittihamı irəli sürülərkən, qanun əsasında yaradılmış müstəqil və qərəzsiz məhkəmə vasitəsi ilə, ağlabatan müddətdə işinin ədalətli və açıq araşdırılması hüququna malikdir.

Konstitusiyanın insan hüquqları ilə bağlı ən mühüm normalarından biri də "İnsan və vətəndaş hüquqlarının və azadlıqlarının təminatı" adlı 71-ci maddəsidir. Həmin maddəyə əsasən, Azərbaycan Respublikası ərazisində insan və vətəndaş hüquqları və azadlıqları birbaşa qüvvədədir. İnsan hüquqları baxımından müstəsna əhəmiyyət kəsb edən bu normanı təhlil edərək belə nəticəyə gəlmək olar ki, Konstitusiyada təsbit edilib-edilməməsindən asılı olmayaraq fundamental beynəlxalq hüquqi aktlarda öz əksini tapmış, yəni ümumtanınmış insan hüquq və azadlıqları Azərbaycan ərazisində qüvvədədir və birbaşa tətbiq edilə bilər.

Yəni bu hüquqların milli hüquq tətbiq edən orqanlar, məhkəmələr tərəfindən tətbiq edilə bilməsi üçün onların dövlətdaxili hüquqa gətirilməsi mütləq deyil. Konstitusiya imkan verir ki, fundamental, ümumqəbulolunmuş insan hüquqları pozulduğu halda, hətta pozulmuş hüquq (hüquqlar) milli qanunvericilikdə öz əksini tapmasa belə, pozuntuya məruz qalan şəxs məhkəmə orqanlarına pozulmuş hüququn bərpası üçün müraciət etsin.

Məhz Ümummilli lider Heydər Əliyevin əsasını qoyduğu və Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən uğurla davam etdirilən siyasət nəticəsində Azərbaycan yeni inkişaf mərhələsinə qədəm qoydu. Bu mərhələnin əsas hədəfi insan hüquqlarına hörmətin təmin olunması və işğaldan azad edilmiş ərazilərin bərpası və çiçəklənməsidir.

Prezident İlham Əliyevin cəmiyyətdə ictimai-siyasi sabitliyin möhkəmləndirilməsi, demokratiyanın inkişafı, vətəndaşların hüquq və azadlıqlarının qorunması istiqamətində fəaliyyəti nəticəsində bu gün Azərbaycan hüquqi dövlət ideyasının reallaşdığı, dövlət, cəmiyyət və şəxsiyyət münasibətlərinin demokratik prinsiplərə əsaslandığı, müxtəlif millətlərin dilinin, dininin, mədəniyyətlərinin qovuşması nəticəsində yaranmış, tolerantlıq prinsiplərinə sadiq, multikultural mühitin formalaşdığı bir məkana çevrilmişdir. Bütövlükdə Prezident İlham Əliyevin yürütdüyü siyasət məhz insan hüquq və azadlıqlarının səmərəli təmininə yönəlmişdir.

Hazırda respublikamız özünün yeni intibah dövrünü yaşayır. 2020-ci il sentyabrın 27-də Ermənistanın Azərbaycana qarşı irimiqyaslı hücumuna cavab olaraq, Azərbaycan BMT Nizamnaməsinin 51-ci maddəsində təsbit olunmuş özünümüdafiə hüququndan istifadə edərək, öz ərazisində Ermənistana qarşı əks-hücum əməliyyatına başladı. Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə qəhrəman Azərbaycan Ordusu 44 günlük Vətən müharibəsi nəticəsində 30 ilə yaxın davam edən işğala son qoydu. 2023-cü ilin 19-20 sentyabr tarixlərində həyata keçirilən uğurlu anti terror əməliyyatı nəticəsində isə dövlət suverenliyimiz tam bərpa olundu. Ərazi bütövlüyünü və suverenliyini bərpa etməklə Azərbaycan həm də pozulmuş beynəlxalq hüquq normalarını da bərpa etmiş oldu.

Builki İnsan Hüquqları Gününü əsas qanunumuz olan Konstitusiyanın qəbul edilməsinin 30 illiyi, şanlı Zəfərimizin beş illiyi və dövlət suverenliyimizin tam bərpası şərəfinə Azərbaycan Respublikası Prezidenti tərəfindən elan edilmiş "Konstitusiya və Suverenlik İli" çərçivəsində qeyd etmək olduqca qürurvericidir.

***Zaur ƏLİYEV,***
***Bakı Dövlət Universiteti hüquq fakültəsinin dekanı, fəlsəfə doktoru, dosent***

# Ovsunlu gedərgəlməzlik burulğanı

## *Nəzarətsizlik uşaqları bu bəlanın qurbanlarına çevirir*



**XXI əsrin reallığı bizi həm informasiya bolluğu, həm də saysız təhlükələrlə üz-üzə qoyur. Bir tərəfdə rəqəmsal dünyanın vəd etdiyi sərhədsiz imkanlar, digər tərəfdə virtual aləmin qaranlıq künclərində gizlənən, azyaşlıları, yeniyetmələri vaxtsız ölümə aparan təhlükəli oyunlar...**

2000-ci illərdə sosial şəbəkələrin qlobal səviyyədə sürətlə genişlənməsi internet tarixinin ən kəskin dönüş nöqtələrindən biri idi. O dövrdə "Facebook", "YouTube", "Twitter", "Instagram" kimi platformalar milyonlarla istifadəçini cəlb edərək yeni kommunikasiya reallığı formalaşdırdı. Lakin bu partlayış o qədər ani yaşandı ki, texnoloji nəhənglər təhlükəsizlik mexanizmlərini eyni tempdə inkişaf etdirə bilmədilər. Bu isə internetin qaranlıq tərəfində fəaliyyət göstərən manipulyativ qruplar üçün meydan açdı.

Anonimlik, qapalı qruplar, məxfilik və istifadəçi identifikasiyasının yetərsizliyi təhlükəli niyyətləri olan şəxslər üçün misilsiz imkanlar demək idi. İnsanların real kimliyini gizlədə bilməsi, virtual profillər vasitəsilə istənilən rola girməsi və heç bir məsuliyyət daşımadan hərəkət etməsi psixoloji manipulyasiyanın sürətlə artmasına səbəb oldu.

O dövrdə sosial platformaların təhlükəsizlik alqoritmləri çox zəif idi. Yəni sistem avtomatik şəkildə təhlükəli paylaşımları, zorakılığın təbliğini, manipulyasiya qruplarını və ya şübhəli davranışları tanıya bilmirdi. Şirkətlərin diqqəti təhlükəsizlikdən çox, istifadəçi sayını artırmağa yönəlmişdi. Reklam bazarı böyüyür, sosial şəbəkələrin gücü artırdı və texnologiya şirkətləri üçün prioritet biznesin genişlənməsi idi. Məhz buna görə, təhlükəsizlik sistemləri arxa plana keçdi və yaranan boşluq radikallaşma, zorakılığın təşviqi və xüsusilə yeniyetmələrə yönəlmiş təhlükəli oyunların sürətlə yayılması üçün münbit şərait yaratdı.

İnternetin nəzarətsiz genişləndiyi dövrdə ən təhlükəli tendensiyalardan biri azyaşlıları və yeniyetmələri hədəf alan "ölüm oyunları" oldu. "Mavi balina", "Momo çağırışı" və bu kimi oyunlar qlobal təhlükəyə çevrildi. Bu oyunlar sıradan əyləncə formatı deyil, psixoloji manipulyasiya, təzyiq, təhdid və sınaq mərhələləri üzərində qurulan sistemli mexanizmlərdir. Belə ki, istifadəçilərə sirli, maraqlı və ya xüsusi görünən tapşırıqlar verilir. Bu tapşırıqlar çox vaxt sadə və təhlükəsiz görünür, məsələn, müəyyən şəkilləri çəkmək, videolar paylaşmaq, gecə saatlarında mesajlara cavab vermək və s.

Daha sonra tapşırıqlar get-gedə mürəkkəbləşir və psixoloji təzyiq artır: qorxu, utanc, təcrid, günah hissi və ya hədə-qorxu vasitəsilə yeniyetmə üzərində nəzarət güclənir. İstifadəçi özünü kənarda, anlayışsız, dünyadan təcrid olunmuş hiss etməyə başlayır. Bu mərhələdə oyunun idarəçiləri psixoloji manipulyasiyadan istifadə edərək, yeniyetmənin müqavimətini zəiflədir, özünə inamını sarsıdır və onu hətta ölümcül tapşırıqları yerinə yetirməyə hazırlayır. Son mərhələdə addım özünəqəsd olur. Bütün əvvəlki mərhələlər yeniyetməni emosional baxımdan həssas və asan manipulyasiya olunan vəziyyətə gətirmək üçün qurulub. Oyunların qapalı şəkildə yayılması, anonim administratorların mövcudluğu və iz buraxmayan əlaqə kanallarından istifadə olunması onların həm aşkarlamasını, həm də qarşısının almasını daha da çətinləşdirir.

Təəssüf ki, bu kimi hallar zaman-zaman ölkəmizdə də öz mənfi təsirini göstərib. Bir neçə ay əvvəl Yardımlıda məktəblinin özünə qəsdi, paytaxtda müəyyən şəxslər tərəfindən şagirdlərə naməlum oyun kartlarının paylanması, bir neçə gün öncə 13 yaşlı məktəblinin ani və müəmmalı ölümü ictimaiyyətin diqqətini bu məsələ üzərinə çəkdi.

Belə halların baş verməsi göstərir ki, yeniyetmələr bu oyunların psixoloji manipulyasiya olduğundan kifayət qədər məlumatlı deyillər.

**Psixoloq Aygül Məlikova bildirdi ki, yeniyetməlik dövründə uşaqlar "mən kiməm?" sualına cavab tapmağa çalışırlar. Bu dövrdə onlara dəstək olmaq vacibdir:**

– Riskli davranışlar bəzən daxili ehtiyaclarla əlaqədardır: "Mən cəsuram, mən güclüyəm" kimi impulslar onların həssaslığına səbəb olur. Sosial təsir və qrup təzyiqi də mühüm rol oynayır. Yeniyetmələr çox vaxt "hamı edir, mən də edim" prinsipi ilə yanaşır və qrupdan kənarda qalmaq qorxusu onları riskli davranışlara yönləndirir. Eləcə də emosional boşluq, dəyərsiz,



nəzarətsiz hiss etmə və həyəcan axtarışı təhlükəli oyunlara meyli gücləndirir. Beyin hələ tam inkişaf etmədiyi üçün frontal nahiyə – məsuliyyət və nəticələri düzgün qiymətləndirməyə mane olur.

Oyunların idarəçiləri uşaqlar üzərində psixoloji manipulyasiyanı ustalıqla tətbiq edir, ilk mərhələdə uşağın etibarını qazanır, dinləyir, anlayırmış kimi davranırlar. Bu mərhələdə uşaq "o məni anlayır" düşüncəsinə qapılır və emosional asılılıq formalaşır. O, getdikcə kurator olmadan qərar verə bilmədiyini hiss edir. İlk tapşırıqlar adətən sadə görünür: Məsələn, "bu gecə saat 3-də ayıl".

Sonrakılar daha qəribə olur: sözləri neqativ cümlələrdən ibarət musiqilər dinləmək, qəribə davranışlar sərgiləmək, rəsmlər çəkmək... Sonda isə təhlükəli və ölümcül addımlara sıra gəlir. Psixologiyada buna "qaynar suya tədricən salınmış qurbağa effekti" deyilir. Uşaq təhlükəni hiss etmədən irəliləyir. Kuratorlar utandırma və qorxu vasitəsilə emosional təzyiq tətbiq edir: "Geri çəkilsən, qorxaqsan" kimi sözlər yeniyetmənin zəif tərəflərini hədəfə alır.

Bu oyunlara qoşulan uşaqlarda ilk psixoloji əlamətlər çox vaxt hiss olunmur, amma diqqətlə baxdıqda sezilir. Onlar daha çox qapanır, tənhalığa çəkilir, otağında uzun müddət qalır, ünsiyyətdən qaçırlar. Yuxu pozuntuları, səhər çox yorğun olmaq, səbəbsiz aqressiya, emosional partlayışlar, qaranlıq mövzulara maraq, depressiv şəkillər çəkmək, "qara" musiqilərə meyil və özünə zərər müşahidə olunur. Telefonla bağlı davranışlarda gizlilik, ekranı tez bağlamaq və valideynlə üzbəüz telefona baxmaq istəməmək də xəbərdarlıq siqnallarıdır. Birdən-birə dəyişən davranışlar, məsələn, daha susqun, ya da əksinə, çox həyəcanlı olmaq da təhlükənin əlamətidir.

Valideyn–övlad münasibətində yaranan boşluqlar riski daha da artırır. Emosional yaxınlığın azlığı uşağı internetdə onunla söhbət edən birini axtarmağa vadar edir. Həddən artıq sərt tərbiyə uşağın problemləri qorxudan gizlətməsinə səbəb olur. Valideynin diqqətsizliyi, şərtli sevgi və nəzarətsiz internet istifadəsi isə uşağın manipulyasiyaya qarşı müdafiəsini zəiflədir. Belə boşluqlar kuratorlar üçün ən böyük fürsətdir və riskləri artırır. Bu səbəbdən təhlükəli oyunlara qoşulma yalnız uşağın disiplinsizliyi ilə izah edilə bilməz. Bu, yeniyetməliyin psixoloji xüsusiyyətləri, valideyn–övlad münasibətindəki boşluqlar və internetdəki nəzarətsiz mühitin yaratdığı kompleks və təhlükəli prosesdir.



**Azərbaycan İnformasiya və Kommunikasiya Texnologiyaları Sənayesi Assosiasiyası İdarə Heyətinin sədri, İKT eksperti Elvin Abbasov qeyd etdi ki, təhlükəli oyunların yayılmaları üçün xüsusi kanallardan istifadə olunur:**

– "Telegram", "WhatsApp" və "Discord" kimi mesajlaşma platformaları bunun üçün ideal sayılır, çünki platformalar şifrələmə təqdim edir. Yəni mesajlar yalnız göndərən və alıcı tərəfindən oxuna bilir, üçüncü tərəf, hətta, platformanın özü belə bunları görmür.

İlkin cəlbetmə mərhələsi isə daha açıq sosial media platformalarında baş verir. Məsələn, "Instagram" və "TikTok"da yayılan trend videolar və ya şifrələnmiş məzmun vasitəsilə uşaqlar oyunlara cəlb olunurlar. Təhlükəli oyunların yayılmasının qarşısını almaq üçün sosial media platformaları süni intellekt əsaslı sistemlərdən istifadə edirlər. Bu sistemlər xüsusi açar sözləri izləyir, əgər "ölüm", "sirr" sözlərindən çox istifadə olunursa, hesabların qeyri-adi fəaliyyəti analiz edilir.

Yəni yeni yaradılmış anonim hesablar birdən-birə çox sayda gənc istifadəçiyə mesaj göndərirsə, sistem bunu şübhəli davranış kimi qeydə alır. Belə texnoloji yanaşmalar riskləri erkən aşkar etməyə və uşaqları potensial təhlükədən qorumağa imkan verir. Kuratorlar isə özlərini hüquqi və texniki təqibdən qorumaq üçün anonimlik vasitələrindən istifadə edirlər. Onlar coğrafi mövqelərini gizlədir, birdəfəlik e-poçtlar vasitəsilə fəaliyyət göstərirlər. Bu üsullar onların rəqəmsal izini silməyə və təqibi beynəlxalq səviyyədə çətinləşdirməyə xidmət edir.

Azərbaycanda belə oyunlarla bağlı ciddi hallar xüsusilə 2016-2019-cu illərdə müşahidə olunub. "Mavi balina" bu dövrdə uşaq auditoriyasına ciddi təsir göstərmişdi. Həmin vaxt hüquq-mühafizə orqanları və məktəblər valideynləri xəbərdar etmək üçün fəal tədbirlər həyata keçirmişdi. Uşaqların təhlükəsizliyi üçün həm platformaların texniki həlləri, həm də valideynlərin diqqətli izləməsi və maarifləndirmə tədbirləri vacibdir.

**AR Vəkillər Kollegiyasının üzvü vəkil Amid Əsgərov vurğuladı ki, hüquqi çərçivə olmadan kuratorların fəaliyyətini dayandırmaq, məsuliyyətə cəlb etmək və oyunların yayılmasını effektiv şəkildə məhdudlaşdırmaq mümkün deyil:**



– "Uşaqların zərərli informasiyadan qorunması haqqında" qanunun 1.0.12-ci maddəsinə əsasən uşaqların həyat və sağlamlıqlarına təhlükə yaradan əməlləri təbliğ edən informasiya onların həyatına, fiziki və psixi sağlamlığına təhlükə yaradır, o cümlədən intihara, odlu silah və partlayıcı maddələrdən, narkotik vasitələr, psixotrop maddələr və onların prekursorlarından, alkoqollu və energetik içkilərdən, habelə tütün məmulatlarından istifadəyə təhrik edir.

Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin 388-2-ci "Uşaqların zərərli informasiyadan qorunması haqqında qanunvericiliyin pozulması" maddəsinə əsasən fiziki şəxslər 500 manatdan 100 manatadək, vəzifəli şəxslər 1500 manatdan 2500 manatadək, hüquqi şəxslər 3000 manatdan 4000 manatadək cərimə edilirlər.

Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 125-ci "Özünü öldürmə həddinə çatdırma" maddəsinə əsasən təqsirkardan maddi, xidməti və ya sair cəhətdən asılı olmuş zərərçəkmiş şəxslə amansız rəftar etmə, ləyaqətini alçaltma, hədə-qorxu gəlmə yolu ilə özünü öldürmə və ya özünü öldürməyə cəhd həddinə çatdırma 3 ildən 7 ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

Uşaqların təhlükəsizliyini qorumaq həm valideyn nəzarəti, həm psixoloji maarifləndirmə, həm də hüquqi müdafiə ilə dəstəklənməlidir. Təhlükəli oyunların yayılmasının qarşısını almaq üçün bu sahələrin hər biri bir-birini tamamlamalı və uzlaşdırılmış şəkildə fəaliyyət göstərməlidir. Belə yanaşma uşaqları həm risklərdən qoruyur, həm də onların internet mühitində təhlükəsiz və sağlam inkişafına zəmin yaradır.

***Fidan ƏLİYEVA***
***XQ***

---

# Çağdaş müəllimin peşə kimliyi

## *İndiki "dərs yükü", yoxsa sabahkı "tam ştat"?*

**Müəllimlərin gündəlik 8 saatlıq tam iş rejiminə keçirilməsi təklifi son günlərin ən çox müzakirə olunan mövzularındandır. Elm və təhsil naziri Emin Əmrullayevin ifadə etdiyi "tam ştatlı müəllim" anlayışı bu təşəbbüsün mahiyyətini açır.**

Nazir qeyd edir ki, müəllim məktəbdə özünü, sadəcə, dərs deyən şəxs deyil, tam hüquqlu pedaqoq kimi hiss etməlidir. İlkin olaraq, 20 min müəllimin bu modelə cəlb olunması planlaşdırılır və bu, dəyişikliklərin sistemli olacağına zəmin yaradacaq. Lakin bu model bəzi suallar da doğurur. Çünki burada artıq təkcə iş saatı deyil, təhsilin mahiyyəti, müəllimin sistemdəki rolu və şagirdin bilik səviyyəsi də önəm daşıyır.

Müəllimin məktəbdə daha çox qalması təhsilin keyfiyyətinin artmasına xidmət edəcəkmi? Dünya təcrübəsi göstərir ki, səmərəli təhsil vaxtın necə qurulması ilə ölçülür. Bu baxımdan, şagirdin dərs yükünün artırılması, proqramların optimallaşdırılması, tədris mühitinin yenilənməsi kimi əsaslı addımlar paralel getməzsə, yalnız müəllimin iş rejiminin dəyişməsi təhsil keyfiyyətinə ciddi təsir etməz.

Bu modelin sual doğuran tərəflərindən biri də müəllimin onu necə qarşılamasıdır. Əgər iş vaxtı artırılır, lakin əməkhaqqı, sosial təminatlar və peşəkar inkişaf imkanları eyni səviyyədə qalırsa, bu, yorğunluq və müəllimin həvəsdən düşməsinə səbəb ola bilər. Modelin müsbət tərəfləri ilə yanaşı, qayğıları da var. Bu, məktəblərin infrastrukturu ilə bağlıdır. Böyük şəhər məktəblərində kabinet sistemi, müəllim otaqları, internet və texniki imkanlar müəyyən dərəcədə mövcud olsa da, bir çox kənd və kiçik məktəblərdə müəllimin gün ərzində işləməsi üçün normal şərait yoxdur.

Digər məsələ əlavə vaxtın formal iclaslar, lazımsız hesabatlar və bürokratik tapşırıqlarla doldurulmasıdır. Dünya təcrübəsi göstərir ki, Avstraliya və Böyük Britaniya kimi ölkələrdə müəllimlərin iş vaxtının həddindən artıq administrativ işlərlə yüklənməsi həm stresi artırır, həm də peşədən kənarlaşma riskini yüksəldir. Ona görə də, Azərbaycan modelində əlavə vaxt tədrisin keyfiyyətinə yönəldilə bilər.



8 saatlıq "tam ştatlı müəllim" modelinin gündəmə gəlməsi Azərbaycan təhsilində uzun illərdir mövcud olan struktur ziddiyyəti – müəllimin real iş vaxtı ilə əməkhaqqı arasında uyğunsuzluğu aradan qaldırmaqla bağlıdır. İndiyə qədər məktəbdə müəllim əməyinin böyük hissəsi dərs saatı ilə ölçülürdü. Dərsə hazırlıq, yazı işlərinin yoxlanılması, fərdi məşğələlər, valideynlərlə ünsiyyət, metodik fəaliyyət və məktəbdaxili layihələr isə faktiki olaraq "görünməyən əmək" statusunda qalırdı. Elm və Təhsil Nazirliyinin yeni yanaşması məhz bu görünməyən əməyin institusional şəkildə tanınmasını hədəfləyir.

Rəsmi məlumatlara əsasən, Azərbaycan müəllimlərinin böyük bir hissəsinin dərs yükü həftə ərzində 20 saatdan artıqdır, lakin bu, müəllimin məktəbdə keçirdiyi faktiki vaxtı tam əhatə etmir. İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı (OECD) tərəfindən açıqlanmış TALIS (Teaching and Learning International Survey) tədqiqatlarında Azərbaycan müəllimlərinin həftəlik iş yükü orta hesabla 24-25 saat kimi təqdim olunur ki, bu da iştirakçı ölkələr arasında ən aşağı göstəricilərdəndir. Bu rəqəm reallığı tam əks etdirmir, çünki müəllimlərin dərsdənkənar fəaliyyəti ölçülmür və sistem tərəfindən tanınmır.

Yeni modeldə isə müəllimin həftəlik 30-36 saatlıq iş vaxtı çərçivəsində 18-24 saat dərs, qalan müddətdə isə tədrisin keyfiyyətinə birbaşa təsir edən fəaliyyətlərin nəzərdə tutulması, statistik baxımdan da Azərbaycanı OECD ölkələrinin orta göstəricilərinə yaxınlaşdırır.

Məsələn, Finlandiyada müəllimlər həftədə orta hesabla 32–34 saat işləyir, bunun yalnız təxminən 18–20 saatı dərsdir, Almaniyada ümumi iş vaxtı 40 saata yaxın olsa da, dərs yükü bundan xeyli azdır. Cənubi Koreyada müəllimlərin illik dərs saatı OECD ortalamasından aşağı, amma şagird nailiyyətləri PISA nəticələrinə görə dünya liderləri sırasındadır. Bu müqayisələr göstərir ki, keyfiyyət daha çox dərsə ayrılan vaxtdan kənar peşəkar fəaliyyətin düzgün təşkil edilməsi ilə formalaşır.

Hüquqi çərçivə baxımından da Elm və Təhsil Nazirliyinin mövqeyi əsaslıdır. Azərbaycan Respublikası Əmək Məcəlləsinin 91-ci maddəsində gündəlik 8 saatlıq, həftəlik 40 saatlıq iş rejimi ümumi norma kimi müəyyən edilib. Eyni zamanda, Məcəllənin 93-cü maddəsi əmək funksiyasının xüsusiyyətlərinə görə həftəlik iş vaxtının daha qısa müəyyən edilə biləcəyini nəzərdə tutur ki, bu da təhsil sahəsində geniş tətbiq olunan 36 saatlıq pedaqoji iş vaxtına hüquqi baza yaradır.

"Təhsil haqqında" Qanunun 32-ci maddəsində isə müəllim əməyinin qiymətləndirilməsində differensial yanaşmanın tətbiqi açıq şəkildə qeyd olunur və bu, yalnız dərs saatına deyil, pedaqoji fəaliyyətin bütün komponentlərinə görə ödənişin mümkünlüyünü təsbit edir. Bu normativ baza göstərir ki, problem qanunvericilikdə boşluqdan yox, mövcud qanunların uzun müddət ənənəvi, dar çərçivədə şərh olunmasından doğub. Nazirliyin təşəbbüsü həmin qanunların məntiqinə uyğun olaraq yeni idarəetmə modelini formalaşdırmaq cəhdi kimi dəyərləndirilməlidir.



**Təhsil eksperti Kamran Əsədov bildirdi ki, maaş məsələsi bu modelin ağrılı, eyni zamanda, perspektivli tərəfidir:**

– Dövlət Statistika Komitəsinin son məlumatlarına görə, ölkə üzrə orta aylıq əməkhaqqı 1000 manatdan artıqdır. Hazırkı orta müəllim maaşı isə bu rəqəmdən xeyli aşağıdır. Elm və Təhsil Nazirliyi tam ştatlı müəllim üçün hədəf olaraq ölkə üzrə orta maaşdan azı iki dəfə yüksək əməkhaqqı gündəmə gətirməklə müəllim peşəsinin sosial statusunu yüksəltməyi qarşıya məqsəd qoyur. Bu yanaşma beynəlxalq təcrübə ilə də uzlaşır: OECD ölkələrində müəllim maaşları bir çox hallarda milli orta əməkhaqqına yaxın və ya ondan yuxarıdır, xüsusən karyeranın orta və son mərhələlərində bu fərq daha da artır. Maaşın saat əsaslı deyil, iş vaxtı əsaslı sistemə keçməsi müəllimi süni şəkildə dərs saatı artırmağa məcbur etmir, əksinə, stabil gəlir fonunda daha keyfiyyətli dərsə hazırlaşmaq, zəif şagirdlərlə işləmək və məktəbin inkişafına töhfə vermək imkanlarını genişləndirir. Şagird üçün isə bu, məktəbdə daha əlçatan müəllim, daha çox fərdi dəstək və repetitorluğa alternativ imkanlar deməkdir.

Müqayisəli yanaşma göstərir ki, Azərbaycan üçün təklif olunan model nə ekstremal, nə də riskli sayılmalıdır. Finlandiya, Estoniya, Sinqapur kimi uğurlu sistemlərdə müəllim məktəbdə dərsdən daha artıq vaxt keçirir, amma bu vaxt peşəkar inkişaf, komanda işi və şagirdyönümlü fəaliyyətlərlə balanslaşdırılır. Azərbaycan modeli də eyni fəlsəfəni paylaşır, sadəcə, yerli reallıqlara uyğun mərhələli tətbiq tələb edir. Rayon və kənd məktəblərində isə hibrid həllərin, müəllimin bir neçə məktəb arasında bölüşdürülməsi və ya tam ştatın fərqli normativlərlə tətbiq edilməsi kimi mexanizmlərin saxlanılması sosial ədalət baxımından daha məqsədəuyğundur.

**252 saylı tam orta məktəbin riyaziyyat müəllimi Sevinc Cəfərova** qeyd etdi ki, müəllimin işi təkcə sinfə girib dərs demək deyil. Dərsə hazırlıq, şagirdlə fərdi iş, zəif oxuyan uşaqlarla əlavə məşğələlər, valideynlərlə ünsiyyət – bunların hamısı işimizin görünməyən tərəfləridir:

– Bu model həmin "görünməyən əməyin" sistemli şəkildə tanınmasına imkan yarada bilər. Əgər düzgün tətbiq olunarsa, bu modelin təhsil sisteminə mütləq təsiri olacaq. Müəllim məktəbdə daha planlı şəkildə vaxt keçirərsə, dərslərin keyfiyyəti də yüksələr. Xüsusilə, riyaziyyat kimi fənlərdə şagirdlə fərdi iş çox önəmlidir.

Bu rejim həmin işi daha sistemli etməyə imkan yarada bilər. Eyni zamanda, bu model sadəcə "məktəbdə daha çox qalmaq" müəllimin peşəkarlığının və nüfuzunun artırılması kimi başa düşülməlidir. Müəllim məktəbdə nə qədər dəyərli hiss edərsə, şagird də bir o qədər keyfiyyətli təhsil alar.

***Ləman TƏHMƏZ***
***XQ***

*Zəfər paradından 5 il keçir*

# Vətən müharibəsində Qələbənin hərbi-siyasi təntənəsi

**2020-ci il dekabr ayının 10-da Bakının Azadlıq meydanında Azərbaycan ərazilərinin 30 illik işğalına son qoyan Vətən müharibəsindəki tarixi qələbəyə həsr edilmiş Zəfər paradı keçirildi. Öz möhtəşəmliyi ilə seçilən bu parad Azərbaycanın qalib səsini bütün dünyaya bəyan etməklə həm də Azərbaycan xalqının, onun ordusunun böyük qələbəsinin, habelə bu qələbənin təşkilatçısı olan müzəffər Ali Baş Komandan İlham Əliyevin mübariz qətiyyətinin təntənəsinin parlaq ifadəsi oldu.**

Zəfər paradı, eyni zamanda, Azərbaycan–Türkiyə qardaşlığının təntənəsinin ifadəsi idi. Çünki Zəfərə aparan yolda Türkiyə hər zaman siyasi-mənəvi dəstəyi ilə Azərbaycanın yanında oldu və ölkəmizi tək buraxmadı. Bunu Zəfər paradındakı nitqində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev də xüsusi olaraq qeyd etdi: "Vətən müharibəsinin ilk günlərindən, daha doğrusu, ilk saatlarından biz Türkiyənin dəstəyini hiss edirdik. Türkiyənin Cümhurbaşqanı Rəcəb Tayyib Ərdoğan ilk saatlardan Azərbaycanın haqq işinə öz dəstəyini verdi. Onun açıq, birmənalı və sərt açıqlamaları Azərbaycan xalqını çox sevindirdi. Mənim qardaşım demişdir ki, bu müharibədə Azərbaycan haqlıdır, demişdir ki, Azərbaycan tək deyil və Türkiyə hər zaman Azərbaycanın yanındadır".



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan paradın keçirildiyi Azadlıq meydanındakı tribunada yer aldıqdan sonra hərbi orkestr "Azərbaycan fanfarası"nı ifa etdi. Müdafiə naziri, general-polkovnik Zakir Həsənov hərbi paradın hazır olması haqqında Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyevə və Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğana raport verdi. Dövlət başçıları əsgərləri salamladıqdan sonra hərbi orkestr Azərbaycanın və Türkiyənin dövlət himnlərini ifa etdi. Bunun ardınca Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev parad iştirakçıları qarşısında nitq söylədi.

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev nitqinin əvvəlində Vətən müharibəsində şəhid olanların xatirəsinin bir dəqiqəlik sükutla xatırlanmasını xahiş etdi. Müharibənin gedişində və onun nəticələrinə həsr olunmuş çıxışlarında, söhbətlərində İlham Əliyev, bir qayda olaraq Vətən müharibəsinin və eləcə də Azərbaycanın ərazi bütövlüyü uğrunda həyatlarını qurban vermiş insanların xatirəsini böyük ehtiramla yad edir, zəfərin əldə edilməsində onların xidmətlərini yüksək qiymətləndirirdi.

Şuşa şəhərinin azad edilməsi xəbərini alandan sonra da İlham Əliyev bu tarixi xəbərin sevincini Azərbaycan xalqının ümummilli lideri Hedər Əliyevin məzarını və Şəhidlər xiyabanını ziyarət etməklə bölüşmüşdü. Şəhidlər xiyabanında etdiyi çıxışında İlham Əliyev Vətən şəhidlərinin xatirəsini belə anırdı: "Biz bu Qələbəni döyüş meydanında qazandıq, şəhidlər verərək bu Qələbəni qazandıq. Allah bütün şəhidlərimizə rəhmət eləsin! Həm birinci Qarabağ, həm ikinci Qarabağ – Vətən müharibəsi adlandırdığımız müharibədə şəhid olmuş bütün şəhidlərimizə Allahdan rəhmət diləyirəm, onların yaxınlarına səbir diləyirəm. Yaralı soydaşlarımıza Allahdan şəfa diləyirəm. Biz xalqımızın, əsgərlərimizin, zabitlərimizin canı, qanı bahasına torpaqlarımızı işğalçılardan azad edirik".

Ali Baş Komandan İlham Əliyevin bu paradda söylədiyi nitq həm Ermənistanın Azərbaycana qarşı izlədiyi işğalçılıq siyasətinin tarixi, mahiyyəti, həm münaqişənin nizamlanması ətrafında görülən işlərin nəticələri, həm Azərbaycan dövlətinin bu məsələ ilə bağlı dəyişməz mövqeyi və həm də Vətən müharibəsində Zəfərin əldə edilməsi üçün aparılan mübarizənin nəticələri haqqında Azərbaycan xalqına, dünya azərbaycanlılarına və Azərbaycanın dostlarına ətraflı məlumat təqdim etdi. Bu nitq eyni zamanda dünya ictimaiyyətinə, Azərbaycanın haqq mübarizəsinə göz yuman dünya birliyinə ünvanlanmış bir nitq idi. Prezident İlham Əliyev, eyni zamanda, öz nitqində Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsindən sonra qarşıda dayanan vəzifələr haqqında proqram xarakterli bəyanatlar verdi.

Azərbaycan xalqı, Azərbaycanın dövlət rəhbərliyi cəbhədə atəşkəsin elan edilməsindən sonra uzun müddət münaqişənin dinc və danışıqlar yolu ilə həllinə ümidini kəsmədi. Lakin İlham Əliyevin də qeyd etdiyi kimi bu ümidlər bir nəticə vermədi. Bir tərəfdən dünyanın böyük təşkilatları və dövlətləri Azərbaycanın ərazi bütövlüyünü təsdiqlədiklərini bəyan etsələr də, Ermənistana qarşı ən adi təzyiqlər göstərilmədi. Ermənistan rəhbərliyi isə onun üçün əlverişli olan beynəlxalq mühitdən faydalanmaqla aparılan danışıqlara qarşı məsuliyyət nümayiş etdirmədilər.

Vətən müharibəsinin başlanması ərəfəsində hətta Ermənistanın baş naziri bütün dünyaya "Qarabağ Ermənistandır" mesajını çatdırmaqla, əslində danışıqlara son qoydu. Bundan sonra bütün dünyanın gözü qarşısında Azərbaycanın işğal olunmuş ərazilərinin daha açıq və qeyri-qanuni şəkildə məskunlaşdırılmasına başlandı. Bunlarla da kifayətlənməyən Ermənistan rəhbərliyi Azərbaycana qarşı açıq hərbi təxribatlar həyata keçirməkdən də çəkinmədi. İlham Əliyev öz nitqində bu məqama da toxundu.

Yalnız 2020-ci ildə Ermənistan Azərbaycana qarşı üç genişmiqyaslı təxribat-diversiyaya əl atmışdı: 2020-ci ilin iyul ayında dövlət sərhədinin Tovuz rayonu ərazisində yaşayış məntəqələri və müdafiə mövqeləri erməni hücumuna məruz qaldı. Avqust ayında Tərtər istiqamətində Azərbaycanın mövqeləri üzərinə diversiya qrupu göndərildi və nəhayət 2020-ci ilin sentyabr ayında bir neçə istiqamətdən Azərbaycanın yaşayış məntəqələri üzərinə hücumlar başladı.

Bu təxribatlardan əlavə, Ermənistan sürətli silahlanmanı davam etdirirdi. Azərbaycan Prezidenti şübhə etmirdi ki, bununla Ermənistan Azərbaycana qarşı yeni müharibəyə hazırlaşır. İlham Əliyev bu barədə BMT-nin Baş Assambleyasının kürsüsündən bəyanat verdiyini də bildirirdi.

Azərbaycan tərəfi Ermənistanın davam edən təcavüzkarlığını yalnız müşahidə etməklə kifayətlənmirdi. Ermənistanın davam edən işğalçılığının qarşısının alınması üçün Azərbaycan rəhbərliyi qətiyyətli bir siyasət izləyirdi və həmin qətiyyəti İlham Əliyevin Zəfər paradındakı nitqində də görmək mümkündür. Onun prezidentliyi dövründə həm beynəlxalq təşkilatların və ictimaiyyətin Dağlıq Qarabağ münaqişəsinin mahiyyəti ilə bağlı ətraflı məlumatlandırılması istiqamətində səmərəli işlər görüldü.

Dövlətimizin başçısı bildirirdi ki, işğal altında olan ərazilərin hərbi yolla azad edilməsi variantına hazır olmaq istiqamətində əməli addımlar atılıb: "Biz bu illər ərzində güc toplayırdıq, həm siyasi müstəvidə, beynəlxalq təşkilatlar çərçivəsində, həm də ölkə daxilində iqtisadiyyatımızı gücləndirirdik, biz ordumuzu gücləndirirdik. Bunun nəticəsində Azərbaycan son illər ərzində çox uğurlu inkişaf yolu keçmişdir və ildən-ilə bizim üstünlüyümüz özünü daha qabarıq şəkildə büruzə verirdi. Ermənistan bizimlə rəqabət apara bilmədi. Mən son 17 il ərzində dəfələrlə demişdim ki, Ermənistan öz xoşu ilə bizim torpaqlarımızdan işğalçı qüvvələrini çıxarmasa, biz bu məsələni hərbi yollarla həll edəcəyik. Mən 2003-cü ildə Prezident vəzifəsinə seçiləndə Konstitusiyamıza və müqəddəs Qurani-Kərimə əl basaraq and içmişdim ki, Azərbaycanın ərazi bütövlüyünü qoruyacağam".

Nəhayət, belə bir qərar qəbul edildi. 2020-ci il sentyabr ayının 27-də baş verən növbəti erməni hərbi təxribatlarından sonra Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev bu təxribatlara və bütünlükdə davam edən işğala son qoyulması qərarını verdi: "Biz dedik yetər artıq, bu işğala son qoyulmalıdır və son qoyulacaqdır. Mən Ali Baş Komandan kimi əmr verdim ki, Azərbaycan əsgəri irəli, torpağımızı azad etməliyik, işğala son qoymalıyıq, işğalçını cəzalandırmalıyıq və belə də oldu. Azərbaycan 44 gün ərzində istədiyinə nail oldu, ədaləti bərpa etdi".

Zəfər paradında etdiyi nitqində İlham Əliyevin bir Ali Baş Komandan kimi qətiyyətini, mübarizliyini, ardıcıllığını görmək mümkündür. Hərb işinin təcrübəsi də göstərir ki, müharibələrin uğurla başa çatdırılmasında ali baş komandanların qətiyyətli təşkilatçılığı xüsusi əhəmiyyət kəsb edir. Dünya təcrübəsində qələbə ilə başa çatmış elə bir müharibə tapmaq olmaz ki, həmin qələbə Ali Baş Komandanın rəhbərliyi olmadan əldə edilmiş olsun. Vətən müharibəsinin nəticələri də bunun təsdiqi ola bilər.

Ölkə rəhbəri qeyd etdi ki: "Mən dəfələrlə demişdim ki, Azərbaycan xalqının səbri tükənib və əgər Ermənistan işğal edilmiş torpaqlardan öz xoşu ilə çıxmasa, biz onları oradan qovacağıq, onlar rədd olmalıdırlar bizim torpaqlarımızdan! Mən bunu müharibədən əvvəl və müharibə dövründə demişəm, xalqa müraciətlərimdə demişəm, xarici mətbu orqanlara verdiyim müsahibələrdə demişəm. Demişəm ki, Ermənistan bizim torpaqlarımızdan öz xoşu ilə rədd olmalıdır, etiraf etməlidir və çıxmalıdır. Əks-təqdirdə sona qədər gedəcəyik və sona qədər getdik. Ona görə biz döyüş meydanında qələbə qazandıq. Ondan sonra, siyasi müstəvidə qələbə qazandıq, düşməni məcbur etdik ki, Kəlbəcər, Laçın və Ağdam rayonlarını azad etsin və bizim torpaqlarımızı tərk etsin. Bu zəfər tarixi zəfərdir".




Böyük Zəfərin əldə edilməsində İlham Əliyev qətiyyətinin danılmaz rolunu paradda nitq söyləmiş Türkiyə Respublikasının Prezidenti Rəcəb Təyyib Ərdoğan da məmnunluqla etiraf edirdi: "Azərbaycanın həm hərbi, həm də diplomatiya sahəsində əldə etdiyi bu uğurda ən böyük paylardan biri, şübhəsiz ki, əziz qardaşım cənab Prezident İlham Əliyevə aiddir. Qardaşım İlham Əliyev bununla mərhum Heydər Əliyevin ona vəsiyyət olaraq etdiyi arzusunu da yerinə yetirmişdir. Fürsətdən istifadə edərək güclü Azərbaycanın əsasını qoyan ümummilli lider Heydər Əliyevi də burada rəhmətlə yad edirəm. Azərbaycan qardaşım İlham Əliyevin qətiyyətli rəhbərliyi ilə, inşallah, dastan yazmaqda davam edəcək".

Prezident İlham Əliyevin bu qətiyyəti əslində, Vətən müharibəsinin xarakterini müəyyənləşdirən bir keyfiyyət oldu. Xalq, ordu Azərbaycan Prezidentinin ətrafında birləşərək Vətən müharibəsinə qalxdı və 44 gün ərzində tarixə iz salacaq bir qəhrəmanlıq nümunəsi ortaya qoydu. Düzgün qurulmuş siyasət, aydın hədəflər, yetərli güc və dəstək, bir də İlham Əliyevin Ali Baş Komandan kimi təşkilatçılıq məharəti nəticəsində 30 ilə yaxın davam edən erməni işğalına son qoyuldu. Başlıcası isə İlham Əliyevin qeyd etdiyi kimi, Azərbaycan əsgərləri və zabitləri böyük şücaət göstərərək şərəfli bir missiyanı yerinə yetirdilər.

İlham Əliyev bu böyük zəfərin əldə edilməsində Azərbaycan əsgərinin, zabitinin, Azərbaycan xalqının fədakarlığını yüksək qiymətləndirirdi. Qəhrəmanlığı ilə daim irəliləyən Azərbaycan əsgəri addım-addım torpaqları azad etməklə Ermənistan silahlı qüvvələrinə ağır zərbələr endirdi. Bu qələbənin dəyəri həm də onda idi ki, Azərbaycan əsgər və zabitləri Ermənistanın hərbi-siyasi rəhbərliyinin 30 il ərzində işğal olunmuş ərazilərdə yaratdığı güclü müdafiə sistemini böyük məharətlə yara bilmişdilər.

Göstərilən bu məharət erməni hərbi-siyasi rəhbərliyini də heyrətə salmışdı və bu hünəri görəndən sonra Ermənistan rəhbərliyi Azərbaycan rəhbərliyinə təzyiqlər göstərilməsi üçün dünyanın çoxsaylı dövlət başçılarına davamlı müraciətlər göndərməyə başladı. Azərbaycanın əsgər və zabitləri isə dövlət bayrağını bir-birinin ardınca azad edilmiş yaşayış məntəqələrində dalğalandırdılar. Nəhayət, Azərbaycan bayrağı Şuşada dalğalanmağa başladı.

Silahlı Qüvvələrin Ali Baş Komandanı kimi İlham Əliyev Şuşanın azad edilməsini şanlı mübarizənin yekunu kimi qiymətləndirirdi: "Şanlı müharibəmizə Şuşa şəhərində yekun vuruldu. Noyabrın 8-də Şuşa şəhərinin azad edilməsi tarixi nailiyyətimizdir. Şuşa işğal altına düşmüş birinci şəhərimiz idi və işğaldan azad edilən sonuncu şəhər oldu. Şuşa işğaldan azad ediləndən sonra düşmənin beli qırıldı, düşmən təslim olmağa məcbur qaldı. Şuşanın azad edilməsi tarixi hadisədir".

Məhz Şuşa şəhəri azad edildikdən sonra Ermənistan rəhbərliyi Azərbaycanla müharibədə məğlub olduğunu etiraf etməklə kapitulyasiya aktını imzalamalı oldu. 2020-ci il noyabr ayının 10-da Azərbaycan və Rusiya prezidentləri və Ermənistanın baş naziri tərəfindən imzalanmış üçtərəfli bəyanata görə cəbhə xəttində atəş dayandırıldı, Ermənistan rəhbərliyi döyüşsüz olaraq öz qoşunlarını Ağdam, Laçın və Kəlbəcər rayonlarından geri çəkmək öhdəliyini öz üzərinə götürdü. Bununla bir güllə də atılmadan bu üç böyük rayon erməni işğalından azad edildi. Bu nəticəni İlham Əliyev böyük qələbə hesab edirdi.

Bununla belə, ölkə başçımız əldə edilmiş Zəfərdən sonra Azərbaycan üçün yeni bir dövrün – quruculuq dövrünün başlandığını xüsusi ilə qabardırdı. Çünki Ermənistanın işğalçı qüvvələrinin Azərbaycan ərazisində törətdiyi dağıntıların, talanların, ekoloji terrorun miqyası son dərəcə böyük idi, işğal edilmiş ərazilərdəki bütün yaşayış məntəqələri yerlə-yeksan edilmişdi. Prezident İlham Əliyev yenə də özünə xas olan qətiyyət və əminliklə bəyan etdi ki, işğaldan azad edilmiş ərazilər yenidən dirçəldiləcək, yenidən Azərbaycanın qaynar həyatına qaytarılacaqdır.

Azərbaycan Prezidenti onu da əminliklə bəyan edirdi ki, indi biz yalnız irəli gedəcəyik. Nitqini isə o, ümummilli şüara çevrilmiş "Qarabağ Azərbaycandır və nida" ifadəsi ilə tamamladı.

Sonra Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan da Azərbaycanın kədərini kədəri, sevincini öz sevinci hesab edən Türkiyə adından Zəfər sevincini bölüşən bir nitq söylədi. O da Azərbaycan torpaqlarının 30 illik işğalının yaratdığı məhrimiyyətlərə, bu məhrumiyyətlərə yol açan siyasəti izləyən qüvvələrin yarıtmaz möqeyinə öz münasibətini bildirdi. Türkiyə Prezidenti şübhə etmirdi ki, Ermənistan xalqı Qarabağda yaşananlardan dərs çıxara biləcəyi təqdirdə bölgədə də yeni bir dövrün başlanğıcı qoyula bilərdi.

Sonra isə Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Zəfər paradı başladı. Onların ardınca tribunaya Zəfər paradında iştirak etmək üçün minbaşı Harun Ergenin rəhbərliyi altında Azərbaycana gəlmiş Türkiyə Respublikası Silahlı Qüvvələrini təmsil edən ordu dəstəsi yaxınlaşdı.

Daha sonra hərbi texnikaların keçidi başladı. Öncə erməni hərbi qüvvələrindən qənimət götürülmüş hərbi texnika və silahların bir qisminin nümayişi keçirildi. Bu silah və texnikanın önündə Azərbaycan Silahlı Qüvvələrinin işğaldan azad olunan ərazilərdə ermənilərdən qənimət götürdüyü və sıradan çıxardığı 2 mindən çox avtomobilin nömrə nişanlarından hazırlanan kompozisiyanı əks etdirən avtomobil irəliləyirdi.

Həmin kompozisiyanın üzərində böyük hərflərlə "Qarabağ Azərbaycandır!" sözləri yazılmışdı. Ardınca isə döyüşlərdən qənimət götürülmüş istifadəyə yararlı texnikalar - "KamAZ" markalı avtomobilin qoşqusunda D-30, "Ural" markalı avtomobilin qoşqusunda D-20 topları, qoşqu üzərində zenit qurğuları, "ŞİLKA", "OSA-1T", "KUB" zenit-raket kompleksləri, piyadaların döyüş maşınları (PDM), "T-72" tankları, eləcə də istifadəyə yararsız texnikalar - zirehli "UAZ Patriot", "UAZ Hunter" minik, "ZİL-131", "Ural", "KamAZ" markalı yük avtomobilləri, 122 millimetrlik "Qvozdika" özüyeriyən artilleriya qurğusu, BM-21 "Qrad" qurğuları, PDM-1 və PDM-2 texnikaları, T-72 tankları Azadlıq meydanına gətirildi.

Sonra da Azərbaycan Ordusunun arsenalında olan silahlar və hərbi texnika Azadlıq meydanından keçdi. Onların arasında "Qarabağ" ordenli general-leytenant Nizam Osmanovun başçılıq etdiyi xüsusi təyinatlı avtomobil, zirehli texnika və silah sistemləri kolonu, "Zəfər" ordenli general-leytenant Ramiz Tahirovun başçılıq etdiyi Hava Hücumundan Müdafiə Silahları sistemləri kolonu, "Zəfər" ordenli general-mayor Ağamir Sultanov başçılıq etdiyi artilleriya silahları sistemlərinin kolonu, "Qarabağ" ordenli polkovnik Həsən Əlövsətovun rəhbərlik etdiyi Azərbaycan Hərbi Hava Qüvvələrinə məxsus döyüş təyyarələrinin və helikopterləri dəstəsi də var idi.

Paradın sonunda isə Vətən Müharibəsi Qəhrəmanı, general-mayor Namiq İslamzadənin başçılıq etdiyi təyyarələr qrupu rəngli tüstülərlə səmada qalib Azərbaycanın dövlət bayrağının təsvirini canlandırdılar.

***Mehmə SÜLEYMANOV,***
***Milli Müdafiə Universiteti Hərbi Elmi-Tədqiqat İnstitutunun professoru, tarix elmləri doktoru***

# “Elektron” həyatımıza əlvanlıq və rahatlıq gətirib

## *Onun siqaretə çevrilməsi isə ömrümüzə balta çalır*

**Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) hesabatına görə, hazırda dünyada 100 milyon nəfərdən çox insan elektron siqaret (e-siqaret) istifadə edir və onların ən azı 15 milyonu 13-15 yaşlı yeniyetmələrdir. Uşaqlar arasında e-siqaret istifadəsi isə yetkinlərə nisbətən, təxminən, 9 dəfə yüksəkdir.**

E-siqaretlər ənənəvi siqaretlərə alternativ təqdim edilsə də, xüsusilə gənclər və qadınlar arasında geniş yayılıb. Bu məhsulların rəngarəng dizaynlarla sosial mediada geniş reklamı e-siqaretləri gənclər üçün daha cazibədar edir. Əsas hədəf ilkin mərhələdə siqareti tərgitmək istəyən şəxslər olsa da, son illərin statistikaları göstərir ki, bu cihazın istifadəsi əvvəllər siqaret çəkməyən yeniyetmələr və gənclər arasında sürətlə yayılır.

Bundan əlavə, e-siqaretlərin tüstüsünün olmaması və xoş qoxulu aerozolları onların qapalı məkanlarda istifadəsini asanlaşdırır. Bu xüsusiyyətlər e-siqaretlərin nəqliyyat vasitələrində, restoranlarda və digər ictimai yerlərdə rahat şəkildə istifadə olunmasını şərtləndirir və insanların passiv şəkildə təsirə məruzqalma ehtimalını artırır.

ÜST hesabatında, eyni zamanda, ölkələrə çağırış edərək yeniyetmələr arasında e-siqaret və digər nikotin məhsullarının istifadəsinin yaxından izlənilməsi, yenilərinin yayılmasına qarşı isə təsirli tənzimləyici və maarifləndirici tədbirlərin həyata keçirilməsi zəruriliyini bildirir.

**Pulmonoloq Asif Haqverdiyev** söhbətində bildirdi ki, ənənəvi siqaretlərə elektron əsaslı alternativin yaradılmasına ötən əsrin əvvəllərində başlanılıb. E-siqaretlər üçün ilk patent 1930-cu ildə ABŞ-da verilib. Lakin bu ölkə tarixində belə bir texnologiyanın tətbiqinin və ya hər hansı prototipin hazırlanmasının təsdiqi barədə heç bir fakt qeydə alınmayıb. E-siqaretin ilk fiziki başlanğıcının əsası isə 1965-ci ildə ABŞ-da Herbert A.Hilbert tərəfindən qoyulub.

A.Haqverdiyevin məlumatına görə, ötən əsrin sonlarında e-siqaretin yaradılması istiqamətində çoxsaylı tədqiqatlar və sınaqlar aparılsa da, bu, nəticəsiz qalıb. Belə bir uğursuzluq isə müəyyən avadanlıq və texnologiyaların hazırlanması imkansızlığı ilə bağlı olub. Lakin bütün bunlara baxmayaraq, tədqiqatların gedişatında müəyyən irəliləyişlər, məsələn, e-siqaretlərdə istifadəsi xüsusi önəm daşıyan “qızdırmaq, lakin yandırmamaq” kimi yeni bir prinsip texnoloji həll yolu ilə həyata vəsiqə alıb.

Nəhayət 73 il sonra, 2003-cü ildə Çinin paytaxtı Pekində ilk işlək e-siqaret buraxıldı. Modelin müəllifi 52 yaşlı əczaçı-ixtiraçı Xon Lik idi. Siqaret aludəçisi olan atasının ağciyər xərçəngindən vəfat etməsi onu təsirləndirmiş və ixtirasına “Ruyan” (tüstüyə bənzər) adını vermişdi. E-siqaretin kəşfinin əsas məqsədi isə siqaret çəkəni nikotin asılılığından azad etmək idi.

Həmin vaxtdan uzun bir dövr keçsə də, o məram, düşüncə dəyişməyib. Təbii ki, bu məsələdə bazara e-siqaretlər buraxan şirkətlərin sözügedən cihazın insanı nikotin asılılığından azad edən önəmli vasitə, ziyansız model olması ilə bağlı güclü təbliğatı əsas rol oynayıb. Bütün bunlar nəticə etibari ilə e-siqaretlərin satışlarına və populyarlaşmasına birbaşa təsir göstərib.



ÜST-nin ən yeni məlumatına əsasən, son 19 ildə siqaret çəkənlərin sayında azalma müşahidə edilib. Belə şəxslərin sayı 2000-ci ildəki 1,14 milyard nəfərdən 1,1 milyarda qədər azalıb. E-siqaret istifadəçilərinə münasibətdə isə tam fərqli tendensiya müşahidə olunub. Belə ki, “Euromonitor” analitik şirkətinin xəbərinə görə, 2011-ci ildə elektron siqaret çəkənlərin sayı 7 milyon nəfər olduğu halda, cəmi 7 il ərzində bu rəqəm 6 dəfə artaraq 41 milyon nəfərə yüksəlib. Şirkətin dəyərləndirməsinə əsasən, 2021-ci ildə bu göstəricinin 55 milyon nəfərə çatacağı proqnozlaşdırılıb. E-siqaretlərin qlobal bazarının dəyəri isə son 5 ildə 6,9 milyard dollardan 19,3 milyard dollara kimi çoxalıb və 2023-cü ilə 26,84 milyard dollara çatacağı proqnozlaşdırılıb.

Burada diqqətçəkən əsas məqam odur ki, beynəlxalq aləmdə bazar perspektivinin və cəmiyyətin sağlam həyat tərzinin yüksək dəyərləndirilməsini görən tütün şirkətləri bu sahəyə can atır və e-siqaretlərin istehsalına külli miqdarda investisiyalar yatırır. E-siqaretlərin ən böyük istehlakçısı olan ABŞ bazarının 75 faizinə sahib olan “Juul Labs” şirkətinin 35 faiz səhmlərinin “Marlboro”nun istehsalçısı və “Philip Morris”in sahibi olan “Altria Group” tərəfindən 12,8 milyard dollara alınması məhz bunun bariz ifadəsidir.

İlk anda bu fakt e-siqaretin tərkibindəki maddələrin insan orqanizminə zərər verməməsi anlamına gəlir. Amma mütəxəssis şərhindən sonra əsl həqiqət üzə çıxır. Bu məsələ ilə uzun müddət araşdırma aparan **ekspert Abbas Umudovun** sözlərinə görə, e-siqaretlərin əsas komponenti müxtəlif dad əlavələri (mentol, vanil, kofe, şokolad və s.) olan mayedir. O, propilenqlikol, qliserol, aramotozator və nikotin əsaslı olur. Birinci komponent e-siqaretlərdə əlaqələndirici rolunu oynayır. Qliserol buxarın keyfiyyətinə təsir edərək onu sıxlaşdırır. Aramotizator təbii və süni yollarla alınan qarışıqdır və mayeyə dad verir.

Hesab edilir ki, e-siqaretlərin tərkibində ziyanlı qəbul olunan yeganə komponent nikotindir. Onun e-siqaretlərdə olması tütündən imtina edən insanın nikotin çatışmazlığı ilə bağlı fiziki əziyyət çəkməsini önləyir. Nikotinin varlığı həm də boğaza zərbə effekti üçün lazımdır. Bu, özünü yuxarı nəfəs yollarında yerləşən sinir uclarının qıcıqlanmasında göstərir ki, nəticədə insan e-siqaret çəkməkdən ləzzət alır.

A.Umudov deyir ki, adi və e-siqaretlər arasında əsas fərq sonuncuda benzol, ammiak, sianid və digər komponentlərin olmamasıdır. E-siqaretlərin istifadəsi zamanı dişlər və barmaqlar saralmır və ətrafdan tütün qoxusu gəlmir. Eyni zamanda, elektron cihazın istifadəsi, ilk növbədə, psixoloji amilə əsaslanır. Başqa sözlə, e-siqaret istehsalçıları tərəfindən “buxarvermə” ifadəsi kütlə arasında geniş təbliğ edilməklə sanki söhbətin siqaret çəkməkdən getmədiyi düşüncəsi yaradılır.



Bununla istehlakda adi papirosa nisbətən e-siqaretdən daha çox istifadəyə üstünlük verilir. Amma orqanizmə e-siqaretlərin tərkibində yerləşdirilən nikotin və digər maddələrdən ciddi ziyan dəyir. Nəticədə, qan dövranı, sinir sistemi, damarlar, böyrək, qaraciyər əziyyət çəkir. İnsan orqanizminin elektron siqaretə reaksiyası adi siqaretə olduğu kimidir və ondan istifadə zamanı nəfəsə oksidativ stres və xərçəng yaradan birləşmələr gedir. Həmin birləşmələr adi siqaretlərdə olandan az olsa da, xəstəliyi yaratmağa yetərlidir.

Heyvanlar üzərində aparılan tədqiqatlara görə, hamiləlik vaxtı e-siqaret çəkmənin dölə təsiri adi siqaretlərdən fərqli deyil. E-siqaretlərin buxarında dəmir, gümüş, nikel, alüminium, mis, qurğuşun və xrom kimi müxtəlif metalların hissəcikləri aşkar edilib. Tədqiqtalara əsasən, e-siqaretlərdəki nikotinin həcmi bəyan edildiyindən artıq olur.

**Həkim-ekspert Qulu Məhərrəmovun** sözlərinə görə, e-siqaretlər indiyədək ÜST tərəfindən sertifikatlaşdırılmayıb. Bundan başqa, nə kartriclərin, nə də siqaretlərin icbari sertifikatlaşdırmadan keçirilməməsi saxta və insan orqanizmi üçün ziyanlı e-siqaretlərin istehsalına geniş imkan yaradıb. Bunun nəticəsində istifadə zamanı bu cür siqaretlərin partlaması və insanlara ağır bədən xəsarətləri yetirməsi halları intensivləşib. 2015-2017-ci illər arasında ABŞ-da elektron siqaretlərin partlaması ilə bağlı təxirəsalınmaz yardımın sayı 2035-ə çatıb.

Belə hadisələrin bir çoxu e-siqaretdən istifadə anında baş verib və iki halda bu, ölümlə nəticələnib. Bir müddət əvvəl isə ABŞ-da Xəstəliklərin Profilaktikası və Nəzarəti Mərkəzi e-siqaret həvəskarları arasında ağciyər və respirator xəstəliklərin çoxalmasını qeydə alıb. Hindistan hökuməti daha da irəli gedərək bütün növ elektron siqaretlərin idxalını, satışını, reklamını və istehsalını qadağan edib. Bu isə e-siqaretlərin gənclər arasında sürətlə populyarlıq qazanması və tənəffüs yolları xəstəliklərinə səbəb olması ilə bağlıdır.

***Vaqif BAYRAMOV***
***XQ***

*Ekspert rəyi*

**Nurlanə ƏHMƏDZADƏ,**
**pulmonoloq**



E-siqaretlər tütün məmulatı hesab edilmir, çünki tərkibi yalnız nikotin əsaslıdır. ÜST-nin məlumatına görə, bu məhsullar ictimai sağlamlığın qorunması baxımından ciddi əndişə doğurur. Eyni zamanda, adıçəkilən təşkilat bu cihazların sağlamlıq üçün ziyanlı olması barədə davamlı bəyanatlar yayır və onun gənclərin sağlamlığına mənfi təsir göstərməsi ilə əlaqədar ciddi narahatlığını ifadə edir.

Nikotin tərkibli e-siqaretlərin gənclər və hamilə qadınlar tərəfindən istifadəsi xüsusilə təhlükəlidir. Bu cür siqaretlərin çəkilməsi zamanı orqanizmə daxil olan aerozolun tərkibində onkoloji, ürək və ağciyər xəstəlikərinin inkişafı riskini artıran toksik maddələr var. Çəkmə prosesində istifadəçinin nəfəsindən çıxan aerozol isə siqaret çəkməyən və ətrafda olan insanları nikotin və bəzi toksik maddələrin təsirinə məruz qoyur. Eyni zamanda, orqanizmə daxil olan hər hansı bir maddə qan dövranına sovrulduqdan sonra bütün orqanlarda aşkarlanır.

E-siqaretlərdə istifadə olunan maye yağ əsaslıdır. Onun tərkibində nikotinlə yanaşı, propilenqlikol, qliserol kimi fəal maddələr də var. Qliserol və propilinqlikol həm də ağır kimyəvi bir düstura malikdir, daha çox təbiətdə neftin tərkibində aşkarlanır. Propilenqlikol və qliserol kimyəvi üsullarla neftdən ayrılır, sənayedə istifadə edilir, e-siqaretə daxil olması da bir sıra təhlükəyə yol açır. Ayrı-ayrılıqda hər ikisi ağır kanserogen nəticə verə biləcək maddələrdir. Bunların nəfəs yollarına daxil olması, yerli toxumalara təsiri və qana sovrularaq qanda dolaşması daxili orqanların yüksək konsentrasiyasına gətirib çıxarır.

Orqanizmə daxil olan hər hansı bir maddə qan dövranına sovrulduqdan sonra bütün orqanlarda aşkarlanır. E-siqaret çəkən şəxslərdə bu, ilk növbədə, ağciyərlərdə özünü göstərir. Araşdırmalara görə, e-siqaret heç də təbliğ edildiyi qədər təhlükəsiz deyil. E-siqaretin çəkilməsi də gəncləşib, bəzi xarici ölkələrdə məktəb yaşlı uşaqlar arasında istifadəsinə rast gəlinir. Belə ki, ABŞ-ın Xəstəliklərin Profilaktikası və Nəzarəti Mərkəzinin statistikasına əsasən, ötən ilin sentyabrında bu ölkədəki məktəblilərin 20 faizi və ya 3 milyon nəfər e-siqaret istifadəçisi olub.

Azərbaycanda ev təsərrüfatları tədqiqatının son məlumatlarına əsasən, 15 və yuxarı yaşda olan əhalinin 31,9 faizi siqaret çəkir. E-siqaret ölkəmiz üçün kifayət qədər yeni anlayışdır və mövcud tələb 100 faiz idxal hesabına ödənilir. Respublikamızın geniş auditoriyalı elan saytlarının birində verilən məlumatların ilkin təhlili göstərir ki, markasından və xüsusiyyətlərindən asılı olaraq istehlakçılara təklif edilən e-siqaretlərin qiyməti artıq 250 manatı keçir. Bu cihazlarda istifadə olunan nikotin tərkibli mayenin 10 milliqramının qiyməti isə 5 manatdan başlayır.

*Ekspert rəyi*



**Əsəd BEYDULLAYEV,**
**pulmonoloq**

E-siqaretlərin zərərsiz olduğu barədə geniş yayılan fikir tamamilə yanlışdır. Bu cür siqaretlər son illərdə xüsusilə xanımlar və yeniyetmələr arasında geniş yayılıb. Lakin tibbi araşdırmalar göstərir ki, belə məhsulların uzunmüddətli istifadəsi təhlükəlidir. 2019-cu ildən etibarən tibb dünyasında təsdiqlənən “EVALİ” (e-siqaretlə bağlı ağciyər zədələnməsi) adlı xəstəlik ciddi narahatlıq doğurur. Bu, e-siqaret istifadəsi nəticəsində yaranır və əsasən təngənəfəslik, yüksək hərarət, halsızlıq, ağciyər zədələnməsi kimi ciddi simptomlarla özünü göstərir.

E-siqaret istifadəçilərində 90 gündən artıq istifadə belə “EVALİ” riskini artırır. Bu, gənclər və yeniyetmələr üçün xüsusilə təhlükəlidir, çünki onların ağciyərləri hələ tam inkişaf etməyib. Siqareti buraxmaq istəyən şəxslər elektron siqaretə keçməməlidir. Məqsəd yalnız zərərin azaldılması olmamalı, bu təhlükəli vərdişi tamamilə tərgitmək daha sağlam və təhlükəsiz variant hesab edilməlidir. E-siqaret adi siqaretlərdən daha az zərərli kimi qəbul edilsə də, tibbi baxımdan bu fikir yanlışdır. Bu siqaretin də öz riskləri və ciddi sağlamlıq problemləri var.

Nikotinsiz hesab edilən bəzi e-siqaret mayelərində belə, orqanizm üçün zərərli kimyəvi birləşmələr aşkar edilib. Bu maddələr nəfəs yollarının selikli qişasını zədələyir və xüsusilə gənclərdə tənəffüs problemlərinin yaranmasına yol açır. ÜST-nin son hesabatında da qeyd olunur ki, e-siqaretlərin istifadəsi son illərdə 13-17 yaş arası yeniyetmələr arasında sürətlə artıb və bu, gələcəkdə nikotin asılılığının güclənməsinə gətirib çıxara bilər. E-siqaretlərin “dumansız” olması isə onların zərərsiz olduğu anlamına gəlmir. Buxar ağciyərlərə daxil olduqda, orada oksidləşmə prosesi baş verir və hüceyrələrin zədələnməsi nəticəsində xroniki ağciyər xəstəlikləri formalaşır. ABŞ və Avropada aparılan bir sıra tədqiqatlarda e-siqaret istifadəçilərində astma və bronxit hallarının artdığı da müşahidə olunur.

# Tailand–Kamboca: yenə silahlar “danışır”

**Tailand və Kamboca arasında hərbi toqquşmalar yenidən alovlandı. Halbuki oktyabrın sonunda ASEAN sammitində tərəflərin imzaladığı sülh razılaşması iki ölkə arasında münasibətlərin qaydasına düşəcəyinə olan inamı gücləndirmişdi. Lakin dekabr ayının 8-i səhər saatlarında Kamboca üçün hava zərbələri ilə başladı. Tailand ordusu əvvəlcə öz hərbçilərinin Kamboca tərəfindən “atəş dəstəyi ilə” vurulduğunu bildirdi, ertəsi gün isə sərhəd boyunca aviazərbələr endirdi. Birmənalı olmayan məlumatlar - Tailandın “cavab atəşi” versiyası və Kambocanın “ilk hücumu tailandlıların etdiyi” iddiası – regionda informasiya müharibəsinin də qızışdığını göstərir.**

Kamboca Müdafiə Nazirliyinin nümayəndəsi Meli Soçeata bəyan edib ki, hücuma məruz qalan tərəf məhz Kambocadır və Pnompen hərbi cavab verməmək qərarı alıb. O, Tailandı “bütün düşmənçilik fəaliyyətlərini dərhal dayandırmağa” çağırıb. İkihissəli 800 kilometrlik sərhəd xəttinin ən həssas nöqtəsi isə XI əsrə aid Preah Vihəar məbədi və onun ətrafındakı torpaqlardır. 1962-ci ildə Beynəlxalq Məhkəmə məbədi Kambocaya vermişdi, lakin Tailand məbədin ətrafındakı 4,6 kvadratmetrlik sahənin özünə məxsus olduğunu iddia edir. Yayda bu mübahisə beş günlük müharibəyə səbəb olmuşdu.

Xatırladaq ki, ötən oktyabr ayında ABŞ prezidenti Donald Tramp telefonla zəng edərək hər iki tərəfi xəbərdarlıq etmişdi ki, döyüşlər dayandırılmasa, Vaşinqton həm Tailand, həm də Kamboca ilə ticari danışıqları donduracaq. Həmin təzyiq işləmiş, tərəflər atəşkəsi imzalamışdı. Cənab Tramp bunu “Cənub-Şərqi Asiya xalqları üçün əlamətdar gün” adlandırmışdı. Lakin dekabrın 8-də tərəflər yenidən silahla “danışmağa” başladılar.

Son məlumatlara görə, Tailand artıq dəniz qüvvələrini də bölgəyə cəlb edib. “The Nation” qəzeti yazır ki, Kamboca sərhədə xüsusi təyinatlılar, snayperlər və reaktiv yaylım atəşi sistemləri yerləşdirib. Tailand bu addımı “suverenliyə təhdid” kimi qiymətləndirir. Kamboca isə cavab olaraq səngərlər qazıb, ağır texnika yerləşdirib və Tailand mövqelərini izləmək üçün PUA-lardan istifadə edir.




Hazırkı gedişat göstərir ki, qısamüddətli razılaşmaların ömrü uzanmadıqca regionda yeni gərginlik dalğaları qaçılmaz olacaq.

***Səbuhi MƏMMƏDOV***
***XQ***

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 260 (30954) 10 dekabr 2025-ci il, çərşənbə

İDMAN

## Everest və Lhotseni fəth edən ilk azərbaycanlı qadın



**Beynəlxalq Dağlar Günündə Azərbaycanın alpinistlik tarixində ilkə imza atılıb.**

Azərbaycanlı alpinist Vəfa Musayeva (Qəhrəman) Everest (8 848 metr) və Lhotse (8 516 metr) zirvələrinə qalxış sertifikatlarını ölkədə ilk dəfə olaraq rəsmi şəkildə təqdim edib.

Alpinist təqdimat zamanı bildirib ki, əsas məqsədi bu uğuru Azərbaycan ictimaiyyəti ilə bölüşməkdir. V. Musayeva bu il keçirilən eyni ekspedisiya çərçivəsində hər iki zirvəyə ardıcıl qalxaraq Azərbaycan alpinistləri, xüsusilə də qadın idmançılar arasında bir ilkə imza atıb. Everest və Lhotse zirvələrinə bir ekspedisiyada qalxmaq dünya üzrə az sayda qadının nail olduğu nəticədir.

Musayevanın dağçılıq fəaliyyəti yerli zirvələrdən – Bazardüzü, Şahdağ, Tufandağ və digər dağlardan başlayıb.

Qeyd edək ki, Everest zirvəsinə ayaq basan ilk qadın alpinist 1976-cı ildə Yaponiyadan olan Dyunko Tabey olub.

## Vüqar Həşimov Memorialının açılışı



**Xankəndidə mərhum şahmatçı, Avropa çempionu Vüqar Həşimovun xatirəsinə həsr olunan 11-ci Vüqar Həşimov memorialının açılış mərasimi keçirilib.**

Azərbaycan Respublikası Prezidentinin Xankəndi şəhərində, Ağdərə və Xocalı rayonlarında xüsusi nümayəndəsinin müavini Səbuhi Qəhrəmanov çıxışında Vüqar Həşimovun ölkə şahmatı tarixindəki rolundan bəhs edib.

Azərbaycan Şahmat Federasiyasının prezidenti Mahir Məmmədov turnirin təşkilinə göstərilən dəstəyə görə Prezident İlham Əliyevə dərin təşəkkürünü bildirib.

Təşkilat Komitəsinin sədri Sərxan Həşimov yarışın bundan sonra da keçiriləcəyinə söz verib. O bildirib ki, turnirin Xankəndidə təşkili tarixi hadisədir. S.Həşimov daha sonra yarışı açıq elan edib.

Vüqar Həşimov Şahmat Fondu, Gənclər və İdman Nazirliyi, eləcə də Azərbaycan Şahmat Federasiyasının təşkilatçılığı ilə keçirilən turnirdə 6 şahmatçı rapid və blits yarışlarında mübarizə aparacaq.

Zəka sahiblərindən Yan Nepomnyaşi (FIDE), Amin Tabatabai (İran), Vladimir Fedoseyev (Sloveniya), Nodirbek Yakubboyev (Özbəkistan), Rauf Məmmədov və Aydın Süleymanlı 2 dövrədə qüvvələrini sınayacaqlar.

*Qabil YUSİFOĞLU*
*XQ*

*İlin məsul oyunu*

# “Qarabağ”dan Banişevskinin anım günündə gözləntimiz

**Azərbaycan çempionu UEFA Çempionlar Liqasının Liqa turnirində bu gün daha bir hünər göstərməyə hazırlaşır. Avropa klub futbolunun ən mötəbər yarışında 6-cı turun görüşü “Qarabağ” tarixində ən mühüm oyun və ya ilin matçıdır. Niderlandın “Ayaks” komandası ilə qarşılaşmada qələbə Qurban Qurbanovun fədakar mübarizə əzmi və ürəkaçan nəticələri ilə beynəlxalq futbol dairələrində də qəlbləri fəth etmiş komandasını turnir cədvəlində ilk onluğa yaxınlaşdıra bilər.**




Əgər hər şey bizim düşündüyümüz və arzuladığımız kimi olsa, hazırda cədvəldə 7 xalla "Barselona" (İspaniya) və "Napoli" (İtaliya) kimi nəhəng klublarla 18-20-ci pillələrdə yanaşı addımlayan "Qarabağ" xal ehtiyatını 10-a çatdırmaqla, bəlkə də, finişə hələ 2 tur qalmış əsas mərhələdə əsas məsələni həll etmiş olacaq.

Amsterdam təmsilçisi ilə görüş saat 21:45-ə təyin edilib. Oyuna maraq və onun bizim üçün əhəmiyyəti son dərəcə böyükdür. Demək olar, bütün biletlər satışa çıxarıldığı elə ilk günlərdə xoşbəxt sahiblərini tapıb. "Tofiq Bəhramov" stadionunun tribunalarından mübarizənin gedişini izləyəcək on minlərlə tamaşaçı arasında niderlandlı qonaqlarımız da az olmayacaq. UEFA bu il beynəlxalq meydanda "Qarabağ"ın son oyununda ədaləti qorumağı isə Sloveniya Futbol Federasiyasının nümayəndələrinə həvalə edib. Baş hakim rolunda iş başında Rade Obrenoviçi görəcəyik. Görək o, nə ilə yadda qalacaq.

"Qarabağ"dan fərqli, "Ayaks"ın turnir vəziyyəti, demək olar, ümidsizdir. Əfsanəvi Yohan Kroyfun davamçıları ilk 5 oyunda bütün rəqiblərinə uduzub, xal qazanmayan yeganə komandadır. Elə buna görə də pley-offa 24 "bilet" uğrunda mübarizə aparan 36 kollektivin rəqabətində sıfır xalla sonuncu yerdə olan Amsterdam klubu qalan üç turda çempionlar meydanının qapısını bərk çırpmaq üçün əlindən gələni edəcək. Bir sözlə, komandamızı qələbəyə həsrət qalan rəqiblə çox çətin görüş gözləyir.

Bunu yaxşı dərk edən Ağdam komandası, "Ayaks"ın turnir vəziyyəti nə qədər qibtəedilməz olsa da, güclü futbol ənənələri ilə tanınan "Zanbaqlar ölkəsi"nin zəngin təcrübəli klubu ilə görüşü tam hazırlıqla qarşılamağa çalışıb. Başqa cür ola da bilməz. Hətta ən zəif komandaya belə, yuxarıdan aşağı baxsan, peşman olarsan.

İki həftə əvvəl "Qarabağ" Neapolda meydanı məğlubiyyətlə tərk etsə də, bütün komandanın, xüsusən də parlaq oyun nümayiş etdirən qapıçımız Mateuş Koxalski və müdafiəçi Kevin Medinanın fədakarlığı bu gün də mütəxəssislərin və dünya mətbuatının diqqət mərkəzindədir. Şübhəsiz, onlar axşamkı görüşdə də dostları ilə birlikdə "Qarabağ"ın şərəfini layiqincə qorumağa çalışacaqlar. Ümid edək ki, məqsədlərinə çatacaq və komanda finişə yaxınlaşmaqda olan 2025-ci ildə Çempionlar Liqasında son oyundan qalib ayrılıb, yeni ili 10 xalla qarşılayacaq. Yeni ildə Liqa mərhələsində son iki oyunumuzun qışın oğlan çağında olacağını da xatırlatmaq yerinə düşər. Ölkə çempionumuz yanvarın 21-də Bakıda "Ayntraxt"ı (Frankfurt, Almaniya) qəbul edəcək,bundan bir həftə sonra isə İngiltərənin Liverpul şəhərində eyniadlı yerli klubun qonağı olacaq.

Bu gün, dekabrın 10-da futboldan danışarkən Anatoli Banişevskini xatırlamamaq olmaz. Eyni bir ildə (1966) İngiltərədə SSRİ yığma komandası heyətində dünya çempionatının, ölkəmizdə isə "Neftçi"nin tərkibində Sovet İttifaqı birinciliyinin bürünc medalçısı, Azərbaycan futbolunun "Şöhrət" ordenli əfsanəsi həyatla 1997-ci il dekabrın 10-da vidalaşıb. Əlli-altmış il əvvəl hər dəfə 30-40 min tamaşaçının gözü qarşısında Banişevskinin heyrətamiz oyun nümayiş etdirib, böyük rəğbət, ümumxalq məhəbbəti qazandığı stadionda bu gün onun hələ çox gənc və istedadlı davamçıları Bəhlul, Elvin, Toral, Nəriman, Musa meydana çıxır, Avropa klub futbolunun bəzəyi sayılan Çempionlar Liqası görüşlərində təcrübə toplayır, qol vurur, qələbə və alqış qazanırlar.

Noyabrın 25-də İtaliyanın Neapol şəhərində dünya futbolunun argentinalı əfsanəsi Maradonanın adını daşıyan stadionda "Napoli"–"Qarabağ" görüşünün keçirildiyi gün Maradonanın vəfatının 5-ci ildönümü tamam olurdu. İtaliya klubu da qələbəsini ona həsr etdiyini bildirdi. Bu gün isə 28 il əvvəl itirdiyimiz, xatirələrdə Azərbaycan idmanının yetirdiyi ən görkəmli şəxsiyyətlərdən biri kimi yaşayan Banişevskinin anım günüdür. Bu axşam "Qarabağ"ın qələbəsinə həmişəkindən də çox ehtiyacımız var. Komandamızın indiki turnir mövqeyini bir qədər də möhkəmləndirməsi elə həmin meydanda Azərbaycanı neçə-neçə qolla sevindirmiş unudulmaz mərkəz hücumçusunun da ruhunu şad edər...

*Oqtay BAYRAMOV,*
*Əməkdar jurnalist*

## “Polşa azərbaycanlı rəssamların gözü ilə”

**Gəncədə Polşanın Azərbaycandakı Səfirliyi, Arts Council Azerbaijan və “Gence Mall”ın birgə təşkilatçılığı ilə “Polşa azərbaycanlı rəssamların gözü ilə” adlı sərgi açılıb. Tədbir Polşa–Azərbaycan mədəni əlaqələrinin inkişafına töhfə verməklə Bakı və Gəncədən olan rəssamları bir yaradıcılıq platformasında bir araya gətirib.**







Açılışdan əvvəl rəssamların iş prosesinin ictimaiyyətə açıq nümayişi qonaqlara onların yaradıcılığını yaxından izləmək və suallar vermək imkanı yaradıb.

Tədbirdə Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı Niyazi Bayramov, Polşanın Azərbaycandakı səfiri Pavel Radomski, Türkiyənin Gəncədəki Baş konsulu Recep Öztop və digər rəsmi qonaqlar iştirak ediblər. Onlar sərgidə təqdim olunan əsərlərlə tanış olaraq beynəlxalq mədəni layihələrin regionların və yaradıcı gənclərin inkişafında mühüm rol oynadığını vurğulayıblar.

Sərgidə Bakı və Gəncəni təmsil edən gənc rəssamların əsərləri nümayiş olunur. Çıxışlarda bu cür layihələrin şəhərin yaradıcı mühitinə töhfə verdiyi və gənclərin incəsənətə marağının artırılması baxımından əhəmiyyətli olduğu bildirilib.

Sərgi hazırda “Gence Mall”da davam edir və ziyarətçilərə Azərbaycan rəssamlarının Polşa mədəniyyətinə müasir baxışını görmək imkanı təqdim edir.

*Hamlet QASIMOV,*
*XQ-nin bölgə müxbiri*

“Azərbaycan Hava Yolları” Qapalı Səhmdar Cəmiyyəti

***Azəraeronaviqasiya Hava Hərəkəti idarəsinin ərazisi üçün nəzarət – buraxılış məntəqəsinin tikintisi üzrə işlərin satın alınması məqsədilə***

Açıq tender elan edir

“Azərbaycan Hava Yolları” Qapalı Səhmdar Cəmiyyətinin Azəraeronaviqasiya Hava Hərəkəti İdarəsinin ərazisi üçün nəzarət-buraxılış məntəqəsinin tikintisi üzrə işlərin satınalınması məqsədilə açıq tenderdə iştirakçılar elshad.ismayilzada@azal.az elektron poçt ünvanına yazılı müraciət etməklə prosedurun şərtlər toplusunu əldə edə bilərlər.

Təkliflərin təqdim olunması üçün son tarix 24 dekabr 2025-ci il saat 15.00-dır.

Prosedur üzrə əlaqələndirici şəxs – Elşad İsmayılzadə, aparıcı mütəxəssis, elshad.ismayilzada@azal.az.

**Əlaqə telefonu**: (+99412) 4972600; daxili 5831.

HAVA

## Aramsız və güclü yağış, dağlıq ərazilərdə qar



**Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Xidmətindən verilən məlumata görə, bu gün Bakıda və Abşeron yarımadasında arabir leysan xarakterli yağış yağacağı, bəzi yerlərdə intensivləşəcəyi gözlənilir. Gün ərzində ayrı-ayrı yerlərdə aramsız və güclü olacağı ehtimalı var. Mülayim şimal-şərq küləyi əsəcək.**

Havanın temperaturu gecə 6-9, gündüz 10-12 dərəcə isti olacaq. Atmosfer təzyiqi 766 millimetr civə sütunundan 761 millimetr civə sütununa enəcək. Nisbi rütubət 85-95 faiz təşkil edəcək.

Azərbaycanın rayonlarında hava şəraitinin bəzi yerlərdə arabir yağıntılı olacağı, dağlıq ərazilərdə qar yağacağı gözlənilir. Ayrı-ayrı yerlərdə leysan xarakterli intensiv olacağı, bəzi şərq rayonlarında isə bir qədər güclənəcəyi ehtimalı var. Bəzi yerlərdə arabir duman müşahidə ediləcək. Qərb küləyi bəzi yerlərdə arabir güclənəcək.

Havanın temperaturu gecə 2-7, gündüz 10-13 dərəcə isti, dağlarda gecə 0-5 dərəcə şaxta, gündüz 0-5 dərəcə isti olacaq.

*Q.ƏLİYEV*
*XQ*

***✓ 2014-cü ildə “AAAF” PARK MTK tərəfindən Abasov Nəriman Vidadi oğlunun adına verilmiş mənzilin alqı-satqı müqaviləsi itdiyi üçün etibarsız sayılır. Ünvan: Abşeron rayonu, Xırdalan şəhəri, “AAAF” PARK yaşayış kompleksi, 25-ci küçə, 3-cü bina, 29-cu mənzil.***

***✓ 2005-ci ildə Bakının Xətai Rayon Hərbi Komissarlığı tərəfindən Rəhimov Qabil Tofiq oğlunun adına verilmiş MV seriyalı, 052146 nömrəli Qarabağ Müharibəsi Veteranı vəsiqəsi itdiyi üçün etibarsız sayılır.***

***✓ Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası tərəfindən Ülviyyə Afiq qızı Tofiqzadəyə verilmiş 23 iyun 2024-cü il tarixli A № 029166 nömrəli bakalavr diplomu itdiyi üçün etibarsız sayılır.***

***✓ Təsisçisi Mirzəyev Vidadi Sabir oğluna məxsus “Qəhrəman” müəssisəsinin möhürü itdiyi üçün etibarsız sayılır.***

ALLAH RƏHMƏT ELƏSİN!

“Xalq qəzeti”nin kollektivi qəzetin keçmiş əməkdaşı Telman Heydərova qaynı, “İnşaatçı kadrlar” qəzetinin redaktoru

**AKİF HACIYEVİN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Dillər Universitetinin professor-müəllim heyəti və Həmkarlar İttifaqı Komitəsi universitetin idman klubunun əməkdaşı Elbrus Dadaşova atası

**ƏŞRƏF DADAŞOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

AzMİU-nun rektorluğu və professor-müəllim heyəti uzun illər universitetin “İnşaatçı kadrlar” qəzetinin redaktoru olmuş

**AKİF HACIYEVİN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

**DİREKTOR – BAŞ REDAKTOR**
**ƏFLATUN AMAŞOV**

**TELEFONLAR:**
**Reklam və elanlar: 493-82-21**
**Qəbul şöbəsi: 493-24-75** **Mühasibatlıq: 498-85-29**
**Məsul katib: 493-61-02** **Email: xalqqazeti@gmail.com**
**Texniki şöbə: 493-59-64** **info@xalqqazeti.az**
**+994 (51) 280-16-44**

**“Xalq” qəzeti redaksiyası” MMC-nin kompüter mərkəzində yığılıb və səhifələnib, “Azərbaycan” nəşriyyatında çap olunub.**

**ÜNVANIMIZ:**
**AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.**
**Şəhadətnamə 022273**

**İNDEKS 0282**
**TİRAJ 3589**
**SİFARİŞ 2328**
**QİYMƏTİ 60 qəpik**

**Növbətçi redaktor**
**Nurlan ABDALOV**
**Çapa imzalanmışdır 00:00**